Xalqın qəzeti!

# Xalq qəzeti

№ 184 (30878) 31 avqust 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan "ŞƏT ailəsinin" mühüm üzvüdür

## Azərbaycan Prezidenti İlham Əliyev Çinə işgüzar səfərə gəlib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə avqustun 30-da bu ölkəyə işgüzar səfərə gəlib.**

Tiencin şəhərinin Binxay Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Çin Xalq Respublikasının sənaye və informasiya texnologiyaları naziri Li Leçen və digər rəsmi şəxslər qarşıladılar.

***AZƏRTAC***





*Gürcüstan – Aİ gərginliyi:*

## Geosiyasi qarşıdurma



Səhifə ⇨ 4

## Bakı üzərində toz buludu



Səhifə ⇨ 8

## Azərbaycan–ŞƏT: dialoq tərəfdaşlığından üzvlüyə doğru

**Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı onun müstəqil xarici siyasət kursunun əsas dayaqlarından biridir. Kursun son illərdə diqqət çəkən istiqamətlərindən biri də Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ilə əlaqələrin dərinləşməsidir. Avqustun 31-də Çində keçirilən ŞƏT Zirvə görüşünə Prezident İlham Əliyevin dəvət alması isə təsadüfi deyil. Azərbaycan artıq üçüncü dəfədir ki, təşkilatın sammitində dövlət başçısı səviyyəsində təmsil olunur və bu, ölkəmizin beynəlxalq nüfuzunun və siyasi çəkisinin göstəricisidir.**



Şanxay Əməkdaşlıq Təşkilatı qlobal güc mərkəzlərinin maraqlarının kəsişdiyi, toqquşduğu və müəyyən dərəcədə uzlaşdırıldığı nadir beynəlxalq qurumlardan biridir. Çin, Rusiya, Hindistan və Pakistan kimi dövlətlərin bir qurum daxilində yer alması Avrasiya məkanında baş verən proseslərin taleyinə təsir edə biləcək mühüm mexanizmin formalaşmasına səbəb olub. Əgər Avropa İttifaqı daha çox iqtisadi və institusional inteqrasiyanı, NATO isə kollektiv təhlükəsizlik mexanizmini təmsil edirsə, ŞƏT bu iki modelin ortasında, həm təhlükəsizlik, həm də siyasi-iqtisadi koordinasiya funksiyasını birləşdirir. Məhz bu baxımdan ŞƏT-i "Avrasiya konfiqurasiyasının mərkəzi şurası" adlandırmaq mümkündür.

*(ardı 3-cü səhifədə)*

## Zəfər liderliyindən sülhün liderliyinə - İlham Əliyev fenomeni

*Yaxud hər liderə müyəssər olmayan bacarıq barədə bir neçə söz*



**Hərb meydanındakı qələbəni qorumaq heç də hər liderə müyəssər olmur. Çünki qələbə assosiasiyasını təkcə güc amilində tapan məfhum deyil. Onun təsdiqləməsi şərtdir. Hətta ədalətli şəkildə üstünlük əldə etsən də, həmin üstünlüyün xarici aləm tərəfindən qəbuluna ehtiyac duyulur. Nəzərə alaq ki, üstünlük mütləq qələbəyə çevrilməyincə məqsədyönlü nəticələr vermir.**

Tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev döyüş meydanındakı qələbəni qorumağı bacarıb. Nəinki bacarıb, eyni zamanda qələbənin diplomatik təntənəsinə nail olub. Bu il avqustun 8-də Vaşinqtonda məhz həmin təntənə anı yaşandı. Ancaq bunadək keçilmiş yol var. O yol ki, heç də asan başa gəlməyib.

*(ardı 3-cü səhifədə)*

## Prezident İlham Əliyevin regional və qlobal siyasətə baxışları



Səhifə ⇨ 6

## USAID-in bağlanmasının qlobal nəticələri




Səhifə ⇨ 4

## Dünyanın iki qapısı önündə düşüncələr...



**İki yol ayrıcındayam – birincinin nə vaxt bitəcəyi bilinmir, sirri-xudadır, ikincinin haradan başlayacağı bəlli deyil. Birincidə elə adam tanımıram ki, həyat hekayələrindən bol-bol danışmasın, mövzu, söhbət sarıdan korluq çəksin. İkincidə əksərimiz ağzını qara daşla tıxayıb susmağı danışmaqdan üstün tutur. Düz də edirlər, rəvayətlərə inanan vaxtımız çoxdan arxada qalıb.**

Tələbəlikdə desəydilər ki, nə vaxtsa Moskva Dövlət Universitetinin jurnalistika fakultəsində təhsilini davam etdirəcəksən, qayıdanda kimsə özünə respublikanın mətbu orqanlarında yer tapmayıb geri dönəcək, belə hadisənin kiminsə başına gəlməsinə inanmazdım. Amma nə edəsən ki, bu da taleyin yazdığı yaşantıdır ki, dostum Əlişin başına gəlib. Necə deyərlər, həyat bizi bir-birimizdən ayrı saldı ki, sınağa çəksin.

*(ardı 10-cu səhifədə)*

# Avropa İttifaqının nümayəndəsi Naxçıvanda



**Avqustun 30-da Naxçıvan Muxtar Respublikasında Prezidentin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə səlahiyyətli nümayəndə Ermənistanın uzun illər davam edən işğalçılıq siyasəti nəticəsində muxtar respublikanın ölkənin əsas hissəsindən ayrı düşdüyünü və quru nəqliyyat əlaqələrinin kəsildiyini bildirib. O qeyd edib ki, ötən illər ərzində işğal altında qalmış ərazilərdəki mövcud nəqliyyat infrastrukturu, o cümlədən dəmir yolu sistemi dağıdılıb. Bu baxımdan, Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində əldə edilmiş nəticələr bölgə üçün mühüm gələcək vəd edir.

Maqdalena Qrono Azərbaycanın Vaşinqton görüşündə Ermənistanla münasibətlərin normallaşdırılması, sülh gündəliyi ilə bağlı əldə edilmiş mühüm nəticələri yüksək qiymətləndirib. O, Naxçıvanın Avropa və Asiyanı birləşdirəcək mühüm strateji mövqeyinə toxunaraq bu perspektivdə geniş logistik-nəqliyyat layihələrinin icrasının region üçün strateji əhəmiyyətini diqqətə çatdırıb.

*XQ*

# "Qarabağ İtkin Ailələri"nin Cenevrə aksiyası





**Avqustun 30-da - Beynəlxalq İtkin Düşmüşlər Günündə "Qarabağ İtkin Ailələri" İctimai Birliyi Cenevrədə BMT-nin Avropa ofisinin yerləşdiyi "Millətlər sarayı" meydanında silahlı zorakılığın bütün formalarından əziyyət çəkən insanların fəryadını təcəssüm etdirən rəmzi "Sınıq stul" abidəsi qarşısında aksiya keçirib.**

Aksiyada azərbaycanlı itkinlərin şəxsi əşyaları, sənədləri sərgilənib, onların həyat hekayələrini izah edən, onların dili ilə insanlığa xitab edən şüarlardan ibarət orijinal kompozisiya təşkil edilib.

Qeyd edək ki, bu, azərbaycanlı itkinlərin ailə üzvlərinin xarici ölkədə ilk aksiyasıdır. Bundan əvvəl – avqustun 28-də "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin müraciətinə ilk dəfə BMT səviyyəsində reaksiya verilib, azərbaycanlı itkinlərin ailə üzvləri BMT-də qəbul edilib, onlar Cenevrədə BMT-nin Məcburi Yoxaçıxmalar üzrə Komitəsinin (CED - Committee on Enforced Disappearances) Katibliyi ilə görüşüb. Görüşdə itkin ailələri Beynəlxalq Qırmızı Xaç Komitəsinin onların doğmalarından xəbər gətirəcəyinə inamlarının ciddi zədələndiyini qeyd edib, itkin düşmüş şəxslər probleminin qlobal mahiyyətli olduğunu, BMT-nin itkin düşmüş şəxslər üzrə xüsusi məruzəçisi institutunun yaradılmasına böyük ehtiyac olduğunu diqqətə çatdırıblar.

Qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 3990 nəfər Azərbaycan vətəndaşı itkin düşüb, onlardan 6 nəfəri 2020-ci ildə 44 günlük müharibə zamanı itkin düşənlərdir. İtkinlər içərisində 71 nəfər uşaq, 284 nəfər qadın, 316 nəfər ahıl şəxs var.

# Zəfərin beşinci ildönümünə həsr olunmuş videokonfrans








**Avqustun 30-da İsveçin paytaxtı Stokholmda Azərbaycanın Qarabağ müharibəsində Zəfərinin beşinci ildönümünə həsr olunmuş "Zəfərin xronikası: Qalib xalqın Müzəffər lideri" mövzusunda beynəlxalq videokonfrans keçirilib.**

70-ə yaxın qonağın iştirak etdiyi tədbirdə Dünya Azərbaycanlıları Beynəlxalq Fondunun həmtəsisçisi Emil Mirzəyev, bu fondun baş katibi professor Hikmət Cavadov, Azərbaycan Respublikasının İsveç Krallığında səfirliyinin əməkdaşı Orxan Nemətov, Şamaxı rayon Heydər Əliyev Mərkəzinin direktoru Könül Eyvazova və başqaları çıxış ediblər. Onlar bildiriblər ki, Qarabağda qazanılan Qələbə xalqın birlik və iradəsi, Azərbaycanın rəşadətli Ordusunun şücaəti sayəsində mümkün olub. Qələbənin qazanılmasında xüsusi rol özünü islahatçı-lider kimi təsdiq etmiş, 1990-cı illərin əvvəlində əldə olunmuş müstəqilliyi qoruyub saxlamaqla yanaşı, həm də XXI əsrdə ölkənin inkişaf yolunu yenidən müəyyənləşdirmiş Prezident İlham Əliyevə məxsusdur.

# FHN III MDB Oyunlarına hazırlıqla əlaqədar maarifləndirmə tədbiri keçirib



**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin Gəncə regional Dövlət Yanğın Nəzarəti İdarəsinin əməkdaşları tərəfindən ölkəmizdə keçiriləcək III MDB Oyunlarına hazırlıqla əlaqədar yanğın təhlükəsizliyi mövzusunda maarifləndirmə tədbiri təşkil olunub. Gəncə İdman Sarayında keçirilən tədbirdə şəhər stadionunun və Olimpiya İdman Kompleksinin kollektivi iştirak edib.**

Tədbirdə baş verə biləcək yanğınlar zamanı ilkin zəruri davranış qaydaları ilə əlaqədar geniş məlumat verilib, təxliyə planından düzgün istifadə olunmasının vacibliyi diqqətə çatdırılıb.

Tədbirdə ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları əyani nümayiş etdirilib, suallar cavablandırılıb.

# Yalçın Rəfiyev COP29-un tarixi nəticələrindən danışıb



**Azərbaycanın xarici işlər nazirinin müavini, COP29-un Baş danışıqçısı Yalçın Rəfiyev Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi nazirinin müavini Fatma Varankın dəvəti ilə qardaş ölkəyə səfər edib.**

Səfər çərçivəsində Y.Rəfiyev Paris Sazişi üzrə Türkiyənin "İkiillik Şəffaflıq Hesabatı (BTR1) və Doqquzuncu Milli Bəyanat və İkinci İkiillik Şəffaflıq Hesabatının (NC9/BTR2) hazırlanmasına dəstək layihəsi" çərçivəsində Ankarada təşkil olunan seminarın açılışında çıxış edib.

O, COP29-da əldə olunmuş tarixi nəticələri vurğulayıb və Paris Sazişi çərçivəsində dövlətlərin təqdim etməli olduqları İkiillik Şəffaflıq Hesabatları mexanizminin uğurla işə düşməsində Azərbaycan Sədrliyinin mühüm rolunu qeyd edib. Nəticədə, artıq 105 dövlətin bu hesabatları təqdim etdiyi, Azərbaycan və Türkiyənin isə ilk təqdim edən ölkələrdən olduğu xüsusi olaraq diqqətə çatdırılıb.

# Ulu öndərin xatirəsinə həsr olunmuş beynəlxalq turnir



**Bakıda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq həndbol turnirinin açılış mərasimi olub.**

Qurumun vitse-prezidenti Orxan Abbasov ənənəvi turnirin əhəmiyyətindən söz açıb, ulu öndər Heydər Əliyevin xatirəsini yad etməyin mənəvi borc olduğunu bildirib. Sonra Ulu öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib. Tədbir bədii hissə ilə sona çatıb.

Qeyd edək ki, bu gün başlanan turnirə sentyabrın 3-də yekun vurulacaq. Yarışda Qazaxıstanın "Astana" və Özbəkistanın OKMK komandaları mübarizə aparır. Ölkəmizi isə "Kür", "Qarabağ" və "Bakı" kollektivləri təmsil edir.

# Gürcüstanda Azərbaycanlı şairin ev-muzeyi

**Gürcüstanın Dmanisi rayonunun Qızılkilsə kəndində tanınmış şair, Aşıq Pəri Məclisinin yaradıcılarından biri Səadət Butanın ev-muzeyinin açılışı olub.**



Mərasimdə paytaxt Tbilisidən, Marneuli, Qardabani, Bolnisi və digər rayonlardan, eləcə də Azərbaycan, Türkiyə və Qazaxıstandan gəlmiş qonaqlar, dövlət rəsmiləri, mədəniyyət xadimləri iştirak ediblər.

Dmanisi rayonunun meri Koba Muradaşvili açılış rəmzi olan qırmızı lenti kəsib və bildirib ki, bu muzey təkcə Səadət Butanın kitablarının, əşyalarının, layiq görüldüyü mükafatların, qiymətli hədiyyələrin saxlanılacağı yer olmayacaq, həm də ədə-



biyyat, incəsənət və mədəniyyət ocağı kimi fəaliyyət göstərəcək.

Sonra tədbir iştirakçıları fotoşəkillər, şairin bu günədək aldığı mükafatlar, müəllifi olduğu kitablar və digər eksponatlarla tanış olublar. Çıxış edənlər Səadət Butanın yaradıcılığından, onun Azərbaycan və Gürcüstan dövlətləri arasındakı mədəni əlaqələrin inkişafına verdiyi töhfələrdən danışıblar.

Qeyd edək ki, Səadət Buta 1951-ci ildə Dmanisi bələdiyyəsinin Qızılkilsə kəndində anadan olub. O, Gürcüstan Prezidenti tərəfindən "Şərəf" medalı ilə təltif edilib.

# Zəfər liderliyindən sülhün liderliyinə - İlham Əliyev fenomeni

(əvvəli 1-ci səhifədə)



Məlumdur ki, İlham Əliyev 2003-cü ildə Prezident səlahiyyətlərinin icrasına başlayanda Azərbaycan dövlətinin prioritetinin düşmən tapdağındakı torpaqlarımızın işğaldan qurtulması olduğunu vurğulamışdı. Necə deyərlər, hər şey cəbhə üçün, hər şey qələbə üçün.

Prezidentin qələbə amalının həm diplomatik təzahürlərini gördük, həm də daxili mənəvi semantikasını. Dövlətimizin başçısı daxildə böyük ruh yüksəkliyi formalaşdırdı, Qarabağ davasını məfkurə halına gətirdi. Xaricdə isə ölkəmizin ədalətli mövqeyinin təbliğatını genişləndirdi. Ayrı-ayrı beynəlxalq təşkilatlar Ermənistanın işğalını pisləyən bəyanat və qətnamələr çıxardılar. Bu cəhət danışıqların nəticəsizliyi şəraitində atılacaq sərt addımlar üçün bir növ, zəmin formalaşdırdı. Nəhayət, haqq davamız başlandı.

44 günlük Vətən müharibəsinin ilk günləri hər kəsin yaxşı xatirindədir. Həmin vaxt elə təəssürat yaranmışdı ki, sanki Azərbaycan işğalçıdır, ölkəmizin mübarizəsi ədalətsizdir. Dünyanın ayrı-ayrı media orqanlarının, siyasi dairələrinin anti-Azərbaycan yönümlü təqdimatlarından bu qənaət də hasil olurdu ki, Ermənistan təcavüzlə üzləşən tərəfdir.

Həmin dönəmdə Prezident İlham Əliyev dünyanın media orqanlarına verdiyi otuzdan çox müsahibə ilə əsl həqiqətləri yüksək səslə, arqumentləşdirilmiş şəkildə bəyan etdi. Bu müsahibələr cəbhə bölgəsindəki ard-arda gələn uğurlarımızı beynəlxalq ictimai rəydə leqallaşdırdı, gələcək uğurlar üçün davam perspektivi formalaşdırdı. Ən başlıcası, Prezidentin səsləndirdiyi fikirlər ilə qələbə yaşantılarımız dünyada rəğbət yaratdı. Ədalətə rəğbət ənənəvi mənfi stereotipləri də sıradan çıxardı. Dövlətimizin başçısının qətiyyətli açıqlamaları, prinsipial mövqeyi, Müzəffər lider xarakteri ilə dünya 44 gün ərzində, böyük ölçüdə yanaşsaq, riyakarlıqdan uzaq durdu. Əlbəttə, buna məcbur da qaldı.

Bir haşiyəyə də çıxaq ki, Zəfəri bəxş edən güc nə qədər ədalət naminə tətbiq edilsə də onun tətbiqi güc sahibinə münasibətdə istər-istəməz, antipatiya doğurur. Prezident İlham Əliyevin sayəsində 44 günlük Vətən müharibəsindəki Zəfərimiz bu kimi mənfi təmayüldən xilas oldu. Lakin Zəfərdən sonrakı zaman kəsiyi təlatümlərsiz ötüşmədi. Qarabağdakı separatizmi, erməni avantürizmini qorumaq istəyən qüvvələrin qələbəmizi heçə endirmək cəhdlərini gördük. Onlar fəaliyyətləri ilə hərb meydanındakı üstünlüyümüzü minimallaşdırmağa çalışdılar və yenə əvvəlki havaları çalmaq yolu tutdular. Əvvəlki havalar isə bu idi: hərb yolu ilə olmaz, kompromislər vacibdir və sair. Yəni dolayısı ilə bizdən haqqımızın müdafiəsindən geri durmağımızı istədilər.

Bəli, 44 günlük müharibədən sonra bəzi beynəlxalq dairələr var gücləri ilə çalışdılar ki, Qarabağdakı erməni varlığı özünün beynəlxalq təminat obrazını qazansın. Belələri daralmış çəmbərin daha da daralmaması üçün hər şeyi etdilər. Hər şeyi etdilər ki, Azərbaycan özünün konstitusion quruluşunu bərpa etməsin. Ancaq unutdular…

Prezident İlham Əliyevin şəxsində Azərbaycan dövləti özünün dəmir yumruğunu masaya bir daha vurdu. Bu qətiyyətin əks-sədası özünü Qarabağdakı separatçıların başına yağan mərmilərdə göstərdi. 2023-cü ilin sentyabrında Silahlı Qüvvələrimizin həyata keçirdiyi lokal xarakterli uğurlu antiterror tədbirləri göstərdi ki, səbrimizin diplomatik təzahürü kimi, masadakı hədsizliyə cavabımızın güc trayektoriyası da aktualdır. Yəni güc diplomatiya naminə tətbiq zərurətini yenidən ortaya qoydu.

Prezident İlham Əliyev son dövrlərdəki müsahibələrində Azərbaycanla Ermənistan arasındakı real sülh danışıqlarının 2024-cü ilin ilk aylarından başladığını bildirib. Bir il davam etmiş bu mərhələdə də erməni avantürizmini qorumaq cəhdləri az olmadı. Rəsmi İrəvan və xaricdəki havadarları çox çalışdılar ki, sülh müqaviləsi mətni üzrə manipulyasiyalar etsinlər. Bu kimi cəhdlər haqqında söz açdığımız avantürizm üçün əl yeri qoymaq məqsədi daşıdı. Lakin bədxahların ümidləri yenə puça çıxdı. Hərbi meydanda əldə edilmiş qələbəni sülh prosesində də qələbəyə çevirən Prezident İlham Əliyevin uzaqgörən uğurlu xarici siyasəti belə meyilləri sıradan çıxardı.

Bir neçə istiqamətdə fəaliyyət göstərən dövlətimizin başçısı, ilk növbədə, xarici siyasət kursunu şaxələndirdi. Daha doğrusu, əslində, geniş diapazona malik xarici siyasət kursuna yeni çalarlar gətirdi. Ölkəmizin liderinin apreldə Çinə səfəri, səfər zamanı "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması, həmçinin İran Prezidenti Məsud Pezeşkianın ölkəmizə gəlişi, daha sonra onun Xankəndidə keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Dövlət Başçılarının 17-ci sammitində iştirakı ilə Bakı-Tehran əlaqələrinin yeni fazasının müəyyənləşməsi, habelə, Türkiyə və Özbəkistanla müttəfiqlik münasibətlərinin dərinləşdirilməsi, Mərkəzi Asiya ölkələri ilə təmasların gücləndirilməsi, Azərbaycan–Avropa İttifaqı əlaqələrinin yaxşılaşdırılması ilin əvvəlindən götürülmüş beynəlxalq siyasi xəttin çoxgedişli mahiyyətini bir daha ortaya qoydu.

Deməli, Prezident İlham Əliyevin çoxgedişli xarici siyasətin əməkdaşlıq kazusu dərinləşdi. Dövlətimizin başçısı güc amilindən səmərəli istifadə bacarığını ortaya qoydu. Azərbaycan lideri fəaliyyəti ilə sübut etdi ki, mütləq səmərə sülhdən asılıdır. Sülh isə ədalətli olmalıdır. Azərbaycan Cənubi Qafqazda ədalətli sülhün təbliğatçısı kimi öz ədalətinin təkcə gücdən asılı olan reallığa söykənmədiyini göstərdi. Həm bunu göstərdi, həm də sülhün bütövlükdə regiona fayda parametrlərini müəyyənləşdirdi və tam aydın şəkildə baxışlarını beynəlxalq ictimaiyyətə çatdırdı. Nəticədə Cənubi Qafqazdakı qlobal maraqlar naminə erməni avantürizmini tutacaq yer sayanların mövqeləri xeyli zəiflədi. Nəhayət, bütün dünya Prezident İlham Əliyevin haqqında söz açdığımız Vaşinqton zəfərini gördü.

Sonda ümumiləşdirmə apararaq, deyə bilərik ki, Prezident İlham Əliyevin Vaşinqtona işgüzar səfəri, səfər gedişində Cənubi Qafqazda barış mühiti məntiqini ifadə edən və ABŞ Prezidenti Donald Trampın rəsmi şahidliyi ilə imzalanmış "Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair Birgə Bəyannamə" Zəfər lideri olan dövlətimizin başçısının, eyni zamanda bölgəyə sülh gətirmiş lider obrazını canlandırdı. Bu, son dərəcə böyük status və müstəsna bacarıqdır. Ona görə əvvəldə vurğuladıq ki, hərb meydanındakı qələbəni qorumaq heç də hər liderə müyəssər olmur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan–ŞƏT: dialoq tərəfdaşlığından üzvlüyə doğru

(əvvəli 1-ci səhifədə)

Bəs Azərbaycan üçün belə bir təşkilatda iştirak nə dərəcədə strateji əhəmiyyət daşıyır? Təbii ki, birinci amil təhlükəsizlik coğrafiyasının genişlənməsidir. Azərbaycan Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizlik məsələlərində açar rola malikdir. Lakin qlobal miqyasda təhlükəsizlik müstəvisində formalaşan yeni risklər – transmilli terror şəbəkələri, ekstremizm, kiberhücumlar, enerji infrastrukturuna yönələn təhdidlər artıq lokal çərçivədən kənara çıxır. ŞƏT-in gündəliyində məhz bu məsələlərin olması Azərbaycanın maraqları ilə üst-üstə düşür. Bakı üçün belə bir təşkilatda iştirak regional təhlükəsizlik gündəliyini Orta Asiyadan Cənubi Asiyaya qədər uzanan geniş coğrafiyada müdafiə etmək imkanı yaradır.



İkinci amil isə balanslı siyasətin yeni mexanizmidir. Azərbaycanın xarici siyasətində balans prinsipi illərdir strateji dayaqlardan biridir. Bakı Qərb ilə enerji əməkdaşlığını gücləndirməklə yanaşı, Şərq istiqamətində də siyasi və iqtisadi əlaqələrini dərinləşdirir. ŞƏT platforması bu balans siyasətini institusional çərçivəyə gətirir. Başqa sözlə, Azərbaycan ŞƏT vasitəsilə Rusiya, Çin və Hindistan kimi güclərlə əməkdaşlıq imkanlarını genişləndirir, eyni zamanda Qərblə tərəfdaşlığı davam etdirir.

Üçüncü amil isə enerji, logistika və mədəni dəyərlərin beynəlxalq təqdimatıdır. Azərbaycanın "yumşaq və sərt güc" strategiyasının əsas dayaqları enerji resursları, nəqliyyat dəhlizləri və multikultural dəyərlərdir. ŞƏT üzv dövlətlərinin böyük əksəriyyəti enerji idxalçısı və ya tranzit ölkəsidir. Belə bir bazara çıxış Azərbaycanın enerji siyasətini daha da aktuallaşdırır. Bununla yanaşı, Orta Dəhliz layihəsi ŞƏT-in maraqları ilə üst-üstə düşür, çünki Çin–Avropa ticarətində alternativ, təhlükəsiz və sürətli marşrut kimi əhəmiyyət qazanır. Mədəni müstəvidə isə Azərbaycan tolerantlıq modeli və multikultural dəyərləri ilə təşkilatın humanitar gündəliyinə töhfə verir.

Beləliklə, Azərbaycan üçün ŞƏT-də iştirak Bakının təhlükəsizlik maraqlarını genişlənən coğrafiyada müdafiə etməsinə, böyük güclər arasında balans siyasətini möhkəmləndirməsinə və öz iqtisadi-mədəni modelini qlobal miqyasda təqdim etməsinə xidmət edir. Azərbaycan bu platformada iştirak etməklə həm milli təhlükəsizliyini möhkəmləndirir, həm də beynəlxalq siyasi arxitekturadakı çəkisini artırır.

***

Azərbaycanın hazırda ŞƏT-də dialoq tərəfdaşı statusunda çıxış etməsi onun təşkilatla əməkdaşlığının ilk mərhələsi idi. 2016-cı ildə imzalanmış memorandum çərçivəsində terrorizm, ekstremizm, separatizmə qarşı mübarizə və regional sabitliyin təminatı əsas istiqamətlər kimi müəyyənləşdirildi. Burada diqqətçəkən məqam odur ki, Azərbaycanın prioritetləri təşkilatın öz prioritetləri ilə üst-üstə düşür. Bu da gələcəkdə müşahidəçi və hətta tamhüquqlu üzvlük məsələsinin aktuallaşmasına zəmin yaradır. Azərbaycan üçün müşahidəçi statusu sadəcə formal addım ola bilərmi? Cavab isə – xeyr! Müşahidəçi statusu zahirdə yalnız təşkilatın iclaslarında iştirak imkanı kimi görünsə də əslində bu, Azərbaycanın geosiyasi mövqeyini gücləndirən strateji addım ola bilər.

Birincisi, müşahidəçi statusu Azərbaycanın təşkilat daxilində sözünü daha aydın ifadə etməsinə imkan yaradır. Azərbaycan artıq dialoq tərəfdaşı olaraq müəyyən platformalarda iştirak edirdi, lakin müşahidəçi statusu onun çıxışlarının çəkisini artıracaq,



müzakirələrdə daha çox nəzərə alınmasına şərait yaradacaq.

İkincisi, bu status Azərbaycanın "çoxvektorlu diplomatiya" kursunu daha aydın göstərir. Bakı Qərblə enerji əməkdaşlığını dərinləşdirdiyi bir zamanda, paralel olaraq Şərq istiqamətində də siyasi və iqtisadi koordinasiyanı gücləndirir. Bu isə Azərbaycanın xarici siyasətini təkcə bir blok və ya güc mərkəzinə bağlı etmədiyini, öz milli maraqları əsasında elastik və müstəqil qərarlar qəbul etdiyini nümayiş etdirir.

Üçüncüsü, müşahidəçi statusu Azərbaycan üçün yeni iqtisadi fürsətlər açır. ŞƏT üzvləri dünyanın ən sürətlə inkişaf edən bazarlarına malikdir – xüsusən Çin və Hindistan. Bu mərhələdə müşahidəçilik Azərbaycanın ticarət, enerji və tranzit imkanlarını təqdim etmək üçün geniş diplomatik meydan yaradır.

Nəhayət, müşahidəçilik Azərbaycanın ŞƏT-də gələcəkdə tamhüquqlu üzvlüyə doğru yolunun təməl mərhələsi ola bilər. Təcrübə göstərir ki, bir çox dövlətlər əvvəlcə müşahidəçi statusundan sınaq meydanı kimi istifadə edir, daha sonra isə təşkilata üzv olurlar. Azərbaycan üçün də bu, mərhələli şəkildə ŞƏT ailəsinə inteqrasiya olunmağın ən optimal modelidir.

***

Azərbaycanın beynəlxalq arenadakı nüfuzunun artması BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyündən tutmuş Qoşulmama Hərəkatına sədrliyə və COP29-un ev sahibliyinə qədər çoxşaxəli fəaliyyətlə sübut olunub. Mövcud təcrübə ŞƏT müstəvisində də Azərbaycanın rolunu gücləndirir. Eyni zamanda Azərbaycanın ŞƏT ölkələri ilə humanitar və mədəni əməkdaşlıq xətti də diqqət çəkir. Tolerantlıq və multikulturalizmin beşiyi kimi tanınan Azərbaycanın təşəbbüsləri nəticəsində ŞƏT qərargahında Nizami Gəncəvinin büstünün ucaldılması xüsusi rəmzi məna daşıyır.

Bəs maraqlıdır ki, Azərbaycanın ŞƏT-də mövqeyi Qərb ilə münasibətlərinə mənfi təsir göstərə bilərmi? Hazırkı şəraitdə bu ehtimal zəifdir, çünki Azərbaycan balanslı və çoxvektorlu siyasət yürüdür. Bakı özünü "ya Şərq, ya da Qərb" dilemmasına salmır, əksinə, hər iki istiqamətdə strateji tərəfdaşlıq əlaqələrini möhkəmləndirir.

İlk olaraq Azərbaycan Avropa İttifaqı ilə enerji əməkdaşlığını dərinləşdirir. Xüsusən, Cənub Qaz Dəhlizi və "yaşıl enerji" layihələri Avropanın enerji təhlükəsizliyinə ciddi töhfə verir. Bunlar Bakının Qərb üçün etibarlı tərəfdaş statusunu gücləndirir və Azərbaycanın Avropa siyasi gündəmində mühüm yer tutmasına səbəb olur. Yəni Azərbaycanın ŞƏT-də iştirakı Avropa üçün təhdid deyil, əksinə, tərəfdaşlığın daha geniş coğrafiyada balanslı şəkildə davam etdirildiyini göstərir.

İkincisi, Azərbaycan paralel olaraq Asiya gücləri ilə də siyasi və iqtisadi koordinasiya qurur. Çinlə əməkdaşlıq "Bir kəmər – bir yol" təşəbbüsü, Rusiya ilə enerji və təhlükəsizlik, Hindistanla isə informasiya texnologiyaları və ticarət sahələrində inkişaf edir. Üçüncüsü, Azərbaycanın çoxvektorlu siyasəti milli maraqlara əsaslanır. Bakı üçün əsas prioritetlərdən biri öz enerji resurslarını, logistika dəhlizlərini və diplomatik nüfuzunu mümkün qədər geniş beynəlxalq arenada təqdim etməkdir. Məqsəd isə yalnız bir tərəfə bağlanmaqla yox, həm Qərb, həm də Şərqlə paralel əməkdaşlıqla reallaşa bilər. Nəhayət, Azərbaycanın bu siyasəti beynəlxalq münasibətlərdə yeni "körpü rolu" modelini gücləndirir. Bakı həm Qərb, həm də Şərq güc mərkəzləri ilə eyni anda işləməklə özünü regional vasitəçi və sabitləşdirici faktor kimi təqdim edir. Yəni Azərbaycanın ŞƏT-dəki fəallığı Qərb ilə münasibətləri zədələmək əvəzinə, əksinə, onun çoxvektorlu diplomatiyasını daha görünən və effektiv edir.

Nəticə etibarilə Azərbaycanın ŞƏT sammitində iştirakı bir tərəfdən Prezident İlham Əliyevə göstərilən ehtiramın, digər tərəfdən isə ölkəmizin qlobal proseslərdə artan çəkisinin təsdiqidir. Prezidentin iştirakı həm də Azərbaycanın Qərb ilə Şərq arasında körpü rolunu oynayan geosiyasi mövqeyinin praktik təsdiqi kimi qiymətləndirilə bilər. Azərbaycan artıq dialoq tərəfdaşı statusundan müşahidəçiliyə, oradan isə üzvlüyə doğru gedən yolun yeni mərhələsinə qədəm qoyur və bu yol təkcə regional deyil, qlobal siyasətdə də ölkəmizin daha güclü söz sahibi olmasına xidmət edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# USAID-in bağlanmasının qlobal nəticələri

**ABŞ-ın Dövlət katibi Marko Rubio avqustun 29-da bəyan edib ki, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) ləğvi prosesi üzərində nəzarət ABŞ İdarəetmə və Büdcə Ofisinin (OMB) direktoru Rassel Vought-a həvalə olunur. Rubio bu barədə statusu özünün "X" hesabında satirik üslubda paylaşıb: "Prezident Trampa zarafatla dedim ki, dörd işim var. O isə mənə dedi ki, işlərimdən birini dostum Rass Vought-a verim. Mən də elə etdim. Yanvardan bəri vergi ödəyicilərinin on milyardlarla dollarını qənaət etdik. Əsas proqramların kiçik bir paketi Dövlət Departamentinə verildikdən sonra USAID rəsmi olaraq ləğv rejiminə keçdi. İndi Rass bu prosesi idarə edir. Təbriklər, Rass!"**






**Müşfiq Ələsgərli,**
**XQ-nin media eksperti**

Amma hansı üslubdan istifadə etməsinin fərqi yoxdur. İstənilən halda bu açıqlama ABŞ-ın xarici yardım sistemində onilliklər boyu əsas rol oynamış bir qurumun rəsmi olaraq tarixə qovuşması deməkdir. Beynəlxalq media, o cümlədən BBC, Reuters, Associated Press xəbəri təsdiqləyiblər. Reuters-in məlumatına görə, 2025-ci ilin 1 iyulundan etibarən USAID xarici yardım proqramlarını dayandırıb, onların idarəsi Dövlət Departamentinə verilib. "Business Insider" isə bildirir ki, bu il USAID-in təxminən 83 faiz proqramı rəsmən ləğv olunub.

## USAID-in "tarixi missiyası"

1961-ci ildə prezident Con Kennedinin sərəncamı ilə yaradılmış USAID ABŞ-ın ən böyük beynəlxalq yardım və inkişaf qurumu idi. Quruluş məqsədi rəsmi sənədlərdə "dünyanın müxtəlif regionlarında iqtisadi inkişafı dəstəkləmək, humanitar yardımlar çatdırmaq və demokratiyanın təşviqi" kimi qeyd olunurdu.

Fəaliyyətinin zirvə dövrlərində USAID-in illik büdcəsi təxminən 50 milyard dollar təşkil edirdi. Bu vəsait 120-dən çox ölkədə minlərlə layihənin maliyyələşdirilməsinə sərf olunurdu. Layihələr arasında ərzaq yardımı, səhiyyə, təhsil, infrastruktur bərpası və seçkilərin təşkili kimi fəaliyyətlər ön planda idi.

Amma təşkilatın gerçək rolu barədə müxtəlif yanaşmalar mövcud idi. Tənqidçilərin fikrincə, USAID yalnız humanitar qurum olmayıb, eyni zamanda ABŞ-ın siyasi və strateji maraqlarını həyata keçirən bir mexanizm kimi çalışıb.

## "Yumşaq güc" aləti və gizli missiyalar

Müasir beynəlxalq münasibətlərdə "yumşaq güc" anlayışı bir dövlətin başqa ölkələrə hərbi müdaxilə olmadan təsir göstərməsi deməkdir. USAID məhz ABŞ-ın bu siyasətində əsas vasitə rolunu oynayırdı. Agentlik illər boyu qrant proqramları vasitəsilə ayrı-ayrı ölkələrdə QHT-ləri, media qurumlarını, jurnalistləri və siyasi təşkilatları dəstəkləyib. Bu yolla ictimai rəyə təsir göstərərək ABŞ siyasətlərinə rəğbət formalaşdırmağa çalışıb. Bir çox hallarda isə bu dəstəklər həmin ölkələrin daxili siyasi proseslərinə müdaxilə kimi qiymətləndirilib.

Məsələn, Latın Amerikası ölkələrində USAID-in dəstəklədiyi təşkilatlar müxtəlif etiraz hərəkatlarının maliyyələşdirilməsində rol oynayıb. Şərqi Avropada isə müxalif siyasi partiyalar və vətəndaş cəmiyyətləri ondan maddi dəstək alıblar. Bu səbəbdən Rusiya, Çin, Venesuela və digər ölkələr USAID-in fəaliyyətini "casusluq" və "xarici təsir" vasitəsi adlandıraraq, fəaliyyətinə qadağa qoyublar. Gürcüstan, Azərbaycan və başqa ölkələr də USAID-in fəaliyyətindən narazılıq ifadə ediblər. Rəsmi Bakı USAID-in yerli ofisini 2024-cü ilin yayında qapadıb.

## ABŞ daxilində qalmaqallar

USAID-in fəaliyyəti yalnız xarici ölkələrdə deyil, ABŞ daxilində də mübahisələr doğurub. Dövlət Katibi Marko Rubio martın 9-da apardığı təhqiqatların nəticələrini açıqlayarkən bildirdi ki, agentliyin 5200 müqaviləsi araşdırılıb və onların böyük hissəsinin "ABŞ milli maraqlarına xidmət etmədiyi, bəzən isə əksinə, zərər vurduğu" müəyyən olunub.

Rubioya görə, bu layihələr ümumilikdə proqramların 83 faizini təşkil edib. Ləğv edilən müqavilələrin dəyəri on milyardlarla dollar idi.

Digər tənqidçilər isə deyirdilər ki, USAID son illər ərzində ABŞ daxili siyasətinə də qarışmağa başlamışdı. Agentliyin rəhbərliyinin Demokrat Partiyasının mövqeyindən çıxış etməsi, Donald Trampın prezident seçkilərində məğlubiyyəti üçün müəyyən layihələrə maliyyə ayırması barədə iddialar səslənib. Media araşdırmalarına görə, hətta USAID Tramp əleyhinə kompromatların hazırlanması üçün milyonlarla dollar ödəniş edib.

## USAID üçün "pocket rescission" metodu

Donald Tramp hakimiyyətə gəldiyi gündən ABŞ-ın xarici yardımlarını "səmərəsiz xərclər" adlandıraraq onların azaldılmasını prioritet elan etmişdi. Onun administrasiyası "pocket rescission" adlanan büdcə alətindən istifadə edərək Konqresin razılığı olmadan da xərcləri ixtisar etməyə çalışırdı.

USAID-in bağlanması bu siyasətin məntiqi davamıdır. Tramp və onun tərəfdarları hesab edirlər ki, ABŞ xaricə milyardlarla dollar xərcləmək əvəzinə, bu vəsaitləri ölkə daxilində sosial və iqtisadi problemlərin həllinə yönəltməlidir.

## USAID-in bağlanmasının qlobal nəticələri

USAID-in fəaliyyətinə rəsmi xitam verilməsi ABŞ-ın qlobal siyasətində mühüm dönüş nöqtəsidir. Bir tərəfdən bu, Vaşinqtonun beynəlxalq arenada ən böyük "yumşaq güc" alətlərindən birindən imtina etməsi deməkdir. Digər tərəfdən isə ABŞ öz təsir imkanlarını başqa mexanizmlərlə davam etdirə bilər. Hazırda USAID-in davam edən azsaylı proqramları Dövlət Departamentinə inteqrasiya olunub. Bu isə ABŞ diplomatiyasının daha birbaşa və açıq formada həyata keçiriləcəyinə işarədir.

Amma sual açıq qalır: ABŞ bundan sonra hansı institut və ya metodlarla qlobal təsirini qoruyacaq? Ekspertlər ehtimal edirlər ki, bu missiya qismən Dövlət Departamentinin beynəlxalq əməkdaşlıq strukturlarına, qismən isə özəl fondlara (məsələn, NED – National Endowment for Democracy) ötürüləcək.

# Bakıdan Ağdama 32 il sonra...




**Dünən "Azərbaycan Dəmir Yolları"nın (ADY) paytaxtdan yola düşən Bakı –Ağdam – Bakı marşrutu üzrə ilk sərnişin qatarı Ağdama çatıb. Sərnişinlər arasında Ağdamdan olan tanınmış ictimaiyyət və media nümayəndələri və digər qonaqlar olub. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksində bu tarixi hadisəyə həsr olunan tədbirdə çıxış edən Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov işğaldan azad edilmiş ərazilərdə görülən işlərdən danışıb.**

ADY-nin sədr müavini Nicat Quliyev azad olunmuş torpaqlara müntəzəm qatar səfərlərinin keçmiş məcburi köçkünlərin Ağdama qayıdışına, ümumilikdə, Böyük Qayıdışa töhfə verəcəyini bildirib. Qeyd edib ki, Bakı – Ağdam – Bakı dəmir yolu Qarabağ iqtisadi rayonunda ictimai nəqliyyatın əlçatanlığını artırmaqla yanaşı, Ağdam və ətraf rayonların sosial – iqtisadi dirçəlişinə, Azərbaycanın bu bölgədə nəqliyyat imkanlarının genişlənməsinə dəstək verəcək.



N.Quliyev daha sonra vurğulayıb ki, Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin istifadəyə verilməsi, bu gün Bakı-Ağdam dəmir yolu xətti ilə sərnişin daşımalarına start verilməsi bu şəhərdə yeni həyatın göstəricisidir. Bu reys isə Bərdə – Ağdam layihəsi çərçivəsində reallaşıb. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksində ilk dəfə olaraq qapalı platformadan istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu platformanın uzunluğu 350 metrdir. İşğaldan azad olunmuş ərazilərdə bu marşrutun davamı olaraq Ağdam – Xankəndi layihəsi də həyata keçirilir. Xankəndi Dəmir Yolu və Avtovağzal Kompleksinin inşasının 2026-cı ilin sonuna qədər tamamlanması planlaşdırılır.

Mərasim çərçivəsində Ağdamdan olan tanınmış ictimaiyyət nümayəndələri 32 il sonra qatarla doğma yurda qayıtmağın sevincini, ilk səfərin təəssüratlarını və xatirələrini bölüşüb, 1993-cü ildə işğal nəticəsində dayandırılmış bu reysin bərpasının Ağdam, ümumilikdə, Qarabağ üçün əhəmiyyətindən danışıblar.

Sonra azad olunmuş ərazilərin bərpası çərçivəsində Prezident İlham Əliyev tərəfindən 10 mayda, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 102-ci ildönümündə açılışı edilmiş Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Qeyd edək ki, Bakı – Ağdam – Bakı qatarı hər şənbə günü saat 07:10-da Bakıdan Ağdama və 18:20-də Ağdamdan Bakıya yola düşür. Komfortlu səfərlərin təşkili məqsədilə işğaldan azad edilmiş ərazilərə giriş icazəsi avtomatik təmin olunur. Səfərlər İsveçrənin "Stadler" şirkətinin istehsalı olan müasir "FLIRT" qatarı ilə həyata keçirilir.

Xatırladaq ki, işğal dövrünə qədər Bakıdan Ağdama kimi sərnişin daşımaları Bakı – Xankəndi – Bakı marşrutu üzrə hərəkət edən yataq tipli qatarla həyata keçirilirdi. Qatarlar Bakı – Ağdam – Bakı istiqamətində sonuncu dəfə 1993-cü ildə hərəkət edib. Həmin vaxt qatarla Ağdama kimi 371 kilometr olan məsafə 8 saat yarıma qət edilirdi.

*XQ*

**Gürcüstan və Avropa İttifaqı arasında münasibətlər hazırda gərgin mərhələyə qədəm qoyub. Ölkənin Avropa inteqrasiyası yolunda qarşılaşdığı çətinliklər təkcə texniki və diplomatik məsələlərlə məhdudlaşmır, həm də dərin ideoloji, hüquqi və geosiyasi müstəvidə özünü göstərir.**

Bu baxımdan 31 avqust tarixi Gürcüstan üçün xüsusi əhəmiyyət daşıyır. Bu gün Avropa İttifaqının (Aİ) irəli sürdüyü tələblərə Gürcüstan hökumətinin cavab verməli olduğu son tarixdir. Əgər bu tələblər nəzərə alınmasa, Gürcüstanın Aİ ilə əlaqələrində ciddi geriləmələrin baş verəcəyi və xüsusilə də viza liberallaşmasının ləğvi gözlənilir. Avropa Komissiyasının sözçüsü Markus Lamert də bəyan edib ki, iyul ayında Gürcüstanın Brüsseldəki səfirinə ünvanlanan rəsmi məktubda islahatlarla bağlı konkret addımların atılması tələb olunub

Gürcüstan hökuməti isə bu ittihamları rədd edir. Rəsmi Tbilisi bildirir ki, bu qanun oxşar formada ABŞ və Fransada da mövcuddur və yalnız donor maliyyəsinin şəffaflığını təmin etməyi hədəfləyir. Bu sənəd heç bir təşkilatın fəaliyyətinə müdaxilə etmir, sadəcə cəmiyyət qarşısında hesabatlılıq prinsipini gücləndirir. İqtidar qanunu milli suverenliyin göstəricisi kimi dəyərləndirir və onun ləğvini tələb edən xarici çağırışları ölkənin daxili işlərinə müdaxilə kimi qəbul edir.

Brüsselin Gürcüstandan ləğvini tələb

## *Gürcüstan – Aİ gərginliyi:*
# Geosiyasi qarşıdurma



və avqustun sonuna qədər hakimiyyətdən yeni məlumatlar gözlənilir. Komissiya bu addımların yerinə yetirilib-yetirilməməsini qiymətləndirəcək və nəticələr növbəti hesabatda, o cümlədən viza məsələsində əks olunacaq: "Komissiya Gürcüstan hakimiyyətindən yenilənmiş məlumat gözləyir və ümid edir ki, onlar tövsiyələrində qeyd olunan məsələlərin həlli üçün konkret addımlar atacaqlar. Sonradan Komissiya görülən tədbirləri və onların tövsiyələrə uyğunluğunu qiymətləndirəcək və bu, viza liberallaşmasının dayandırılması ilə bağlı növbəti hesabatda əks olunacaq".

etdiyi ikinci qanun isə LGBT hüquqları ilə bağlıdır. Əslində Qərbin təşviq etdiyi liberal dəyərlərdən olan fərdi azadlıqlar, gender bərabərliyi, LGBT hüquqları Gürcüstan cəmiyyətinin ənənəvi dəyərləri ilə ziddiyyət təşkil edir. Bu məqsədlə Gürcüstan parlamenti LGBT təbliğatını və cinsiyyətin dəyişdirilməsini qadağan edən qanun layihəsini təsdiqləyib. "Ailə dəyərlərinin və yetkinlik yaşına çatmayanların müdafiəsi haqqında" qanun layihəsini Gürcüstan parlamentinin 84 deputatı dəstəkləyib. Bununla da sözügedən qanunla ölkədə LGBT-nin təbliğini, eynicinslilərin nikahını,





Deməli, Gürcüstan hökumətinin atdığı və ya atmadığı addımlar ayrıca qiymətləndiriləcək və Aİ-nin növbəti qərarlarının hüquqi əsasını təşkil edəcək. Hazırda Brüssel tərəfindən irəli sürülən əsas tələblər demokratik institutların gücləndirilməsi, məhkəmə sisteminin müstəqilliyinin təmin olunması, media və ifadə azadlıqlarının qorunması, vətəndaş cəmiyyətinə qarşı təzyiqlərin dayandırılması və seçki sisteminin şəffaflaşdırılması ilə bağlıdır. Avropa İttifaqı Gürcüstanın, sadəcə formal olaraq inteqrasiya niyyəti bildirməsini deyil, bu sahələrdə real və effektiv addımlar atmasını istəyir. Hələlik Gürcüstan iqtidarından cavab yoxdur. Hadisələrin gedişindən də aydın olur ki, Qərbin tövsiyələri qəbul olunmayacaq.

Bu gərgin proses fonunda Gürcüstan həm də Avropa Şurası Parlament Assambleyasının ciddi tənqidlərinə məruz qalıb. AŞPA-da Gürcüstan hakimiyyəti siyasi repressiyalar, müxalifətə təzyiqlər və insan hüquqları sahəsində pozuntularda ittiham olunub. Avropalı deputatlardan bəziləri, hətta Gürcüstan hökumətinə qarşı sanksiyaların tətbiqini və ölkənin Avropa İnsan Haqları Məhkəməsinə verilməsini təklif ediblər. Bu çıxışlar, xüsusilə Gürcüstan nümayəndə heyətinin iclasda iştirak etmədiyi bir şəraitdə baş verdiyinə görə, Tbilisi tərəfindən ədalətsiz və birtərəfli yanaşma kimi qiymətləndirilib. Assambleya tərəfindən təkrar parlament seçkilərinin keçirilməsi, bütün "siyasi məhbusların" azad edilməsi, "polis zorakılığı"nın araşdırılması və "antidemokratik qanunvericiliyin" ləğvi tələb olunub. AŞPA-nın "bütün hüquqların qaytarılması" üçün şərtləri də açıq şəkildə ölkənin daxili işlərinə müdaxilə kimi qiymətləndirilib.

Müzakirələrin mərkəzində dayanan əsas qanunvericilik təşəbbüsü isə "Xarici təsirlərin şəffaflığı haqqında" və LGBT haqqında qanunlardır. Qərb bu iki qanunun ləğvini tələb edir. Cəmiyyətdə "xarici agentlər" qanunu kimi tanınan birinci qanun maliyyəsinin 20 faizindən çoxunu xarici mənbələrdən alan təşkilatların "xarici təsir altında olan təşkilat" kimi qeydiyyata alınmasını nəzərdə tutur. Hökumət bu qanunun şəffaflıq və milli təhlükəsizlik məqsədilə qəbul edildiyini vurğulasa da beynəlxalq təşkilatlar və Avropa strukturları bu qanunun vətəndaş cəmiyyətinin boğulmasına, müstəqil medianın fəaliyyətinin məhdudlaşdırılmasına və demokratik mühitin zəiflədilməsinə səbəb olacağından narahatdır.

cinsin dəyişdirilməsini, eləcə də eynicinsli münasibətləri təbliğ edən tədbirlərin keçirilməsini qadağan edib. Maraqlıdır ki, Aİ bu qanunun ləğvində hələ də israrlıdır.

Bu ziddiyyətlər isə ictimai qütbləşməni dərinləşdirir və həm daxili siyasətdə, həm də xarici əlaqələrdə gərginlik mənbəyinə çevrilir. Gürcü cəmiyyəti tarixi və mədəni baxımdan mühafizəkar köklərə əsaslanır, pravoslav dini, ənənəvi ailə modeli və kollektiv kimlik bu strukturun əsasını təşkil edir. Bu baxımdan, Aİ-nin Gürcüstan cəmiyyətinə təqdim etdiyi dəyərlər bəzən sosial sabitliyi pozan amillər kimi qavranılır. Əlbəttə, Tbilisi Qərbin təzyiqləri ilə mənəvi, ailə dəyərlərinə zidd olan tövsiyələri qəbul edə bilməz.

Bütün bu proseslər fonunda Aİ-nin Gürcüstan müxalifətinə verdiyi dəstək də rəsmi dairələrdə narazılıqla qarşılanır. Tbilisi Avropa dairələrinin yalnız müxalifətin səsini dəstəkləməsini obyektivlikdən uzaq və qərəzli yanaşma kimi görür. Baş nazir İrakli Kobaxidze dəfələrlə bəyan edib ki, Gürcüstanda xarici təsirlərlə hökumətin devrilməsinə yönəlmiş cəhdlər olub və bu cəhdlər xalqın iradəsi ilə formalaşmış hakimiyyətə qarşı yönəlib. Onun sözlərinə görə, əgər oxşar qanunlar Qərb ölkələrində qəbul edilə bilərsə, eyni hüquqi mexanizmlərin Gürcüstanda tətbiqinə etiraz edilməsi ikili standartların bariz nümunəsidir.

Hazırda Gürcüstan ilə Aİ arasında qarşıdurma Tbilisinin geosiyasi mövqeyinə birbaşa təsir göstərir. Ölkə bir tərəfdən Aİ və NATO ilə yaxınlaşmaq istəyir, digər tərəfdən isə bu addımlar regionda Rusiya ilə münasibətləri daha da gərginləşdirir. Beləliklə, Gürcüstan təkcə islahat və inteqrasiya yolunda deyil, həm də milli kimlik və beynəlxalq tərəfdaşlıq baxımından mühüm seçim qarşısındadır.

Ümumiyyətlə, Gürcüstan ilə Avropa İttifaqı arasındakı münasibətlər təkcə texniki və diplomatik münasibətlərdən ibarət deyil. Bu münasibətlər ideoloji və mədəni baxımdan qarşılıqlı anlaşma tələb edir. "Xarici təsirlərin şəffaflığı haqqında" qanun ətrafında baş verən mübahisələr bu münasibətlərin yalnız bir fraqmentidir. Əgər Aİ Gürcüstanı həqiqi tərəfdaş kimi görmək istəyirsə, bu münasibətlər qarşılıqlı etimada, hörmətə və daxili işlərə qarışmamaq prinsipinə əsaslanmalıdır. Əks halda, Gürcüstan öz yolunu seçməkdə davam edəcək. Bu yol isə xalqın seçdiyi və milli maraqlara əsaslanan yoldur.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

*Təqvim yada salır*

**Erməni vəhşiliklərindən əziyyət çəkən, işğala məruz qalan rayonlarımızdan biri də Qarabağ ərazisinə heç bir dəxli olmayan Qubadlı idi. Düz 27 il Nəbilər yurdu, onun dağı-daşı tapdaq altında inlədi. Qubadlı camaatı isə işğal səbəbi ilə məcburi köçkün həyatı yaşadı. Amma haqq nazilsə də, üzülmədi. Respublikamızın 41 müxtəlif şəhər və rayonunda məskunlaşan, idarə, müəssisə, təşkilatları əsasən Bakı və Sumqayıtda, eləcə də Abşeron rayonunun ərazisində yerləşən Qubadlının sakinləri 2020-ci ilin 44 günlük Vətən müharibəsi nəticəsində, nəhayət ki, doğma yurdlarını da azad gördülər. Qubadlının mərd oğulları da Vətənin müdafiəsində mətanətlə dayandılar, böyük Zəfər naminə canlarını, qanlarını əsirgəmədilər. Artıq 5 ilə yaxındır ki, Qubadlıda da üçrəngli Azərbaycan bayrağı vüqarla dalğalanır.**

# Nəbilər yurdu 32 il əvvəl və bu gün



## *1993-cü il avqustun 31-də Qubadlı işğal edilmişdi...*

Sovet hökumətinin ilk dövrlərindən Qubadlı bölgəsinin başının üstündən qara buludlar əskik olmayıb. Bütövlükdə Qubadlının kəndləri yandırılıb, dinc əhaliyə divan tutulub. Bununla belə, bütün məhrumiyyətlərə baxmayaraq, hər dəfə işğalçı, quldur ermənilər torpaqlarımızdan qovulub, yaşayış məntəqələri və müvafiq infrastruktur bərpa edilib. 30 avqust 1930-cu il tarixində Azərbaycan Xalq Komissarları Sovetinin və Mərkəzi İcraiyyə Komitəsinin birgə qərarı ilə Azərbaycanda rayonlaşma aparılıb və beləliklə Qubadlı rayonu da təsis edilib. Təəssüf ki, bundan düz 63 il sonra, 1993-cü ilin avqustunda erməni separatçıları tərəfindən DQMV, həmçinin vilayətin tərkibində olmayan digər rayonlarla bərabər, Qubadlı da işğala məruz qalmışdı.

Ulu yurd yerlərimiz olan Qarabağı və ona bitişik 7 rayonu işğal etmiş ermənilər, bəlkə də tarixi Azərbaycan torpaqlarının sahiblərinin haçansa buraya mütləq qayıdacağını bildiklərinə görə misli görünməmiş vandallıq və barbarlıq edərək yaşayış ərazilərini, tarixi abidələri dağıtmış, heç bir həyat əlaməti saxlamamışdılar. Dünya da Ermənistanı işğalçı dövlət, erməniləri isə haqq tapdalayan nankor bir toplum kimi tanıyırdı. Buna görə də atəşkəs zamanı güclü şəkildə formalaşıb qüdrətlənən Azərbaycan Ordusu məqamı yetişən kimi işğalçı və separatçıların dərsini verdi, törətdikləri çoxsaylı terror, görünməmiş qətl və vandalizm aktlarına görə onları haqq divanına çəkdi.

Böyük Zəfər Yürüşü ilə mühüm strateji ərazi olan Qubadlının işğaldan azad edilməsi Azərbaycan Ordusunun Laçına, oradan isə Şuşaya gedən yolunu açdı. Nəzərə alsaq ki, Qubadlı Ermənistanla sərhəddə yerləşir və düşmən burada 30 il ərzində istehkamlar quraraq möhkəmlənmişdi, bu mənada Qubadlı uğrunda gedən döyüşlər kifayət qədər ağır döyüşlər idi. Amma müzəffər Ordumuz bu döyüşdə də uğur qazanaraq, düşmənin bütün hədəflərini məhv etdi və Qubadlı 27 illik əsarətdən sonra azadlığına qovuşdu. Şəhər və rayonun 41 kəndi – Alaqurşaq, Kürd Mahruzlu, Muğanlı, Zilanlı, Çaytumas, Əfəndilər, Mollabürhan, Padar, Sarıyataq, Yusifbəyli, Xanlıq... azad olundu. Dekabrın 23-də isə Müzəffər Ali Baş Komandanımız Qubadlıda şanlı Azərbaycan Bayrağını yüksəltdi. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, Qubadlının işğaldan azad edilməsi Azərbaycan xalqının Qələbəsini yaxınlaşdıran tarixi hadisə idi. Bu hadisə şanlı Ordumuzun Laçın və Şuşa yürüşünün zəfərlə başa çatacağı barədə hər kəsdə bir daha əminlik yaratdı.

Ermənilərin dağıtdığı Qubadlının rayon mərkəzində maraqlı eksponatlar toplanmış tarix-diyarşünaslıq muzeyi fəaliyyət göstərirdi. Rayonda 70-80-ci illərdə bir sıra abidələr inşa olunmuşdu. Bunlara "Fərhad və Şirin" bulağı, "Ceyran" bulağı, Xalq qəhrəmanları Qaçaq Nəbinin və Həcərin abidələri, 1941-45-ci illər müharibəsində, habelə 20 yanvar faciəsi zamanı şəhid olanların xatirəsinə həsr olunan abidə kompleksləri aiddir. 1988-ci ildə Qubadlıya həm Ermənistan, həm də Dağlıq Qarabağ tərəfdən təcavüzkar hücumların başlanması ilə dinc əhaliyə qarşı terror törədilməsi ilə bərabər, tarixi və mədəni abidələrin dağıdılması sistemli şəkildə davam etdirilmişdir.

Birinci Qarabağ müharibəsi nəticəsində rayondan 40 nəfəri qadın, 4 nəfəri uşaq, 53 nəfəri isə 60 yaşdan yuxarı qoca olmaqla 238 nəfər şəhid olub. 190 nəfər əlil olub, 78 nəfər itkin düşüb. Şəhidlərdən 8 nəfəri ölümündən sonra Azərbaycan Respublikasının Milli Qərhrəmanı adına layiq görülüb. Bu adı daşıyan ehtiyatda olan general-mayor Fəxrəddin Cəbrayılov hazırda bizim sıralarımızdadır. 2016-cı ilin məlum aprel döyüşlərinə görə Milli Qəhrəman adına layiq görülən Şükür Həmidov isə 44 günlük Vətən müharibəsində, özü də məhz Qubadlının Mahmudlu kəndi uğrunda döyüşlərdə şəhid olub.

Hərbi hissə komandiri olan polkovnik-leytenant Şükür Həmidov Lələtəpədə igidliyi ilə fərqlənmişdi. Cəbhənin Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərin idarə edilməsi məhz ona həvalə olunmuşdu. Gecə döyüşləri zamanı Lələtəpə səmtində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Lələtəpə zirvəsi işğaldan azad olunmuşdu. Həmin döyüşlərdə Ermənistanın müdafiə nazirinin adı ilə tanınan "yenilməz Ohanyan səddi" 40 dəqiqə ərzində darmadağın edilmişdi. Ondan 4 il sonrakı böyük Qələbənin ilk böyük müjdə siqnalı olan Aprel zəfərində hünərinə görə Şükür Həmidov ali hərbi fəxri ada layiq görülmüşdü. 2020-ci il oktyabrın 22-də, gəncliyinin ilk dövründən – 18 yaşından didərgin düşdüyü Qubadlıda şəhadətə yüksəlməsi isə onun üçün bir İlahi lütfü idi. Atası Nəriman kişi fəxrlə belə deyirdi. Milli Qəhrəman Şükür Həmidov ölümündən sonra "Zəfər" ordeni ilə təltif edilib. Şükürün ölümündən 3 gün sonra Qubadlı tamamilə azad olunub. Rayonun 300-ə yaxın sakini könüllü olaraq Vətən müharibəsində iştirak edib. Onlardan 11-i şəhid olub, 40 nəfərdən çoxu döyüşlərdən qazi kimi qayıdıb. Rayonun Yusifbəyli kəndindən olan əsgər Vüsal Yaqubov ən gənc yaşda – 19 yaşında Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. 2023-cü ildə Prezident İlham Əliyevin Sərəncamı ilə 25 oktyabr Qubadlı Şəhəri Günü kimi müəyyən edilib. Bununla da tariximizə şanlı Qələbəmizi əks etdirən daha bir möhtəşəm gün əlavə olunub.

Hələlik minatəmizləmə və bərpa-quruculuq işləri aparılan Qubadlı sakinləri əsasən Sumqayıtda yaşayır və geri qayıdacaqları günü səbirsizliklə gözləyirlər. Sumqayıt stansiyasi ərazisində 3 məktəb – Hal, Dəmirçilər və 4 saylı Qubadlı şəhər məktəbləri, 1 saylı körpələr evi və uşaq bağçası, rabitə qovşağının poçt agentliyi, Mahrızlı kənd həkim məntəqəsi fəaliyyət göstərir. 5 il əvvəl rayon Mərkəzi Xəstəxanasının yanında Gigiyena və Epidemiologiya Mərkəzinin yeni binası tikilib istifadəyə verilmişdir. Rayon üzrə 20 min əmək qabiliyyətli əhali var. Onların əksəriyyətinin iş yeri var. Qubadlıların 2 minədək sahibkarlıq subyekti fəaliyyət göstərir.

Qubadlı ictimaiyyəti rayonun azad olunmasının 1-ci ili münasibətilə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın oraya səfərini yaxşı xatırlayır. Müzəffər Ali Baş Komandan 2021-ci il 25 oktyabr tarixində rayona səfər edərək Xanlıq–Qubadlı yolunun təməlqoyma, "Qubadlı" yarımstansiyasının və Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışında iştirak edib. Prezident həmin gün Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Bu torpağın alim oğlu, filologiya elmləri doktoru, şair Rafiq Yusifoğlu deyir ki, görüş zamanı Qubadlıda görülən işlər və perspektiv planlarla bağlı dövlət başçısı mühüm mesajlar verdi. Ali Baş Komandan İlham Əliyev bir daha bəyan etdi ki, biz qurucu xalqıq və Qubadlını yenidən quracağıq. İşğaldan azad olunmuş bütün ərazilərimizi, o cümlədən Qubadlını da cənnətə çevirəcəyik. Sonra dövlət başçısı bizimlə xatirə şəkilləri çəkdirdi.

Digər azad edilmiş torpaqlarda olduğu kimi, Qubadlıda da quruculuq, bərpa işləri, müasir nəqliyyat, enerji və s. sosial-iqtisadi infrastruktur layihələri icra olunmaqdadır. "Qubadlı" yarımstansiyası da daxil olmaqla artıq azad olunmuş bölgələrimizdə neçə-neçə kiçik elektrik yarımstansiyası istifadəyə verilib ki, bu da işğaldan azad edilmiş ərazilərin Azərbaycanın ümumi enerji sisteminə qoşularaq, başdan-başa nura qərq olması deməkdir. Qubadlının inkişafını daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev 2022-ci ilin oktyabrında rayonda "Zabuxçay" və "Bərgüşadçay" su anbarlarının layihələri ilə tanış olub, "Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak edib. 2023-cü ilin mayında isə möhtərəm Prezidentin iştirakı və xeyir-duası ilə Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin, inzibati binanın, 600 şagird yerlik tam orta məktəbin, Mərkəzi Xəstəxananın, Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin təməlqoyma mərasimləri keçirilib. Bu 3 kənddə 660 fərdi ev tikilir.

Xanlıq–Qubadlı (14 kilometr), eləcə də Xudafərin–Qubadlı–Laçın (66 kilometr) avtomobil yollarının tikintisi onlarla yaşayış məntəqəsini əhatə edir. Milli Məclisin deputatı, tarix elmləri doktoru Vasif Qafarovun jurnalistlərə müsahibəsində dediyi kimi, Prezident İlham Əliyev tərəfindən imzalanan "Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Qubadlı şəhərinin Baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında" Sərəncam Qubadlı şəhərinin yenidən qurulmasını təmin edəcək mühüm sənəddir. Hazırda Qubadlı rayonunda mühüm infrastruktur layihələri uğurla icra olunmaqdadır. Bütün bu layihələrin həyata keçirilməsi yaxın zamanlarda Qubadlının sosial-iqtisadi inkişafını və rayon sakinlərinin öz doğma yurd yerlərinə qayıdışını təmin edəcək. İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair 1-ci Dövlət Proqramına əsasən, Qubadlı rayonunu kənd təsərrüfatı və turizm sahəsi üzrə yeni iqtisadi mərkəz kimi inkişaf etdirmək nəzərdə tutulur.

Əminliklə söyləmək olar ki, dövlətimizin başçısının hərtərəfli diqqət və qayğısı ilə aparılan bərpa-quruculuq işləri sayəsində yaxın vaxtlarda Qubadlı rayonu ölkəmizin cənnət guşələrindən birinə çevriləcək, "Gəyən" və "Yazı" düzləri yenə bol məhsulu ilə insanların üzünü güldürəcək, Vətən uğrunda canlarından keçmiş qəhrəmanlarımızın varisləri bu torpaqlarda xoşbəxt və məğrur yaşayacaqlar. Əlbəttə, bütün bunlar sonsuz iftixar hissi yaradır. Amma, eyni zamanda, rayonun mərd oğulları 27 illik işğalı da unutmurlar. Onlar dövlətin qayğısı ilə doğma yurdun çiçəklənməsi üçün əllərindən gələni etmək əzmindədirlər.

Bir neçə gün əvvəl Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalında yayımlanan müsahibəsində qeyd etdiyi əsas hədəflərdən biri də keçmiş məcburi köçkünlərin yalnız mənzil şəraiti ilə təmin olunması deyil, həm də onların iş yerləri ilə təminatının reallaşdırılmasıdır. Çünki uzunmüddətli dayanıqlı məskunlaşma üçün sosial-iqtisadi baza vacibdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması da məhz bu məqsədə xidmət edir. Burada kənd təsərrüfatı, turizm, bərpa olunan enerji, dağ – mədən sənayesi və logistika kimi sahələrin inkişafı nəzərdə tutulur.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı", eləcə də dövlətimizin başçısının imzaladığı müvafiq sərəncamlar əsasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında icra olunan layihələrin sayı 44-ə, avtomobil yollarının ümumi uzunluğu isə 3 min 40 kilometrə çatdırılıb. Ötən illər ərzində 7 yolun tikintisi yekunlaşdırılıb. Hazırda tikintisi həyata keçirilən 38 layihənin isə 2025-2026-cı illərdə tamamlanması nəzərdə tutulub. Bundan əlavə, 6 şəhərin (Şuşa, Füzuli, Qubadlı, Zəngilan, Kəlbəcər və Cəbrayıl) daxili yollarının, eləcə də 7 kəndə gedən avtomobil yollarının tikintisi davam etdirilib.

Prezident İlham Əliyevin sözlərindən də aydın olur ki, 2-3 il ərzində əsas infrastruktur layihələrinin tam başa çatdırılması planlaşdırılır. Bu isə o deməkdir ki, yaxın perspektivdə azad olunmuş torpaqlarda o cümlədən Qubadlıda bütün keçmiş məcburi köçkünlərin daimi məskunlaşması təmin ediləcək. Böyük Qayıdış Proqramı isə sadəcə bir sənəd deyil, Azərbaycanın gələcək onilliklərdə sosial, iqtisadi və mədəni həyatının əsas dayağıdır. Bu qayıdış həm də ədalətin, milli qürurun və dövlətimizin gücünün simvoludur.





***Əli NƏCƏFXANLI***
***XQ***

**Replika**

## Oh arŋ̈ ü oxumasanız yaxşıdır

**Ünlü sənətkarlarımız Vaqif Mustafayev və Ceyhun Mirzəyevin (Allah rəhmət eləsin) 1985-ci ildə lentə aldıqları "Bəyin oğurlanması" filmində maraqlı epizodlardan biri də kinoçəkənlərə etirazını bildirən kəndli ilə rejissor və onun köməkçisinin mükaliməsidir: "İstəməzsən ki, səni, ucqar dağ kəndinin sakinini uzaq Liviya səhrasında görsünlər, tanısınlar, alqışlasınlar? – Yox! – Düz deyirsən, elə səni görməsələr yaxşıdır".**



Yaxın günlərin söhbətidir. İrəvanda konsert festivalını təşkil edən "Coca-Cola Fest"in nümayəndələri məlumat yayıblar. Deyiblər ki, İran əsilli niderlandlı məşhur müğənni, Sevdaliza kimi tanınan Sevda Əlizadənin Ermənistanda gözlənilən konserti ləğv edilib. Yəni, avqustun 30-da İrəvan yaxınlığında keçirilən "Music Fest with Coca-Cola 2025" musiqi festivalının təşkilatçıları Sevdalizanı dəvətlilərin siyahısından çıxarıblar. Bunun səbəbinin açıqlanmadığı məlumatda təşkilatçılar Sevdalizanın konsertinə hazırlaşanları biletlərini geri qaytara biləcəklərini bildiriblər.

Bəs konsertin ləğvinin səbəbi nə imiş? Səbəb sosial şəbəkələrin erməni seqmentlərində Sevdalizanın İrəvanda konsert verəcəyi ilə bağlı xəbərlərin kəskin tənqid atəşinə tutulması olub. İddia olunur ki, müğənni yaradıcılığında antixristian, antierməni motivlərə yer verir. Əslində, təşkil edilmiş, bəhanə xarakteri daşıyan bu qəbildən olan etirazlara məşhur bloqerlər də qoşulanda vəziyyət başqa şəkil almış və təşkilatçılar "bu çox ciddi səbəblər ucbatından" Sevdalizanın konsertini ləğv etmək məcburiyyətində qalıblar.

İndi Avropada Sevdaliza kimi məşhurlaşan Azərbaycan əsilli niderlandlı müğənni, bəstəkar və prodüser Sevda Əlizadə 1987-ci il sentyabrın 1-də Tehranda anadan olub. 5 yaşında ailəsi ilə birlikdə Niderlanda köçüb. O, əslən Güney azərbaycanlıdır və bunu özü müsahibələrinin birində açıqlayıb. (Konsertin ləğv edilməsində bu amilin rol oynadığı istisna edilmir). Hətta ötən illərdə müğənninin "Avroviziya" mahnı müsabiqəsində Azərbaycanı təmsil etməsi məsələsi gündəmə gəlmişdi. Bundan ötrü Sevdanın mahnı yarışının təşkilatçılarına müraciət məktubu göndərdiyi də iddia edilirdi.

Gəlin, Sevda Əlizadəni yaxından tanıyaq. Əvvəlcə idmanla məşğul olub, Niderland gənclər yığmasında basketbol oynayıb. Amma sonra musiqi fəaliyyətinə üstünlük verib. Eksperimental elektro, alternativ R&B, trip-hop və avant-pop üslublarında mahnılar ifa etməyə başlayıb. Onun 2017-ci ildə çıxan "ISON" adlı debüt albomu musiqi tənqidçiləri tərəfindən yüksək qiymətləndirilib və dünyanın musiqi arenasında tanınma nişanına çevrilib. Fəqət mahnılarındakı bədii obrazlarında tez-tez dini və mistik motivlərdən istifadə edən müğənni dəfələrlə mübahisə və diskussiya obyektinə düşüb. Hətta sosial şəbəkələrdəki sağçı bir qrup onu xristian dəyərlərinə hörmətsizlikdə ittiham edib.

Tanımayanlar üçün Sevdalizanın musiqi obrazı maraqlı olar. Günəş yaxınlığındakı kometin şərəfinə "ISON" adlandırdığı albomunu 2017-ci ilin aprelində buraxıb. Öz fantaziyalarında itmiş və artıq ətrafındakı dünya ilə maraqlanmayan Amandine Sevdalizanın fərqli eqosudur. Bu barədə albomun prodüsseri danışır: "Amandine"nin hekayəsi daim yoxa çıxan "sərhədlər" səbəbindən müasir dünyada sürətlə dəyişən "kimlik" anlayışını araşdırır. Amandine adi bir həyatın ifrat ekstraktıdır. O, bütün hisslərin universallaşmadan yoxa çıxdığı bir dünyanı təmsil edir. Paradoksal olaraq, bu, sizin gündəlik həyatınızın bütün çalarlarını təmsil edən minimal obyektlərlə doludur. İnformasiyanın əlçatanlığı universal bir dil yaradır və "ticarət nişanları" bunda mühüm rol oynayır".

Qayıdaq Sevdalizanı "boykot" edən hayların üzərinə. Onlar mətbəximizi, musiqimizi öz adlarına çıxmağı yaxşı bacarırlar. Buna görə Sevda xanıma demək istəyirik ki, heç ürəyinizi sıxmayın. Onsuz da sizi dünyanın dörd tərəfində dinləmək istəyənlər kifayət qədərdir. İrəvan konsertindən əldə edəcəyiniz pulun da on qatını Avropa turnesində qazanacaqsınız. İtirən isə musiqini siyasətin ayağına verən, türkofob, azərbaycanofob düşüncədən qurtulmağı bacarmayan, repcaz sintezinin möhtəşəm kompozisiyasını dinləməkdən məhrum olan dığalar oldu. Əslində, lap əvvəldən sizin İrəvana səfəriniz yanlış qərar olub.

İndi "Bəyin oğurlanması" filmindəki həmin epizodda "pomrej"in sözü olmasın, etnik natamamlıq kompleksindən hələ də əziyyət çəkən ermənilər üçün elə oxumasanız yaxşıdır. Onsuz da rep-cazı başa düşməyəcəkdilər. Musiqini anlamayanların qarşısında çıxış etməyin nə mənası var?

***İ.HƏSƏNQALA***
***XQ***

# Prezident İlham Əliyevin regional və qlobal siyasətə baxışları



I MƏQALƏ

## Lider və dünya siyasəti

Müasir mərhələdə müstəqil dövlətin başçısının bütövlükdə dünya siyasəti ilə bağlı dəqiq və əsaslı baxışları olmalıdır. Qloballaşmanın tələblərindən biri bundan ibarətdir. Çünki dövlətlər arasında qarşılıqlı əlaqələr o dərəcədə genişlənmiş və dərinləşmişdir ki, ayrıca götürülmüş hər bir ölkə digərlərini aydın görməli və ümumi qənaətlər əldə etməlidir. İndi siyasətçilər və analitiklər "bütün dövlətlər bir-birindən asılıdır" tezisini təkrar-təkrar ifadə edəndə birinin digərinə tabeçiliyini deyil, qarşılıqlı təsirlərdə olduqlarını nəzərdə tuturlar.

Dünya dövlətləri əvvəlki hər bir dönəmdən fərqli surətdə qarşılıqlı təsirlərdədirlərsə, onda liderin bütöv mənzərəni necə görməsi, yəni onun geosiyasi və siyasi-diplomatik vizyonu daha da aktuallaşır. Azərbaycan Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibə həmin kontekstdə çox böyük maraq doğurmuşdur.

Prezident İlham Əliyev Azərbaycanın müxtəlif böyük dövlətlərlə münasibətlərini ədalətli və obyektiv izah edərək əksəriyyət üçün qaranlıq qalmış məqamlara aydınlıq gətirdi. Bunun fonunda dünya siyasətinin ümumi dinamikasını və onun bir sıra incəliklərini aydın məntiqlə təhlil etdi. Dövlət başçısı bütün arqument, təhlil və nəticələrində tam olaraq müstəqil Azərbaycanın milli maraqlarından çıxış etmişdir.

Bu, həm Azərbaycan cəmiyyəti, həm də bütün dünya üçün əhəmiyyətli mənzərə idi. Çünki son zamanlar dünyada elə ziddiyyətli və müxtəlif xarakterli proseslər gedir ki, Cənubi Qafqazın lider dövlətinin hansı mövqedə olduğunu dəqiq öyrənmək aktualdır. İlham Əliyev siyasi lider və diplomat məharəti ilə məsələnin bu aspektinə aydınlıq gətirmişdir.

Bu bağlılıqda müsahibənin məntiqi və məzmununda xarici siyasətin prioritetləri ilə əlaqədar yer almış bir neçə prinsipial məqamı vurğulayaq.

## Bir neçə prinsipial məqam

Azərbaycan Prezidenti müsahibə boyu sistemli və məntiqi surətdə faktiki olaraq yeni tarixi mərhələdə Azərbaycan Respublikası dövlətinin xarici siyasətinin bir sıra prioritet istiqamətlərini vurğulamışdır. Hər şeydən öncə, Azərbaycanın mehriban qonşuluq siyasətinin elementləri ilə qlobal miqyasda siyasi fəaliyyətin başlıca məqamları arasında harmoniyanı təmin etmək xətti aydın görünür. Əlbəttə, burada Ermənistanla olan münasibətlər mərkəzi punktu təşkil edir. Azərbaycan Prezidenti də faktiki olaraq regional və qlobal siyasətə rəsmi Bakının mövqeyinə məhz həmin məsələdən başlayaraq nəzər salır. Bununla, birincisi, İlham Əliyev ilk sıraya Azərbaycanın milli maraqlarını qoyur, ikincisi, bütövlükdə Azərbaycan dövlətinin xarici siyasətinin mahiyyətini konkret faktlarla bir daha təqdim edir.

Bu yanaşma çox perspektivlidir və tam realpolitika məntiqinə uyğundur. Çünki istənilən müstəqil dövlət əsas suverenliyinə önəm verməlidir. Lakin burada kimin hansı kriteriyalara üstünlük verməsi məsələsi prinsipial əhəmiyyət daşıyır. İlham Əliyev həmin kontekstdə çox aydın və davamlı mövqeyini bir daha xatırlatmışdır. Dövlət başçısı müsahibədə vurğulamışdır: "Təqribən beş il bundan əvvəl 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan ədaləti, beynəlxalq hüququ və öz ləyaqətini bərpa etdi, torpaqlarını geri qaytardı. Bundan sonra prosesdə müəyyən bir boşluq yarandı, çünki o zaman vasitəçilər artıq hansı addımı atmalı olduqlarını bilmirdilər və məhz Azərbaycan Ermənistanla sülh prosesinə başlamağı təklif etdi. Yenə də məhz biz danışıqlar formatının təşəbbüskarı olduq. Biz sülh sazişinin layihəsini təqdim etdik. Əslində, avqustun 8-də Vaşinqtonda paraflanmış sənəd Ermənistan–Azərbaycan münasibətlərinin dövlətlərarası çərçivədə necə qurulmalı olduğu barədə Azərbaycanın baxışına əsaslanır".

Azərbaycan ədaləti, beynəlxalq hüququ və öz ləyaqətini bərpa etməklə regionun geosiyasi və siyasi tarixində yeni səhifə açmışdır. Azərbaycan liderinin sonrakı bütün tezislərinin məntiqi mənbəyində bu üç təməl faktor dayanır. Rəsmi Bakının israrla Ermənistanla sülh müqaviləsi bağlamaq xəttini davam etdirməsi və bu zaman hüquq, ədalət və ləyaqətdən kənara çıxmaması dəqiq düşünülmüş və artıq tam formalaşmış dayanıqlı siyasi baxışların birbaşa nəticəsidir.

Bu səbəbdən Prezident İlham Əliyevin aşağıdakı tezisi də Azərbaycanın sülh konsepsiyasının növbəti təsdiqidir və reallığı adekvat əks etdirir. İlham Əliyev müsahibədə vurğulamışdır: "...Azərbaycan və Ermənistanın Ağ Evdə Prezident Trampın iştirakı ilə bu sənədi paraflaması müharibənin başa çatdığını göstərir. Bu, mərhələlərlə 30 ildən artıq davam edən müharibənin sonudur və həm Cənubi Qafqaz regionu, həm də daha geniş mənada Mərkəzi Asiya və Yaxın Şərq üçün tamamilə yeni imkanlar açır".

Buradan Azərbaycan Prezidentinin xarici siyasətdə üstünlük verdiyi başlıca istiqamətin baza şərti aydın olur: münaqişə Vaşinqtonda paraflanan sənədlə başa çatmışdır və bunu Bakı "həm Cənubi Qafqaz regionu, həm də daha geniş mənada Mərkəzi Asiya və Yaxın Şərq üçün tamamilə yeni imkanlar"ın açılması kimi qiymətləndirir. Buna görə təsadüfi deyildir ki, Azərbaycan rəhbərliyi məhz həmin faktı nəzərə alaraq yeni inkişaf konsepsiyaları üzərində işləyir.

## Mehriban qonşuluqdan qlobal əməkdaşlığa

Politologiya üçün müsahibədə Azərbaycan rəhbərliyinin xarici siyasətdə sülh faktoruna önəm verməsinin müxtəlif aspektləri çox maraqlıdır. Burada məntiqilik və milli maraqlarla yanaşı, dövlətin qonşularla siyasətinin əsas əlamətləri və prinsipləri olduqca vacib faktordur. İlham Əliyevin yuxarıda vurğuladığımız fundamental tezisi işığında bu məsələ müsahibədə tam aydınlaşmışdır. Ümumi olaraq Azərbaycan liderinin xarici siyasətdə "mehriban qonşuluqdan qlobal əməkdaşlıq və təhlükəsizliyə doğru" xəttini həyata keçirdiyi başa düşülür. Bu kontekstdə müsahibədən iki fikri nümunə kimi göstərə bilərik.

Birincisi, dövlət başçısı demişdir: "Vaşinqtonda imzalanan sənəd Ermənistan üçün sülhə və sabit inkişafa zəmanətdir". Bu o deməkdir ki, Bakı Vaşinqtonda əldə olunan razılığa özünün milli maraqları ilə yanaşı, öncə Ermənistanın və onunla yanaşı, bütövlükdə regionun rifahı prizmasından baxır.

Bunun təməlində isə ümumiyyətlə, Azərbaycan dövlətinin xarici siyasətinin sülhsevər mahiyyətdə olması dayanır. Bu mövqeni Prezident İlham Əliyev diplomatik məharətlə müsahibədə ayrıca vurğulamışdır. Həmin fikirlər faktiki olaraq dövlət başçısının Ermənistanla bağlı ifadə etdiyi mövqenin əsaslılığını göstərir. İlham Əliyev demişdir: "Birinci Qarabağ müharibəsi haqqında bir az danışdım, amma bilirsiniz, bizimlə baş verənləri təsvir etmək üçün ola bilsin günlər, hətta aylar lazım olar. Orada etnik təmizləmə aparıldı, Xocalı soyqırımı baş verdi, günahsız insanlar öldürüldü. Hələ də itkin düşmüş 3000-dən çox insanımız var və bütün bu hadisələr Azərbaycanda güclü emosional hisslərə səbəb oldu.

2020-ci il müharibəsi bizim qələbəmizlə başa çatsa da Azərbaycanda hələ də intiqam tələb edən insanlar var idi. Amma mən o vaxt xalqımıza müraciət edərək demişdim ki, biz intiqamı döyüş meydanında aldıq. Biz onların bizə etdiklərini etməyəcəyik, çünki onların bizə qarşı törətdikləri müharibə cinayətləri idi".

Lider burada iki mühüm həqiqəti eyni məntiqi müstəvidə təqdim edir. Birinci məqam ondan ibarətdir ki, Azərbaycan Ermənistanın hansı cinayətlərə və amansızlıqlara imza atdığını nə dövlət, nə də cəmiyyət olaraq unutmamışdır, unutmayacaqdır. Bizə qarşı edilən vəhşiliklərin həmişə fərqindəyik. Buna görə də Azərbaycan xalqının intiqam tələbində haqqı tamdır. Lakin Azərbaycan rəhbərliyi aydın bilir ki, bu cür vəziyyətlərdə intiqam hissi ümumi maraqlara ciddi ziyan vura bilər. Azərbaycan dövlət statusunda beynəlxalq qanunlar və standartlar çərçivəsində təcavüzkarı ciddi cəzalandırmışdır. Bundan o tərəfə keçmək niyyətində deyil, çünki əsas məqsədi mehriban qonşuluq, sülh, barış, təhlükəsizlik və əməkdaşlıqdır.

Ancaq İlham Əliyev həm də xəbərdarlıq edir. Dövlət başçısı ayrıca vurğulayır ki, "Yəni, demək istərdim ki, əgər Ermənistanın hər hansı gələcək hökuməti hakimiyyətə gəldiyi vaxtdan asılı olmayaraq, Vaşinqtonda imzalanan sənədi şübhə altına qoyarsa, Ermənistan ciddi çətinliklərlə üzləşəcək. Çünki regiondakı güc balansı hər baxımdan tamamilə bizim xeyrimizədir. Düşünürəm ki, bu, hər kəsə aydındır. Əgər Ermənistan bir daha bizim ərazi bütövlüyümüzü şübhə altına qoysa, biz də adekvat cavab verəcəyik".

Azərbaycan Prezidentinin bu məntiqi yanaşması bütövlükdə qonşu dövlətlərə aiddir. Gürcüstanla bağlı vəziyyət aydındır. Rusiya və İran istiqaməti də kənarda qalmır.

## Rusiya və İran: sülhsevərlik kontekstində

Əlbəttə, bütün dünya üçün Azərbaycan-Rusiya münasibətləri maraqlıdır. İlham Əliyev həm bu mövzuda prosesləri tam obyektiv təsvir etmişdir, həm də istənilən halda sülhə, əməkdaşlığa və təhlükəsizliyin təmininə sadiqliyini göstərmişdir. Azərbaycan Prezidenti mülki təyyarəmizin vurulması və Yekaterinburqda azərbaycanlılara qarşı baş verən məlum hadisələri ədalətli, obyektiv və real məzmunda təsvir edərək, müsahibədə belə bir nəticəni də bəyan etmişdir; İlham Əliyev demişdir ki, "Bu, bizim xalqımıza qarşı misli görünməmiş hərəkət idi. Münasibətlərin korlanmasına görə məsuliyyət bizim üzərimizə düşmür. Biz yalnız konstruktiv və hüquqi şəkildə cavab veririk, lakin heç vaxt bizə qarşı təcavüz əlamətlərinə və təzahürlərinə, yaxud hörmətsizliyə dözməyəcəyik".

Deməli, Azərbaycanın tələb etdiyi haqq və ədalətdir. Qarabağla bağlı eyni tələbi İlham Əliyev Ermənistanın Qərbdəki havadarlarına hansı səviyyə və qətiyyətlə etmişdisə, eynisini strateji tərəfdaşımız olan Rusiyaya yönəlik edir. İlham Əliyev tam haqlıdır, çünki Azərbaycan dövləti və xalqının maraqlarını müdafiə edir. Bununla yanaşı, həmişə olduğu kimi, Rusiya ilə münasibətləri yüksək qiymətləndirir və meydana çıxan vəziyyətdən konstruktiv əsasda çıxış yolu tapmağa üstünlük verir.

İranla bağlı situasiya xeyli dəyişmişdir. Bu qonşu ölkənin prezidenti seçilən M.Pezeşkian mehriban qonşuluq siyasətinə daha çox meyilli görünür. Azərbaycan Prezidenti İranla münasibətlərin inkişafına bu mövqedən yanaşaraq vurğulayır: "Düşünürəm ki, bizim şəxsi münasibətlərimiz və onun administrasiyası ilə mənim administrasiyam arasında münasibətlər çox konstruktiv, çox mehribandır. İranın yeni hadisələrlə bağlı rəsmi mövqeyinə gəlincə, biz bunu çox əsaslı və çox müsbət hesab edirik. Mən rəsmi mövqe deyəndə Prezidentin, xarici işlər nazirinin mövqeyini nəzərdə tuturam. Bu, rəsmi mövqe hesab olunur".

Azərbaycan dövlət başçısının qonşu dövlətlərlə münasibətlərdə sülhsevərlik, humanitarlıq və əməkdaşlıq istiqamətlərinə üstünlük verdiyinin müsahibədə səmimi təsdiqi, əlbəttə, qürurvericidir. Azərbaycan lideri bu xətti, ümumiyyətlə, xarici siyasətin mahiyyətinə daxil etmişdir. Bu baxımdan ölkənin ABŞ, Avropa, Yaxın Şərq dövlətləri, Uzaq Şərq dövlətləri və Türk dövlətləri ilə münasibətləri də həmin xəttə tam uyğundur.

Müsahibənin dərin məzmunu və əsas siyasi, geosiyasi hədəfləri çox genişdir. Biz onların sırasından iki xətt üzrə təhlili davam etdirmək istərdik. Birinci xətt Prezident İlham Əliyevin Azərbaycanın ikiyə bölünməsinə aid maraqlı fikirlərinin təhlilindən ibarətdir. İkinci xətt Türk Dövlətləri Təşkilatı (TDT) ilə əlaqədar olduqca əhəmiyyətli və aktual fikirlərlə bağlıdır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Son aylarda Ermənistanda siyasi aktivlik nəzərəçarpacaq dərəcədə artıb. Gələn ilin iyununda keçiriləcək parlament seçkiləri yaxınlaşdıqca həm iqtidar, həm də müxalifət düşərgəsində hərəkətlilik güclənir. Müxtəlif partiyalar və ictimai birliklər yeni ittifaqlar qurmaq, elektorat bazası arasında mövqelərini möhkəmləndirmək üçün addımlar atırlar. Hakimiyyət isə dövlət və cəmiyyət həyatının bütün sahələrində islahatlar və sülh gündəmini önə çıxarmaqla rəqiblərinə qarşı üstünlük əldə etməyə çalışır. Bütün bunlar Ermənistanda qarşıdakı dövrdə daha gərgin və rəqabətli siyasi mübarizənin olacağından xəbər verir.**

# Karapetyanın yeni hərəkatından "keçmişin qoxusu" gəlir

Hazırda istintaq təcridxanasında saxlanılan erməni əsilli rusiyalı iş adamı, "Taşir" şirkətlər qrupunun (mənzil-qərargahı Moskvada yerləşir) rəhbəri Samvel Karapetyanın təşəbbüsü ilə avqustun 29-da "Öz yolumuzla" (erməncə "Mer dzevov") adlı hərəkatın yaradılmasına da bu kontekstdə baxmaq lazımdır. Hərəkatın əsas prinsiplərini də təqdimat mərasimində müraciəti oxunan S.Karapetyan formalaşdırıb. "Bu təşəbbüs aydın ideyalar ətrafında formalaşıb və Ermənistan üçün böyük proqramlara malikdir. Təşəbbüs iqtisadiyyatı inkişaf etdirmək, biznes və zənginləşmək üçün real imkanlar yaratmaq, ailə və milli dəyərləri möhkəmləndirmək, Ermənistanın etibarlı tərəfdaş kimi reputasiyasını bərpa etmək, "Artsax xalqı"nın ləyaqətli həyat hüquqlarını təmin etmək, təhsil sistemini inkişaf etdirməklə gənclərin gələcəyə inamını qaytarmaq, müqəddəs kilsəmizi qorumaq və müdafiə etmək məqsədi daşıyır", – deyə Karapetyanın müraciətində bildirilib. Onun sözlərinə görə, "Öz yolumuzla" hərəkatı bu gün Ermənistanda hər kəsin ehtiyac duyduğu yeni siyasi qüvvənin formalaşacağı bünövrəyə çevriləcək.



Təqdimat mərasimində "Taşir" şirkətlər qrupunun vitse-prezidenti, hərəkatın Koordinasiya Şurasının sədri Narek Karapetyan deyib: "Biz elə bir məqama çatmışıq ki, xalqın gözləntiləri özünü doğrultmur. Hər tərəfə nifrət və qarşıdurma səpilir".

O xatırladıb ki, əvvəllər Ermənistan sakinlərinə "qürurlu vətəndaşlar" deyirdilər, indi isə onlar əmindirlər ki, daim güzəştə getmək lazımdır, çünki başqa yol yoxdur: "Amma biz öz yolumuzla bunu edəcəyik. Bu gün biz hərəkatın təsis edildiyini elan edirik. Hərəkat siyasiləşdirilməyib, amma bu o demək deyil ki, partiya yaradılmayacaq. Bu, yalnız ilk addımdır. İkinci mərhələdə proqramlarımızı təqdim edəcəyik".

O, ikinci mərhələdə siyasi partiyanın yaradılacağının anonsunu verib. Partiyanın 2026-cı il seçki proseslərində iştirak edəcəyini bildirib: "Beş istiqamət üzrə beş işçi qrupu yaradılacaq. Əsas diqqət yeni iqtisadiyyata yönələcək: hamı üçün iş və rifah. Şərti olaraq "Böyük erməni ailəsi" adlanacaq ikinci istiqamət gənc ailələrə, xüsusən də mənzil və təhsil məsələlərində yardım göstərəcək. Üçüncü istiqamət xarici siyasət, yeni baxışın formalaşması, dördüncü istiqamət istedadlı erməni gənclərin layiqli təhsilini və peşəkar inkişafını təmin etmək olacaq. Beşinci qrup Erməni Apostol Kilsəsinin və milli dəyərlərin qorunması ilə məşğul olacaq".

Qeyd edək ki, S.Karapetyanın siyasi fəaliyyətlə məşğul olmaq, o cümlədən parlament seçkilərinə qatılmaq planlarına bir müddət əvvəl baş nazir Nikol Paşinyan da münasibətini açıqlamışdı. İyulun 16-da İrəvanda keçirdiyi mətbuat konfransında Ermənistan hökumətinin başçısı vurğulamışdı ki, iş adamı Rusiyada yaşayıb. Bu isə o deməkdir ki, Karapetyan deputat və ya baş nazirliyə namizəd ola bilməz: "Təbii ki, hər kəsin siyasi fəaliyyətlə məşğul olmaq hüququ var və Ermənistanda da belədir. Lakin konkret bu halda qanunla bağlı problem yaranıb. Ermənistanda siyasi fəaliyyətlə məşğul olmaq istəyən şəxslər ikinci vətəndaşlıqdan imtina etməlidirlər. Samvel Karapetyan eyni vaxtda üç ölkənin vətəndaşlığına malikdir. İnsan Ermənistanda necə siyasi fəaliyyətlə məşğul ola bilər ki, o, deputatlığa, baş nazirliyə namizəd ola bilmir. Qoy o, əvvəlcə başqa ölkənin vətəndaşlığından imtina etsin, sonra gəlib burada istədiyi qədər siyasi fəaliyyətlə məşğul olsun".

Paşinyan ironiya ilə demişdi ki, "ciblərində altı pasportla Ermənistanı xilas etmək üçün gələnlər" yanıldıqlarını anlamalıdırlar.

Biznesmenin qardaşı oğlu Narek isə bu iddiaları rədd edib və S.Karapetyanın Ermənistan vətəndaşı olduğunu bildirib. Əlavə edib ki, bütün digər vətəndaşlar kimi əmisi də seçkilərdə iştirak etmək hüququna malikdir.

Erməni xalqının qorxulu yuxusu – keçmiş hakimiyyət nümayəndələrinin yeni partiya vasitəsilə mümkün qayıdışına gəlincə, Karapetyan qeyd edib ki, Ermənistanda hərəkatın ideyalarını əks etdirən partiya olsaydı, ona qoşulardılar: "Ancaq belə bir siyasi qüvvə yoxdur. Eyni zamanda biz əvvəlki hakimiyyət dövründə hökumətdə çalışsalar belə, peşəkarlarla əməkdaşlığı istisna etmirik.

*

Hazırda başqa ölkələrin vətəndaşı olduğu üçün onların qarşısında hüquqi öhdəliklər daşıyan, özü də istintaq təcridxanasında saxlanılan bir iş adamının Ermənistan üçün "yeni yol" təklif etməsi ilk baxışdan paradoksal görünür. Çünki ölkənin siyasi sistemində iştirak etmək istəyən şəxsin həm hüquqi statusu, həm də şəxsi nüfuzu legitimlik baxımından ciddi suallar doğurur. Karapetyanın müraciətində səsləndirilən ideyalar, yəni iqtisadi inkişaf, ailə institutunun möhkəmləndirilməsi, kilsənin qorunması və "Artsax xalqı"nın hüquqları daha çox pafoslu şüar xarakteri daşıyır və real mexanizmlərlə müşayiət olunmur. Əslində, təqdim edilən proqramın konturlarına baxdıqda, hərəkatın məqsədinin daha çox müəyyən sosial və emosional qrupların rəğbətini qazanmaq olduğu görünür. Xüsusilə "Böyük erməni ailəsi" adı altında ailə və gənclərə dəstək vədləri, yaxud kilsənin qorunması barədə çağırışlar cəmiyyətin ən həssas mövzularına toxunaraq populyar dəstək qazanmaq niyyətini açıq göstərir. Lakin bu vədlərin reallaşdırılması üçün nə maliyyə mənbəyi, nə də siyasi imkanlara malik olduqlarını sübut edə bilirlər. Karapetyanın Rusiya ilə iqtisadi bağları və çoxşaxəli biznes maraqları da onun Ermənistan cəmiyyətinin real ehtiyaclarını deyil, daha çox şəxsi və korporativ maraqlarını önə çəkdiyini göstərir.

Hərəkatın praktiki lideri kimi çıxış edən N.Karapetyanın sözləri isə vəziyyəti daha aydın göstərir. Onun çıxışında xalqın gözləntilərinin doğrulmadığı və nifrət mühitinin hökm sürdüyü kimi ifadələr səslənsə də bunlar konkret təhlildən çox emosional ittihamlara bənzəyir. Əslində, Ermənistanda ictimai narazılıqların olması faktdır, amma bu narazılıqların səbəbini hökumətdən çox, reallığı qəbul etməyən keçmiş klanlara bağlı dairələrdə axtarmaq lazımdır. Narek "hərəkat siyasiləşdirilməyib" deyərək, sanki onu neytral və cəmiyyətə yaxın təşəbbüs kimi göstərmək istəyir. Halbuki eyni çıxışda partiya qurmaq və seçkilərdə iştirak etmək niyyətini açıq şəkildə bəyan edir. Bu isə siyasi ambisiyaları gizlədə bilməməkdir.

Baş nazir Paşinyanın bu məsələ ilə bağlı mövqeyi əhəmiyyətli məqamdır. O, Karapetyanın çoxsaylı vətəndaşlıqları ilə bağlı məsələyə toxunaraq, əslində, hüquqi çərçivəni ortaya qoyub: bir şəxsin eyni vaxtda üç ölkənin vətəndaşı olması onu Ermənistanın ali vəzifələrinə namizədlikdən kənarda qoyur. Bu, sadəcə hüquqi məhdudiyyət deyil, həm də siyasi məsuliyyət məsələsidir. Çünki ölkənin taleyini həll etməyə iddialı bir şəxsin başqa dövlətlərlə bu qədər güclü hüquqi bağlarının olması ciddi suallar doğurur.

Beləliklə, "Öz yolumuzla" hərəkatı, əslində, Ermənistan siyasətində real alternativ deyil, köhnə üslubun yeni dekorasiyalarla təqdim olunmuş variantıdır. Samvel və Narek Karapetyanların açıqlamaları da göstərir ki, burada əsas məqsəd erməni xalqının rifahı deyil, siyasi hakimiyyət uğrunda yarışa qoşulmaqdır. Ermənistan cəmiyyətinin qarşısında duran problemlər isə daha ciddi və fundamental həll yolları tələb edir. Karapetyanların təşəbbüsü bu tələblərə cavab vermədiyi üçün böyük ehtimalla, növbəti seçki prosesində də cəmiyyətin gözləntilərini doğrultmayacaq.

***Səxavət HƏMİD***
***XQ***

# Bakıda təmiz enerjinin gələcəyi müzakirə olunacaq

**Dekabrın 3-4-də Bakıda ilk dəfə "Go Net Zero Energy – Xəzər və Mərkəzi Asiya" sammiti keçiriləcək. Bu barədə "Globuc" şirkəti məlumat yayıb.**



Qurumdan bildiriblər ki, "Regionun təmiz enerji inkişafı potensialının açılması" mövzusuna həsr olunacaq sammit dayanıqlı energetika və enerji keçidi sahəsində aparıcı oyunçular üçün dialoq platforması rolunu oynayacaq. Bununla yanaşı, toplantıda təmiz enerji sahəsində tənzimləmə və infrastrukturun inkişafı, investisiyaların cəlb edilməsi, bərpa olunan enerji mənbələrinin enerji sistemlərinə inteqrasiyası, enerji keçidi üçün innovativ texnologiyaların tətbiqi, "yaşıl hidrogen" istehsalının perspektivləri ilə bağlı da geniş müzakirələr aparılacaq.

Məlum olduğu kimi, Azərbaycan 2027-ci ilə qədər enerji sektorunun üçdə birini "yaşıl" etməyi hədəfləyir. Özbəkistan və Qazaxıstan da bu sahədə qanunvericilik təşəbbüslərini irəli sürür, elektrik şəbəkələrini modernləşdirirlər. Bu baxımdan, sammitdə xüsusilə tənzimləyici islahatlara, vergi stimullarına və sərhədlərarası infrastrukturun inkişafına diqqət yetiriləcəyi gözlənilir.

Sammitdə təqdim olunacaq praktiki nümunələr sırasında Azərbaycanda "Qaradağ" Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi, Xəzərdə dəniz külək parklarının qurulması layihələri yer alır. Bərpa olunan enerji mənbələrinin enerji sistemlərinə sürətlə inteqrasiyası fonunda enerji saxlama texnologiyaları, rəqəmsal həllər və hibrid modellər enerji balansının qorunmasında əsas müzakirə mövzularından olacaq.

Bakı sammitində "yaşıl hidrogen" mövzusuna da xüsusi diqqət yetiriləcəyi gözlənilir. Bu da səbəbsiz deyil. Çünki "yaşıl hidrogen" sahəsi region üçün strateji əhəmiyyət daşımasına baxmayaraq, müəyyən çətinliklərlə üzləşir. Həmin çətinliklər isə su ehtiyatlarının məhdudluğu ilə yanaşı, bu sahədə duzsuzlaşdırma texnologiyalarına böyük ehtiyac var. Eyni zamanda, "yaşıl hidrogen" istehsalına nail olmaq üçün yüksək istehsal xərcləri və iri infrastruktur tələb olunur. Forumda, həmçinin bu sahənin ixrac potensialı və Avropa İttifaqının marağı ayrıca müzakirə ediləcək.

Yeri gəlmişkən, ölkəmizdə "yaşıl hidrogen" istehsalı üçün potensial olduqca yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, son illər dünyanını prioritet elan etdiyi "yaşıl keçid" hərəkatının ön sıralarında qərarlaşan Azərbaycanda hidrogen istehsalı və ixracının əhəmiyyəti ilə bağlı geniş təhlillər aparılıb. Xəzər dənizindən, Azərbaycandan Avropaya Qara dənizin dibi ilə keçməkdə olan ixrac marşrutu daxilində də hidrogen komponentinin olacağı barədə araşdırmalar da yüksək dəyərləndirilib. Ümumiyyətlə, ölkəmizdə hidrogenin istehsalı və ixracı ilə bağlı konkret hədəflər nəzərdə tutulub və yaxın perspektivdə layihələrin icrası istiqamətində fəaliyyətə başlanılacağı proqnozlaşdırılıb.

Ötən ilin noyabrında Bakıda keçirilən COP29 konfransında Azərbaycanın təqdim etdiyi Hidrogen üzrə Milli Strateji Baxış sənədi çox böyük maraq doğurdu və ölkəmizin "yaşıl hidrogen" istehsalı ilə bağlı strateji baxışını ortaya qoydu, bu istiqamətdə hədəflərini dünyaya nümayiş etdirdi.

Avropa Yenidənqurma və İnkişaf Bankının tədqiqatlarında da Azərbaycan ekoloji cəhətdən təmiz hidrogen istehsalının məqsədəuyğun olduğu ölkə kimi təsdiqlənib. Bununla yanaşı, adıçəkilən bankın dəstəyi ilə Niderlandın tanınmış "Advision" şirkəti respublikamızın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlilini də uğurla gerçəkləşdirib. Qurumun hesabatında ölkəmizin bu sahədəki potensial imkanları ilə bağlı müsbət məqamlar yer alıb.

Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktor müavini Rəna Hümbətova bir qədər əvvəl qeyd edib ki, Azərbaycanın 500 min ton "yaşıl hidrogen" istehsalı üçün 9 giqavat əlavə bərpa olunan enerji gücünə ehtiyacı var. Onun sözlərinə görə, bu həcm həm daxili tələbatın ödənilməsi, həm də ixrac məqsədləri üçün nəzərdə tutulub.

Xatırladaq ki, yaxın illərdə Sumqayıtda "yaşıl hidrogen" istehsalının başlanması planlaşdırılır. Ümumilikdə isə, milli planlara əsasən, 2027-ci ilə qədər Azərbaycanda ümumi gücü 2 qiqavat olan 8 sənaye günəş və külək elektrik stansiyası inşa ediləcək. Layihələrin maliyyələşdirilməsi üçün 2,7 milyard ABŞ dolları həcmində yerli və xarici investisiya cəlb olunacaq. Bu stansiyalar hər il 5,3 milyard kilovat-saat "yaşıl enerji" istehsal etməyə imkan verəcək. Bununla da, bərpa olunan enerji mənbələrinin payı enerji sistemində 32,6 faizə çatacaq, 1,2 milyard kubmetr qaz qənaət olunacaq və istixana qazı emissiyaları 2,5 milyon ton azaldılacaq. Azərbaycanın 2030-cu ilə qədər məqsədi isə bərpa olunan enerji mənbələri üzrə quraşdırılmış gücü 6 qiqavata çatdırmaqdır. Bunun isə 4 qiqavatının ixraca yönəldilməsi planlaşdırılır.

# Aqrar Sığorta Fondu 41 rayonda fermerlərə ödəniş edib

**Azərbaycanda dövlət dəstəyi ilə təqdim olunan aqrar sığorta mexanizmindən faydalanan rayonların sırası genişlənir. Ötən ilin eyni dövrü ilə müqayisədə ödəniş edilən rayonların sayı artıb. Belə ki, 2024-cü ilin ilk yarısında 37 rayonda aqrar sığorta ödənişləri həyata keçirildiyi halda cari ilin eyni dövründə bu siyahı genişlənərək 41-ə çatıb.**

Aqrar Sığorta Fondunun məlumatına əsasən, bu ilin birinci yarısında Füzuli, Ağcabədi, Tovuz, Tərtər, Ağsu, Hacıqabul, Xocalı, Beyləqan, Şəki, Samux, Sabirabad, Qax, Balakən, Yevlax, İsmayıllı, Kürdəmir, Zaqatala, İmişli, Qobustan, Goranboy, Bərdə, Xocavənd, Göyçay, Ağdam, Şamaxı, Xaçmaz, Qəbələ, Şəmkir, Yardımlı, Astara, Qusar, Neftçala, Oğuz, Zərdab, Masallı, Lerik, Ağdaş, Xızı, Cəbrayıl, Cəlilabad və Siyəzən rayonlarından olan fermerlərə sığorta hadisələri nəticəsində dəymiş zərərə görə ödənişlər edilib.

Qeyd edək ki, 2025-ci ilin yanvar-iyun aylarında Aqrar Sığorta Fondu tərəfindən fermer və təsərrüfatlara 41 rayonda, ümumilikdə, 4 milyon 435 min manat sığorta ödənişi edilib. Bu isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 55 faiz çoxdur. Sığorta ödənişlərindən 4 milyon 245 min manat əkin sahələri, 190 min manat isə heyvandarlıq sığortası üzrə ödənilib.

Ən çox zərər ödənişi həyata keçirilən rayonlar Füzuli, Ağcabədi, Tovuz, Tərtər, Ağsu, Hacıqabul, Beyləqan və Şəki olub. Hesabat dövründə ən çox ödənişlər taxıl, qarğıdalı, pambıq sahələri ilə yanaşı, günəbaxan, tütün, armud, şaftalı, şəkər çuğunduru, fındıq, badam və qarpız əkinləri üzrə olub. Fermelərə ən çox zərər vuran hadisələr isə dolu, sel-subasma, fırtına və leysan olub.

Aqrar Sığorta Fondu bitkiçilik, heyvandarlıq və akvakultura (balıqçılıq) təsərrüfatlarını sığorta edir. Fond 41 növ bitkini sığorta edir ki, bu da ölkə üzrə əkin sahələrinin 96 faizi deməkdir. Heyvandarlıq sahəsində isə iri və xırda-buynuzlu heyvanlar sığorta olunur. Xatırladaq ki, fermerlərə dəstək məqsədilə sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənilir. Bunun da nəticəsində fermerlər cüzi ödəniş etməklə təsərrüfatlarını sığorta edə bilirlər.

Yeri gəlmişkən, Aqrar Sığrota Fondu İdarə Heyətinin sədri Fuad Sadıqov bu yaxınlarda jurnalistlərə müsahibəsində bildirib ki, hazırda aqrar sığorta xidmətləri ölkənin 96 faiz ərazisində əlçatandır. Bu isə o deməkdir ki, bütün ölkə üzrə sığorta xidməti əldə edib öz fəaliyyətini daha güvənli şəkildə həyata keçirmək istəyən şəxslər bu xidmətdən faydalana bilərlər. Onun sözlərinə görə, hazırda ölkəmizdə 1 milyon 700 min hektar bəyan olunan əkinə yararlı torpaq əraziləri var ki, onun da hər il 20 faizi fond tərəfindən sığortalanır.

Artıq 5 ildir ki, ölkədə aqrar sığorta mexanizminin tətbiqinə başlanıldığını xatırladan fond rəhbəri bildirib ki, bu sistem kənd təsərrüfatı sahəsində çalışan fermerlərin dayanıqlı və davamlı fəaliyyətlərinin təmin edilməsi üçün instisional bir alətdir. Elə mövcud vəziyyət də bu mexanizmdən bəhrələnən fermer və təsərrüfat sahiblərinin sayının, eləcə də sığorta ödənişlərinin məbləğinin ildən-ilə artmasını təsdiqləyir. Müqayisə üçün qeyd edək ki, Aqrar Sığorta Fondunun fəaliyyətinin ilk 2 ilində sığorta hadisələrinə görə fermerlərə 2,4 milyon manat ödəniş edilmişdisə, bu məbləğ 2023-cü ildə 3,5 milyon manat, ötən il isə 4,4 milyon təşkil edib. Cari ilin ilk yarısında artıq 4,5 milyon manatdan daha yüksək bir məbləğ istehlakçılara zərər qismində ödənilib.




Aqrar Sığorta Fondunun sədri F.Sadıqov bildirib ki, bu məbləğ yalnız ötən ilin sonunda və bu ilin əvvəlində baş verən sığorta hadisələrini əhatə edir. Onun sözlərinə görə, taxılçılıq və pambıqçılıq sahələrində dəymiş zərərə görə vəsaitin ödənilməsi ilin ikinci yarısında davam etdiriləcək. Bu isə o deməkdir ki, sığorta ödənişləri ilin sonuna 8-9 milyon manata çata bilər.

F.Sadıqov müsahibəsində onu da bildirib ki, ilin sonuna qədər ölkədə quşçuluq və arıçılıq təssərrüfatlarının sığortalanmasına başlanılması nəzərdə tutulur. Fond tərəfindən bu məqsədlə müvafiq qanunvericilik layihəsi və normativ hüquqi aktlara dəyişiklik layihəsi hazırlanaraq hökumətə təqdim edilib. Arıçıq və quşçuluq təsərrüfatlarının aqrar sığortaya cəlb olunması isə bu sahədə dövlət dəstəyindən bəhrələnən fermerlərin sayının çoxalmasına, eləcə də aqrar sığorta mexanizminin əhatə dairəsinin genişlənməsinə səbəb olacaq.

**Samuxun səxavətli torpaqları bu gün bir daha sübut edir ki, zəhmət olan yerdə bərəkət də əskik olmur. Min illərin kənd təsərrüfatı ənənəsini özündə yaşadan bu diyar, artıq yeni dövrün çağırışlarına cavab verən müasir təsərrüfat nümunələri ilə Azərbaycanın aqrar xəritəsində öz sözünü deyir.**

# Samux: torpaqdan bərəkət, bağçılıqdan inkişaf doğur



Son illərdə kənd təsərrüfatının müxtəlif sahələrində olduğu kimi, Samuxda da meyvəçilik yüksəliş mərhələsinə qədəm qoyub. Ənənəvi bağçılıqdan fərqli olaraq, indi bu torpaqlarda intensiv üsulla becərilən, tez bar verən və yüksək məhsuldarlıqla seçilən meyvə bağları salınır. Bu, həm məhsuldarlığın artırılmasına, həm də kənd təsərrüfatının modernləşməsinə xidmət edir.

Samux Rayon Statistika İdarəsinin məlumatına görə, 1 avqust 2025-ci il tarixinə rayon üzrə meyvə bağlarının ümumi sahəsi 2 min 372,7 hektara çatıb. Bu sahələrin 234,5 hektarı, yəni 9,8 faizi, artıq intensiv üsulla becərilən müasir bağlardır. Daha da sevindirici hal odur ki, bu bağların 57 hektarı cari ildə yeni salınıb. Ötən ilin eyni dövrü ilə müqayisədə intensiv meyvə bağlarının sahəsində 25 hektar və ya 11,9 faiz artım qeydə alınıb.

Bu, sadəcə, statistik artım deyil – bu, torpağa vurulan dəyərin, zəhmətin və gələcəyə olan ümidin göstəricisidir. Bu gün Samuxun bağlarında yalnız ağaclar deyil, həm də kəndlinin ümidi, gələcəyin rifahı bar verir.

Samuxda intensiv bağçılığın çeşidliliyi də diqqətəlayiqdir. Bu gün rayon ərazisində 10 hektar alma, 10 hektar armud, 14,3 hektar xurma, 7 hektar heyva, 41 hektar ərik, 118,3 hektar şaftalı, 6,3 hektar gavalı, 2 hektar alça və 25,6 hektar gilas bağları intensiv üsulla becərilir. Hər biri öz fəsli ilə Samuxun süfrəsini bəzəyir, bazarlarını canlandırır.

Bu bağlardan artıq 1319,6 ton məhsul yığılıb və məhsul yığımı hələ də davam edir. Bu isə o deməkdir ki, hər il daha çox ailənin ruzisi bu bağlardan gələcək, kəndlinin əli işdən, süfrəsi nemətdən kəsilməyəcək.

İntensiv bağçılığın genişlənməsi həm də yeni iş yerlərinin yaradılması, aqro-turizm potensialının inkişafı və yerli sahibkarların stimullaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Samux artıq yalnız kənd təsərrüfatı ilə deyil, həm də müasir texnologiyalarla inteqrasiya olunmuş aqrar model ilə tanınmağa başlayır.

Bu gün Samuxun bağları çiçəkləyirsə, sabah bu çiçəklər meyvəyə, o meyvələrsə gəlirə və rifaha çevriləcək. Bu torpaq bunu bacarır, çünki bu torpağın sahibləri zəhmətkeşdir, inamlıdır, gələcəyə bağlıdır.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

***Samux***

# I yarımildə ölkədə 48,9 min yeni iş yeri açılıb

**Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, bu ilin I yarısında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 1600 (ötən ilin eyni dövründəki göstərici ilə müqayisədə 615 və ya 62,4 faiz çox) yeni iş yeri açılıb. Hesabat dövründə Qarabağda 1040 (87,7 faiz çox), Şərqi Zəngəzurda isə 561 (29,9 faiz çox) yeni iş yerləri yaradılıb. Bu dövrdə Qarabağ iqtisadi rayonu üzrə yeni yaradılan ən çox iş yeri Xankəndidə (385) və Şərqi Zəngəzurda isə Laçın rayonunda (244) olub.**



Ümumilikdə, 2025-ci ilin 6 ayı ərzində Azərbaycanda 48,9 min yeni iş yerləri açılıb. Bu dövrdə iş yerlərinin 92,1 faizi qeyri–dövlət sektorunda fəaliyyətə başlayıb. Yeni açılmış iş yerlərinin 74,7 faizi Bakı şəhərinin, 1,1 faizi Naxçıvan Muxtar Respublikasının, 24,2 faizi digər regionların payına düşüb.

Ölkədə iş yerlərinin açılmasında qeyri–neft sektorunun fəaliyyəti səmərəliliyi ilə daha çox diqqət çəkir. Bu önəmli istiqamət Azərbaycanın 2030-cu ilədək Milli Prioritetlərində və 2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyasında da aydın nəzərə çarpır. Sənəddə qarşıya qoyulan prinsiplərə əsaslanılmaqla gələcəkdə bu sektorda daha yüksək göstəricilər əldə etmək, bununla da dünya iqtisadiyyatında respublikamızın mövqeyini gücləndirmək hədəflənir.

Qeyd edək ki, bu gün iqtisadi diversifikasiyada qeyri–neft sənayesinin innovativ üsullarla inkişafı və şaxələndirilməsi önəmli rol oynayır. İdxalı əvəz edən, yeni ixrac imkanları yaradan, eləcə də müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması, başqa sözlə, iş yerlərinin açılması isə mövcud sahənin yeni mərhələyə daxil olmasını şərtləndirir.

# Mingəçevir Parkı şəhərdə yüngül sənayeni dirçəldir

**Bu ilin birinci yarısında Mingəçevir Sənaye Parkında 24,9 milyon manatlıq məhsul istehsal olunub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə, təqribən, 7 faiz çoxdur.**

İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyindən XQ-yə bildirilib ki, hesabat dövründə parkda istehsal olunmuş malların 16,7 milyon manatlıq hissəsi isə ixraca yönəldilib. Ümumilikdə, Mingəçevir Sənaye Parkında indiyədək 351,4 milyon manatlıq məhsul satışı həyata keçirilib. Bunun 293,3 milyon manatlıq hissəsi və ya 83 faizindən çoxu ixracın payına düşür.

Ötən müddətdə sənaye parkında investisiya portfeli 530,3 milyon manat olan 2 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Hazırda burada 1 müəssisə fəaliyyət göstərir. Görülən işlərə isə, ümumilikdə, 159 milyon manat investisiya yatırılıb. Bunun da hesabına 550 nəfər daimi işlə təmin edilib.

Xatırladaq ki, Mingəçevir Sənaye Parkı ölkə Prezidenti İlham Əliyevin 2015-ci il 26




fevral tarixli fərmanı ilə yaradılıb. Parkın əsas fəaliyyət istiqaməti toxuculuq və yüngül sənayenin inkişaf etdirilməsidir.

***Səhifəni hazırladı:***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Bakı üzərində toz buludu

## Bu, haradan gəlir və hansı fəsadlar yaradır

**Azərbaycanın coğrafi mövqeyi bir tərəfdən ölkəmizə strateji üstünlüklər qazandırsa da, digər tərəfdən təbii–ekoloji risklərə qarşı həssaslığı artırır. Qafqaz dağlarının cənub ətəklərində, Xəzər dənizi hövzəsinin qərb sahillərində yerləşən Azərbaycan həm təbii proseslərin, həm də insan fəaliyyəti nəticəsində yaranan çirklənmələrin birbaşa təsirinə məruz qalır. Bu təsirlər bir–birini tamamlayaraq ekoloji vəziyyəti ağırlaşdırır.**



Ən aktual ekoloji problemlərdən biri isə transsərhəd toz kütlələrinin Azərbaycana yayılmasıdır. Son illərin müşahidələri göstərir ki, xüsusilə may–sentyabr aylarında Yaxın Şərqdən və Mərkəzi Asiyadan gələn toz buludları ölkəmizin müxtəlif bölgələrində havanın keyfiyyətini kəskin pisləşdirir.

Azərbaycanda müşahidə edilən transsərhəd toz kütlələri artıq son illərdə ekoloqlar və həkimlərin diqqət mərkəzində saxlanılır. Ənənəvi olaraq bu toz əsasən, Türkmənistan ərazisindən güclü küləklərin təsiri ilə ölkəyə daxil olur. Əgər bu kütlələr Bakıya və Abşerona qədər çatırsa, deməli, prosesin miqyası kifayət qədər geniş və təsiri isə təhlükəli xarakter daşıyır. Başqa sözlə, belə hallarda paytaxtda havanın bulanıqlığı və nəfəs darlığı birbaşa hiss edilir.

İqlim məsələləri üzrə ekspert Hüseyn Hacıyevin sözlərinə görə, toz dumanı daha çox quraq və yarı quraq bölgələr üçün xarakterikdir, ilin isti vaxtlarında və az rütubətli hava şəraitlərində nəzərə çarpır. Bakı və Abşeronda isə tozun miqdarının normadan çox olması, adətən, İran (Dəşti-kəvir səhrası), Qazaxıstan və Türkmənistan ərazisindən (Qaraqum səhrası) ölkəmizin hava məkanına isti və tozlu hava kütlələrinin daxil olması ilə əlaqədardır. Sinoptik xəritələrin təhlili və meteoroloji peyk–radar məlumatları da paytaxtda şərq və şimal–şərq küləklərinin üstünlük təşkil etdiyi və Türkmənistan isti və tozlu hava kütlələrinin respublikamızın hava məkanına daxil olduğu təqdirdə bu təbiət hadisəsinin baş verdiyini göstərir.

Yeri gəlmişkən, burada bir məsələni də xatırlatmaq istərdik. Bu məsələ ilə bağlı fikirlərini öyrəndiyimiz ekoloq-ekspertlərdən biri Bakını müəyyən vaxtlarda bürüyən toz dumanının qonşu ölkələrdə aparılan tikinti–quraşdırma işləri nəticəsində ölkəmizə keçdiyini dedi. Yəni Abşeronda müşahidə olunan bu meteoroloji hadisənin baş verməsini şimal, cənub və yaxud qərb küləkləri şərtləndirir, toz fırtınası da yaxın coğrafiyadan həmin küləklər vasitəsilə respublikamıza daxil olur. Ekoloqlar bildirirlər ki, bu fikir heç bir elmi əsasa söykənmir. Çünki doğrudan da, hadisəni şimal, cənub və eləcə də qərb küləkləri yaratsa idi, o zaman Bakıya davamlı yağış da yağardı.

H.Hacıyev səsləndirilən iddianın əsassızlığı barədə onu da qeyd etdi ki, hazırda respublikamızın peyk sistemlərinə əsaslanaraq təbiətdə baş verən hadisələri izləmək, proqnozlaşdırmaq və səbəbləri araşdırmaq imkanı var. Müasir rəqəmli modellər, peyk müşahidə sistemlərini əhatə edən belə bir texnoloji xidmət diqqətdə saxlanılmaqla toz dumanının xüsusilə cənub–şərq axınları ilə Türkmənistandan hərəkət edən hava kütləsi ilə ölkəmizə daxil olduğunu deyə bilərik. O da etiraf olunmalıdır ki, inşaat əməliyyatları, karxanaların istismarı zamanı atmosferdə toz qatı nəzərə çarpır. Lakin bu proses lokal ərazini əhatə etdiyindən qlobal miqyasda toz dumanın yaranması qeyri–realdır. Burada söhbət əsasən, sinoptik prosesdən gedir. Yəni Türkmənistanda tozlu burulğan baş verərək, cənub–şərq axınları ilə bulud formasında respublikamıza gəlib çatır, eyni zamanda, Abşeron yarımadasına yayılır.



Ümumiyyətlə, belə meteoroloji hadisə quraq və yarı quraq bölgələrdə – Afrikadakı Sahara, Asiyada Qobi və Yaxın Şərqdəki Ərəbistan səhrasında müşahidə edilir. Bu cür iqlim dəyişikliyi hava şəraitini dəyişir, bitki örtüyünü zədələyərək sıradan çıxarır, eyni zamanda, təsərrüfat fəaliyyətinə mənfi təsir göstərir, eləcə də aqrar sektorda məhsuldarlığı aşağı salır. Başqa sözlə, toz dumanı nəticəsində torpağın üst qatı eroziyaya məruz qalır, nəticədə məhsuldarlığa son qoyulur.

Ekoloqların bir qismi çirklənmənin əsas səbəbini şəhərdə avtomobillərin çoxluğu ilə bağlayır. Bildirilir ki, benzin və dizellə işləyən köhnə nəqliyyat vasitələri şəraitin kəskinləşməsini şərtləndirir. Çünki həmin maşınlar atmosferə böyük həcmdə zərərli qaz buraxır. Yeri gəlmişkən, köhnə avtomobillərin mərhələli şəkildə istismardan çıxarılması, ictimai nəqliyyatın yenilənməsi və yaşıllıqların artırılması da diqqətdə saxlanılır və bu istiqamətdə önəmli layihələr gerçəkləşdirilir. O da qeyd edilməlidir ki, şəhər ətrafında yerləşən sənaye müəssisələrinin tullantıları da küləksiz günlərdə paytaxt üzərində duman effekti yaradır. Şübhəsiz ki, Bakının ayrı–ayrı yerlərində aparılan tikinti işlərinin yaratdığı toz və çirkli hava da problemi dərinləşdirir. Rəsmi qurumların məlumatlarına görə, məsələnin həlli istiqamətində müəyyən layihələr həyata keçirilir. Köhnə avtomobillərin mərhələli şəkildə istismardan çıxarılması, ictimai nəqliyyatın yenilənməsi və yaşıllıqların artırılması bu qəbildən olan tədbirlər sırasında yer alır.

Yeri gəlmişkən, təbii proseslərin üzərinə insan fəaliyyəti də əlavə olunanda bu mənzərə daha da ağırlaşır. Azərbaycanda atmosferi çirkləndirən tullantıların, təxminən, 70 faizi nəqliyyat vasitələrinin payına düşür. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin əvvəlində ölkədə qeydiyyatdan keçmiş avtomobillərin sayı 1,7 milyona çatıb. Onların böyük hissəsi benzin və dizel mühərrikli köhnə maşınlardır ki, bu da havada azot oksidləri, karbonmonoksit və digər zərərli maddələrin səviyyəsini artırır. Tikinti sektorundakı vəziyyətə gəldikdə isə Bakı şəhərində inşaat sahəsinin sürətli inkişafı da əlavə çirklənmə mənbəyidir. Belə ki, təkcə son illərdə paytaxtda böyük həcmdə yaşayış sahəsi tikilib. Bu, həm karxanalardan çıxarılan daş və qum hasilatı, həm də tikinti meydançalarından yayılan toz kütlələri fonunda müşayiət olunub.

### Toz dumanı – sağlamlığın düşməni

Ekoloqların və tibb mütəxəssislərinin araşdırmalarına görə, tozlu hava təkcə qum və torpaq hissəciklərindən ibarət deyil. Onun tərkibində ağır metallar, zərərli kimyəvi birləşmələr, hətta mikroorqanizmlər olur. Dünya Səhiyyə Təşkilatının (DST) məlumatına əsasən, havadakı PM10 və PM2.5 tipli toz hissəcikləri (diametri müvafiq olaraq 10 və 2,5 mikrometrdən kiçik) insan sağlamlığı üçün ən təhlükəlilər sayılır. Çünki bu hissəciklər ağciyərlərin dərin qatlarına qədər nüfuz edir və xroniki tənəffüs xəstəliklərinə səbəb olur.

Mütəxəssislər qeyd edirlər ki, gips mənşəli müxtəlif toz hissəciklərinin nəfəs yollarına düşməsi bronxları ciddi şəkildə qıcıqlandırır. Bu da ciddi problemlərə gətirib çıxara bilər. Toz–duman qatı xüsusilə astma xəstəliyi və allergiyası olan insanlara problemlər yaradır. Gözlərində yaz kataraktası olan insanlara bu cür havanın pis təsiri var. Toz hissəcikləri dəridə allergik reaksiyalar da yarada bilər. Tənəffüs yollarında problemi olan insanlar üçün də belə toz daha təhlükəlidir. Hamilə qadınlara və uşaqlara da bu cür hava mənfi təsir edir. Harada toz hissəciyi ilə təmas varsa, orda qıcıqlanma ehtimalı böyükdür. Ona görə insanlar ehtiyatlı olmalıdırlar. Həmin dövr ərzində insan sağlamlığına məsul olan qurumlar xəbərdaredici tədbirlər görməlidir. Məsələn, belə şəraitdə açıq havada çox dayanmamalı, tibbi maskalardan istifadə olunmalıdır.

DST-nin son hesabatında qeyd edilir ki, hava çirkliliyi hər il dünyada təxminən 7 milyon insanı vaxtından əvvəl ölümə gətirib çıxarır. Bunun 4,2 milyon nəfəri açıq hava, 2,8 milyon nəfəri isə qapalı mühitdəki çirklənmə ilə əlaqələndirilir. Azərbaycanda bu məsələyə dair dəqiq statistika mövcud olmasa da, həkimlərin müşahidələrinə görə, son illərdə xüsusilə bronxial astma, allergiya və ağciyər xəstəliklərindən əziyyət çəkənlərin sayı artmaqdadır. Bu baxımdan, transsərhəd toz hadisələrinin respublikamızda da ictimai sağlamlığa təsiri ciddi narahatlıq doğurur.

Hazırda ölkədə tozlu havanın insan sağlamlığına təhlükəsi ilə bağlı müəyyən monitorinqlər aparılsa da, heyvanlar və quşlara təsiri barədə məlumat məhduddur. Halbuki kənd təsərrüfatının inkişafı və ekosistemin sabitliyi baxımından bu amil də strateji əhəmiyyət kəsb edir.

Toz kütlələrinin bitki örtüyünə təsiri də danılmazdır. Torpaq üzərində toz çöküntüsü fotosintez prosesini zəiflədərək məhsuldarlığı azaldır. Bu, xüsusilə Abşeron yarımadası kimi torpaq eroziyasına meyilli ərazilərdə aqrar sektor üçün əlavə çətinliklər yaradır. Məsələn, İran və Mərkəzi Asiya ölkələrində aparılan tədqiqatlar göstərir ki, toz fırtınaları kənd təsərrüfatında məhsuldarlığı orta hesabla 15-20 faizədək azaldır. Azərbaycan da bu regional tendensiyadan kənarda qalmır, çünki Abşeron yarımadası və aran bölgəsi torpaq eroziyasına həssas ərazilərdir. Yeri gəlmişkən, təkcə transsərhəd toz kütlələri deyil, həm də ölkədaxili antropogen fəaliyyət, yəni insan təsiri havanın çirklənməsinə təsir göstərir.



Onu da deyək ki, paytaxtda reallaşdırılan inşaat əməliyyatları geniş miqyasda olmasa da, müəyyən dərəcədə toz kütlələri yaradır. Tikinti meydançalarında müasir standartlara uyğun toz tutucu sistemlərin tətbiq edilməməsi havadakı bərk hissəciklərin miqdarını artırır. Yaxud, şəhər ətrafında fəaliyyət göstərən iri daş mədənləri də potensial toz mənbəyidir. Bu ərazilərdə ekoloji nəzarətin zəifliyi problemin daha da böyüməsinə gətirib çıxarır.

Avtomobil nəqliyyatı da toz kütlələrinin yaranmasında potensial mənbələrdən biri hesab edilir. Bakıda avtomobil sıxlığı havanın çirklənməsinin əsas amillərindən biridir. Statistikaya görə, paytaxtda hər 1000 nəfərə, təxminən, 350-dən çox avtomobil düşür. Bu göstərici bəzi Avropa şəhərləri ilə müqayisə edilə bilər, lakin burada nəqliyyat infrastrukturu yetərincə inkişaf etmədiyindən tıxaclar daha kəskin xarakter daşıyır. Avtomobil tıxacları yalnız $CO_2$ deyil, həm də azot oksidi, karbonmonoksid və digər zərərli maddələrin havaya qarışmasına səbəb olur. Bu hissəciklər toz kütlələri ilə birləşdikdə havanın keyfiyyətini daha da aşağı salır.

### Çıxış yolları və tövsiyələr

Mütəxəssislərin fikrincə, nəqliyyat islahatlarının həyata keçirilməsi sögedən problemin həllində əsas amillərdən biri kimi diqqət çəkir. Belə ki, təcrübə də təsdiq edir ki, elektrikli nəqliyyatın təşviqi, ictimai nəqliyyat şəbəkəsinin genişləndirilməsi və tıxacların azaldılması $CO_2$ emissiyasının aşağı salınmasında həlledici rol oynayır. Bundan başqa, toz kütlələrinin qarşısının alınmasında ictimai maarifləndirmənin rolu da böyük əhəmiyyətə malikdir. Xüsusilə astma və digər tənəffüs xəstəliyi olan şəxslərə tozlu günlərdə tibbi maskalardan istifadənin tövsiyə edilməsi zəruriliyi bunun parlaq ifadəsidir.

Mövcud vəziyyət Azərbaycanın həm ekoloji təhlükəsizliyi, həm də ictimai sağlamlıq siyasətinə yeni yanaşma tələb edir. Bu məsələdə, ilk növbədə, regional əməkdaşlıq amili xüsusi diqqət çəkir. Məsələn, transsərhəd toz kütlələri ilə bağlı Mərkəzi Asiya ölkələri və İranla birgə monitorinq və xəbərdarlıq sisteminin qurulması zəruridir.

Mövcud şəraitin yaxşılaşdırılması üçün şəhər nəzarəti də mühüm önəm daşıyır. Bu məqsədlə Bakı və Abşeron iqtisadi zonasında yerləşən tikinti sahələrində toz nəzarəti üzrə ekoloji standartların sərtləşdirilməsi zəruri bilinir. Toz kütlələrinin qarşısının alınmasında yaşıllaşdırma proqramlarının hazırlanması və tətbiqi də böyük əhəmiyyətə malikdir. Həmin proqramlar çərçivəsində səhralaşma meyllərinə qarşı mübarizə məqsədilə meşəsalmanın daha da inkişaf etdirilməsi və yaşıllıq sahələrinin artırılması toz kütləsinin təsirini azalda bilər.

### Beynəlxalq təcrübəyə bir nəzər…

Azərbaycanın coğrafi mövqeyi onu müəyyən təbii – ekoloji risklərə daha həssas edir. Lakin bu risklər yalnız təbii proseslərlə məhdudlaşmır, insan fəaliyyəti ilə də güclənir. Transsərhəd toz kütlələrinin yayılması, şəhər tikintisi, karxana fəaliyyəti və avtomobil sıxlığı bir–birini tamamlayaraq ekoloji vəziyyəti ağırlaşdırır. Ona görə də məsələyə kompleks yanaşma, həm regional əməkdaşlıq, həm də milli səviyyədə sərt ekoloji siyasət tələb olunur.

Bu sahədə bir sıra ölkələrin təcrübəsi də Azərbaycana nümunə ola bilər. Məsələn, Çin təcrübəsinə diqqət yetirək. Pekin ətrafında həyata keçirilən "Yaşıl divar" layihəsi sayəsində 1978-ci ildən bəri bu ərazidə 66 milyon hektardan çox ərazi yaşıllaşdırılıb. Bu, həm toz fırtınalarının qarşısını alıb, həm də atmosferin keyfiyyətini yaxşılaşdırıb. Səudiyyə Ərəbistanı və Küveyt nümunəsi də respublikamız üçün maraqlı ola bilər. Burada transsərhəd toz axınlarına qarşı regional monitorinq mərkəzləri yaradılıb. Belə ki, Riyaddakı "Hava keyfiyyəti üzrə erkən xəbərdarlıq sistemi" real vaxtda məlumat paylaşaraq insanların sağlamlığını qorumağa kömək edir. Avropa İttifaqı təcrübəsi də diqqət çəkir, hava keyfiyyətini yaxşılaşdırmaq, müxtəlif mənbələrdən meydana gələn toz dumanı kimi hadisələrin qarşısını almaq üçün avtomobil emissiyalarına sərt məhdudiyyətlər tətbiq olunur, ictimai nəqliyyatın elektrikləşdirilməsi təşviq edilir. Məsələn, Paris, Berlin, Madrid kimi şəhərlərdə avtomobil emissiyalarının qarşısının alınması istiqamətində müəyyən layihələr gerçəkləşdirilir. Parisdə köhnə dizel avtomobillərinin mərkəzə girişi qadağandır. Burada , eyni zamanda elektrik avtobuslarının sayı sürətlə artır.

Beləliklə, ölkəmizin təbii–coğrafi mövqeyi ekoloji risklərdən qaçmağı mümkünsüz edir. Amma bu riskləri idarə etmək, təsirlərini minimuma endirmək mümkündür. Uğurlu beynəlxalq təcrübələr göstərir ki, qətiyyətli siyasət, sərt normativlər və ekoloji mədəniyyətin yüksəldilməsi ilə həm insan sağlamlığı, həm də təbii mühit qoruna bilər. Azərbaycanın qarşıdakı illərdə bu istiqamətdə atacağı addımlar yalnız ekoloji sabitlik üçün deyil, həm də dayanıqlı inkişaf strategiyasının vacib tərkib hissəsi olacaq.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Rövşən ABBASOV,
ətraf mühit məsələləri üzrə ekspert**

Havanın keyfiyyəti tozun miqdarı, yerüstü ozon, kükürd və azot oksidləri, karbon–monoksid və digər indiqatorlarla bağlıdır və bu, hava keyfiyyəti indeksi ilə müəyyən olunur. Hava keyfiyyəti indeksi 0–500 arası dəyişir. Əgər rəqəmlər 0–50 arasındadırsa, deməli, hava keyfiyyəti çox yaxşıdır. 50–100 arası olduqda havanın keyfiyyəti normal kimi qeyd olunur, 100–250 aralığı isə orta keyfiyyətli hava şəraitinin mövcudluğu qeyd edilir. Eyni zamanda, indeks 250–350 arasındadırsa, deməli pis, 250-dən sonrası isə daha pis olduğunu göstərir.

Keyfiyyət ölçən həm stasionar, həm mobil cihazlar var. Mobil cihazlar isə kiçik portativ, əllə daşına bilən və ölçüsünə görə mobildən daha böyük olan müxtəlif cihazlardır. Məsələn, tələbələrimiz çox vaxt təcrübə zamanı sırf daşına bilən cihazlarla havanın keyfiyyətini ölçürlər. Bu silsilədən olan başqa cihazlar da var ki, bunları avtomobillərin üzərinə qoyaraq havanın keyfiyyətini istənilən yerdə ölçmək mümkündür.

Stasionar cihazlar isə təyin edilmiş ərazidə qurularaq daim havanın keyfiyyətini ölçür. Bunlar daha yaxşıdır, çünki daim bir yerdə qalaraq daha düzgün və operativ şəkildə informasiya ötürür. Bu ölçmələr isə birbaşa internetə ötürülür. Bununla da həmin bölgədəki hava kütləsinin keyfiyyəti müəyyənləşir. Məsələn, paytaxtda ABŞ səfirliyi binasının yerləşdiyi həyətdə bu stansionar cihazlardan biri qurulub. Beləliklə, biz istənilən vaxt internet vasitəsi ilə istənilən bölgənin hava keyfiyyətinə nəzarət edə bilərik.

Yeri gəlmişkən, Bakı və Sumqayıt şəhərlərində havanın keyfiyyəti 50–70 arası göstərir. Bu cihazlar ümumi şəhər üzərində deyil, dəqiq olaraq ərazi (küçə, qəsəbə və s.) üzərindən də ölçə bilər. Məsələn, hazırda bulvarda 36, ABŞ səfirliyinin ərazisində isə 72 göstərir. Bu rəqəmlər həm saatdan, həm də sıxlıqdan asılı olaraq dəyişir. Azərbaycanda atmosfer havasında ekstremal hallar demək olar qeydə alınmır. Başqa ölkələrin ərazisindən Azərbaycana tranzit formada toz burulğanları gələndə isə nadir hallarda lokal ərazilərdə yüksək çirklənmə qeydə alınır.

Bildiyimiz kimi daima Sumqayıt şəhərinin havası ilə bağlı giley–güzar eşidilib. Sovet dövrü ilə müqayisədə Sumqayıtın havasının keyfiyyətində xeyli dəyişiklik var. Əsas səbəblərdən biri çirkli ərazilərin təmizlənməsidir. Sumqayıtda atmosferin təmizlənməsinə dair bi sıra layihələr həyata keçirilib, yaşıllıqlar salınıb. Bundan başqa, oradakı zavodlarda köhnə avadanlıqlar yeni, müasir, "ekodost" olanlarla əvəzlənib. Hətta bu şəhərin elə yerləri var ki, orada havanın keyfiyyəti Bakı ilə müqayisədə daha yaxşıdır.

Bakının ətrafında çoxlu daş karxanaları var. Ancaq bunun fonunda paytaxtda havanın keyfiyyətini pisləşdirən əsas amil avtomobillərdir. Elektrik və hibrid avtomobillərin məşhurlaşması ilə qlobal səviyyədə bu problem həllini tapır. Bu istiqamətdə çoxlu tədbirlər gedir.

# “At gücü” – klassik avtomobillərin yürüşü və çövkən oyunu keçirilib



**Avqustun 30-da Bakıda Azərbaycan Avtomobil Federasiyası (AAF) və Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) birgə təşkilatçılığı ilə klassik avtomobillərin və çövkən oyunu, at şousunun bir araya gəldiyi tədbir keçirilib. Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.**



Tədbir Bakı bulvarında klassik avtomobillərin sərgisi ilə başlayıb. Dənizkənarı Milli Parkda AAF-da tədbir üçün qeydiyyatdan keçən klassik avtomobillər, həmçinin Heydər Əliyev Mərkəzindəki daimi sərginin bəzi eksponatlarından ibarət nəqliyyat vasitələri nümayiş olunub. Yüzdən çox klassik avtomobilin iştirak etdiyi tədbirdə müxtəlif illərə aid nəqliyyat vasitəsini görmək mümkün olub. Bu nadir eksponatlar avtomobil sənayesinin inkişaf mərhələsini əks etdirərək, vizual baxımdan hər zaman diqqəti cəlb edir.



Sonra retro avtomobillər şəhərin mərkəzi küçələri daxil olmaqla Neftçilər prospekti - Ağ Şəhər bulvarı - Heydər Əliyev Mərkəzi - Heydər Əliyev prospekti – Binə Atçılıq Mərkəzi marşrutu ilə hərəkət edərək Bakı sakinləri və qonaqlarına nostalji dolu anlar yaşadıb.

Müxtəlif illərdə fərqli avtomobil şirkətləri tərəfindən istehsal edilən klassik nəqliyyat vasitələri paytaxtımızın görünüşünə xüsusi ovqat qatıb. Bu avtomobillərin hər biri nəinki müasir nəqliyyat vasitələrindən fərqlənən görünüşü, həm də öz tarixi ilə də maraq doğurur.

Yürüşün sonunda Binə Atçılıq Mərkəzində sərgi təşkil olunub. Daha sonra başlayan tədbirdə Azərbaycan Avtomobil Federasiyası və Azərbaycan Respublikası Atçılıq Federasiyasının fəaliyyətinə dair videoçarx nümayiş etdirilib. Beynəlxalq Avtomobil Federasiyasının tamhüquqlu üzvü olan AAF avtomobil idmanının inkişafı, yol hərəkəti təhlükəsizliyi və avtomobil irsinin təbliği istiqamətində müxtəlif layihə və tədbirlər həyata keçirir. Bu fəaliyyətlər sırasında avtoidman yarışları, sürət festivalları, drift və yolsuzluq yürüşləri, klassik avtomobil sərgiləri xüsusi yer tutur. Federasiyanın təşəbbüsləri beynəlxalq səviyyədə də yüksək qiymətləndirilib. 2024-cü ildə Kiqalidə keçirilən FIA mükafatlandırma mərasimində AAF “Klassik avtomobillər” sərgisinə görə “İrsin Təbliği Kubokuna” layiq görülüb.



ARAF isə bu illər ərzində, həmçinin Qarabağ atlarının qorunması, beynəlxalq tədbirlərdə tanıdılması istiqamətində mühüm işlər görüb. Bu ilin may ayında Qarabağ atları artıq 9-cu dəfə İngiltərədə Vindsor Kral Atçılıq Şousunda, İstanbulda keçirilən Etnosport Mədəniyyət Festivalında möhtəşəm çıxış edib və tamaşaçıların böyük rəğbətini qazanıb. Eyni zamanda, çövkən oyunu artıq dünya miqyasında tanıdılaraq beynəlxalq yarışlara çıxarılıb. Sonra tamaşaçılara Qarabağ atlarının füsunkar çıxışı – “Zəfər” proqramı təqdim edilib. Azərbaycanda milli atüstü oyun növlərindən biri olan - çövkən oyunu barədə videoçarx təqdim olunub. 2013-cü ildə UNESCO-nun Təcili Qorunmağa Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilən milli atüstü oyun növü-çövkən təkcə idman növü deyil, həm də zəngin mədəni irsdir. Qeyd edək ki, gələn il Bakıda 2-ci Çövkən üzrə Dünya Çempionatı baş tutacaq.

Tədbir Azərbaycan-İtaliya yoldaşlıq çövkən oyunu ilə davam edib. Oyun idmanın dostluq və əməkdaşlıq missiyasını əks etdirib. Çövkən oyunu Azərbaycan komandasının 2:1 hesabı ilə qalib gəlməsi ilə nəticələnib.

Eyni zamanda tədbirdə “Ən yaxşı qadın süvari”, “Ən yaxşı kişi süvari” və “Ən unikal avtomobil”, “Ən orijinal avtomobil”, “Ən əfsanəvi avtomobil”, “Ən qədim avtomobil”, “1950–1960-cı illərin ən fərqli avtomobili”, “1970-1980-ci illərin ən fərqli avtomobili”nin sürücüləri təltif edilib. Həmin axşam yalnız idmançı və sürücülər deyil, həm də rəngarəng retro geyimi ilə seçilən qonaqlar mükafatlandırılıb. “Ən rəngarəng retro geyimli” üç qalib təltif edilib.

Gecə konsert proqramı ilə davam edib. Səhnəyə məşhur tenorlar Vittorio Grigolo (İtaliya) və Yusif Eyvazov (Azərbaycan), eləcə də soprano ifaçısı Afaq Abbasova (Azərbaycan) çıxaraq opera ifaları ilə gecəyə sənət ruhu qatıblar. Daha sonra müasir musiqi səhnəsinin sevilən siması Minelli (Rumıniya) öz enerjili çıxışı ilə tamaşaçılara unudulmaz anlar yaşadıb.

Tədbir “Nazar Holdings”, “Volvo Cars”, “Azerbaijan Automobiles”, “Azpetrol” şirkətlərinin sponsorluğu, “Motor House”, “Green Car” mərkəzlərinin, Regional İnkişaf İctimai Birliyi (RİİB) və “Nargis” jurnalının təşkilati dəstəyi ilə keçirilib.

# Bu il iqtisadiyyata 30 milyard manat kredit ayrılıb

## *Bunun 22,1 milyard manatı özəl bankların payına düşür*

**2025-ci il avqustun 1-nə Azərbaycan iqtisadiyyatına cəmi kredit qoyuluşunun (bank və qeyri-bank birlikdə) həcmi 30,257 milyard manat təşkil edib. Bu barədə Mərkəzi Bank məlumat yayıb.**

Bildirilib ki, banklar və qeyri-banklar tərəfindən ölkə iqtisadiyyatına kredit qoyuluşunun həcmi bir ay əvvələ nisbətən 26,1 milyon manat və ya 0,1 faiz, 2024-cü ilin avqustun 1-nə nisbətən isə 3 milyard manat və ya 11 faiz artıb. Hesabat dövründə kredit qoyuluşunun 7,4 milyard manatı dövlət banklarının payına düşüb. Bu isə iyun ayına nisbətən 49 milyon manat və ya 0,6 faiz azalma, illik müqayisədə isə 763,7 milyon manat və ya 11,5 faiz artım deməkdir.

Avqust ayının 1-dək iqtisadiyyata kredit qoyuluşlarının 21 milyard 98 milyon



manatı özəl bankların payına düşüb. Bu da iyulun 1-nə olan göstərici ilə müqayisədə 75,1 milyon manat və ya 0,3 faiz, ötən illin avqustun 1-nə olan göstəriciyə nisbətən isə 2 milyard 40 milyon manat və ya 10,7 faiz çoxdur.

Bundan əlavə, cari ilin avqustun 1-nə ölkə iqtisadiyyatına kredit qoyuluşlarının qeyri-bank kredit təşkilatlarına düşən payı 1 milyard 759 milyon manat olub ki, bu da aylıq müqayisədə dəyişməz qalsa da, ötən ilin eyni dövrü ilə müqayisədə isə 185,9 milyon manat və ya 11,8 faiz artıb.

Qeyd edək ki, hesabat dövründə dövlət bankları tərəfindən kredit qoyuluşu ümumi kredit qoyuluşunun 24,5 faizini, özəl banklar tərəfindən kredit qoyuluşu ümumi kredit qoyuluşunun 69,7 faizini, bank olmayan kredit təşkilatları tərəfindən qoyulan kredit qoyuluşu isə ümumi kredit qoyuluşunun 5,8 faizini təşkil edib.

***XQ***

# Türkiyənin Zəfər bayramı qeyd olunub

**Türkiyənin Naxçıvandakı baş konsulluğunda Türkiyə Respublikasının Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə tədbir keçirilib. Mərasimdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya və digər dövlət təşkilatlarının rəhbərləri, hökumət nümayəndələri iştirak ediblər.**



Əvvəlcə Azərbaycan və Türkiyə respublikalarının ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hər iki ölkənin Dövlət Himni səsləndirilib.

Baş konsul Asip Kaya qonaqları salamlayıb, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəfər bayramı münasibətilə ölkənin xaricdəki diplomatik nümayəndəliklərinə göndərdiyi təbrik məktubunu oxuyub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Türkiyə xalqının milli istiqlal tarixinin şanlı səhifəsi olan Zəfər bayramı münasibətilə tədbir iştirakçılarını və qardaş Türkiyə xalqını təbrik edib, Azərbaycan – Türkiyə əlaqələrindən söhbət açıb.

# “Ofis proqramları” təlimi uğurla başa çatdırılıb

**Naxçıvan Təlim Mərkəzi dövlət qurumlarında çalışan əməkdaşların rəqəmsal bacarıqlarının artırılması istiqamətində həyata keçirdiyi ardıcıl layihələr çərçivəsində daha bir təlim proqramına yekun vurulub. “Ofis proqramları” üzrə peşəkar təlimlər İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzində keçirilib.**



Təlimi mütəxəssi Qönçə İsmayılova iştirakçılara Microsoft Word, Excel və PowerPoint proqramlarının səmərəli və praktik istifadəsi, hesabatların hazırlanması, təqdimat bacarıqları və sənəd tərtibatı üzrə ətraflı biliklər təqdim edib. Proqramın son günündə isə iştirakçıların biliklərini qiymətləndirmək məqsədilə sertifikasiya imtahanı təşkil olunub, təlimi uğurla başa vuran iştirakçılara sertifikatlar verilib.

Təlim Mərkəzi bundan sonra da dövlət qurumları əməkdaşlarının peşəkar inkişafı, rəqəmsal savadlılığının artırılması və innovativ yanaşmaların təşviqinə yönəlmiş layihələr həyata keçirməyi planlaşdırır.

# 19 sahibkarlıq subyektinə 25 investisiya təşviqi sənədi verilib

**Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən “XQ-yə verilən məlumata görə, nazirlik tərəfindən 2016–2025-ci illərdə 121 milyon manat dəyərində investisiya layihəsi üzrə 19 sahibkarlıq subyektinə 25 investisiya təşviqi sənədi və 51 təsdiqedici sənəd verilib.**



Bunlardan 4 sahibkarlıq subyektinə verilən investisiya təşviqi sənədinin güzəşt müddəti bitib. Bu mexanizmdən istifadə edən sahibkarlıq subyektlərində 642 yeni iş yeri yaradılıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, investisiya təşviqi sənədi ölkə üzrə, o cümlədən Naxçıvan Muxtar Respublikasında investorların cəlb edilməsi, sahibkarlığın inkişafı və yeni istehsal sahələrinin qurulması üçün tətbiq olunan dövlət dəstək mexanizmidir.

# HİV infeksiyasının ilkin aşkarlanmasına başlanıb

**Naxçıvan Muxtar Respublikası QİÇS-lə Mübarizə Mərkəzi ilk dəfə olaraq tüpürcək testləri vasitəsilə HİV infeksiyasının ilkin aşkarlanması prosesinə start verib. Muxtar respublikanın Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bu metod ənənəvi qan testlərindən fərqli olaraq daha rahat, təhlükəsiz və sürətli nəticə əldə etməyə imkan verir.**



İlkin mərhələdə sözügedən testlər muxtar respublikanın Psixi Xəstəliklər Dispanserində stasionar müalicə alan pasiyentlər arasında həyata keçirilib. Bu addım həm pasiyentlərin sağlamlıq durumunun vaxtında qiymətləndirilməsinə, həm də risk qruplarında HİV infeksiyasının erkən aşkarlanmasına xidmət edir.

QİÇS-lə Mübarizə Mərkəzinin təşəbbüsü çərçivəsində icra edilən bu yeni yanaşma gələcəkdə digər tibb müəssisələrində də tətbiq ediləcək və əhalinin sağlamlığının qorunması istiqamətində mühüm addım olacaq.

# Dünyanın iki qapısı önündə düşüncələr...

(əvvəli 1-ci səhifədə)

Keçdiyimiz yol tamamilə yaddaşımızdadır. Jurnalist təhsili aldıq, çətinliklərdən, sınaqlardan çıxdıq, hələ vaxt tapıb Bərdənin Piyadalar, Bolnisinin Faxralı



kəndlərinə dəfələrlə baş çəkdik, ailələrimiz bir-birini tanıdı, xeyirdə, şərdə iştirak etdilər.

Atalar demişlər ki, sən saydığını say, gör fələk nə sayır. Güman edirdik ki, əksər çətinliklər, sıxıntılar, qürbət ellər, tərki-vətən həyatı arxada qalıb. Amma bu qismət Əlişin boyuna biçilibmiş. Bəs, axı, necə oldu ki, bu sınaqlar yalnız onun başına gəldi. İndi görürəm ki, həyat mübarizədir deyərək bütün sınaqlara mətanətlə sinə gərməyə dostlarımızdan yalnız o, hazır imiş.

Əlişin gümanına da gəlməzdi ki, həyatında ilk zərbəni Bakıda alacaq. MDU-nun məzunu təyinat kağızı ilə 2 ilə yaxın respublikanın media qapılarında hədər yerə dolaşacaq. Hər birindən də boş vədlərlə qayıdacaq.



Lakin Əliş həyat mübarizədir deyərək, sınmadı. Tale yazısından şikayətçi də olmadı. Şikayət etmək Əlişin xasiyyətinə uyğun gəlmədiyindən, o vaxtlar paytaxt sandığımız Moskvaya geri dönüş elədi.

Ə.Qasımov 1987–1995-ci illərdə Rusiyanın populyar mətbu orqanları ilə əməkdaşlıq etdi. O cümlədən, sanballı nəşrlər olan ümumittifaq "Neftyannik" kütləvi informasiya jurnalında, "Rossiyskaya Federasiya" qəzetində və sair orqanlarda çalışdı.

2000-ci ildən sonra bioqrafiyasına Moskva həyatının fərqli səhifələri yazıldı. Azərbaycan dilində müstəqil qəzetlər yarananda ilk könüllülərdən biri də Əliş idi. Diqqət edin, XXI əsr başlananda, Rusiyada camaat əsasən maddi sıxıntıları ilə məşğul olanda Əliş sanballı mətbu orqanlarının ərsəyə gətirilməsindən zəhmətini əsirgəmədi. Adlarını çəkək: "Azərbaycanın səsi", "Azərbaycan diasporu", "Asudə vaxt", "Azərros", "Diaspora inform" və digər mətbu orqanlarda direktor, redaktor, şef-redaktor və baş redaktor... kimi oxucuların dərin hörmətini qazandı. Dünyəvi "21 Azər" jurnalının Moskva təmsilçisini bütün qitələrdə yaxından tanıyırdılar. Nəşrin Rusiya oxucuları arasında kifayət qədər abunəçisi və oxucusu var idi.

Rusiya və Azərbaycan jurnalistlər birliklərinin, Beynəlxalq Jurnalistlər Federasiyasının, Beynəlxalq Yazıçılar və Publisistlər Assosasiyasının üzvü "Rusiya və Azərbaycan xalqlarının dostluq əlaqələrinin möhkəmləndirilməsində xidmətə görə" Rusiya Yazıçılar Birliyinin Vladimir Mayakovski ordeni ilə, "Kosmonavtikaya aid publisistik məqalələrə görə" Rusiya Kosmonavtlar Federasiyasının "Kərim Kərimov medalı"na layiq görüldüyünə görə onu təbrik etdiyimiz təltiflərdəndir.

Bu qeydlərimizdə yazıçı-publisistin spesifik yazılarından deyil, şeir dünyasından bəhs etmək istəyirik. Bədii kitablarının sayı ikidir: "Ana Tərtər" və "Dünyanın iki qapısı". İnanmıram ki, növbəti kitabdan sonra üçüncüyə cəhd etsin. Sanki hər iki nəşrdə nə sözü var, deyib və yekun vurub. Hər halda, bu mənim gəldiyim qənaətdir.

Amma ona da inanmaq istəyirəm ki, "Ana Tərtər"dən sonra "Dünyanın iki qapısı" şeirlər kitabını yazan Əliş Əvəz nə vaxtsa yekun sözünü deyəcək. İnşallah! Əslində, bu kitabı ilə oxucuların könüllərini vəcdə gətirən şairin öz poetik duyğularını bir daha sərgiləmək potensialının olduğu şübhəsizdir.

Özü danışıb, bir dəfə müəllimi, filologiya elmləri doktoru Kamil Vəli Nərimanoğlu dərsdə sözgəlişi ona deyib ki, Bərdədənsən, Nüşabəyə aid şeir bilirsənmi? Əliş isə gülümsəyərək cavab verib ki, bəyənsəniz, özümün şerimdən birini deyərəm. Sonra icazə ilə "Nüşabə qalası" şerini oxuyub:

**Dili olsaydı əgər, kimlərdən,
Həm də nələrdən söhbət açardı!
Görmədiyimiz neçə əsrlərdən,
Qərinələrdən söhbət açardı.**

Şeir 1976-cı il avqustun 18-də, 8-ci sinif şagirdi tərəfindən yazılmışdı. Kamil müəllim "əhsən", – deyib. – Sən şair olacaqsan.

Səbirsiz mütaliəçini narahatlıqdan xilas etmək üçün məndəricata yazılanlara ötəri də olsa nəzər salaraq keçək fəsillərə.

"Bir balaca balanam" guşəsində "Nüşabə", "Kür qırağı", "Qara arxac", "Çoban"... məktəb yaşlı uşaqlar üçün yazılıb. Balacaların duyğularını cana gətirə bilən nümunələr onların sevincinə, təbəssümünə rəvac verir. Sonra "Erkən gənclik" silsiləsindən şeirlər sıralanır. "17 yaşıma"da hiss olunur ki, bu evdə gündəlik ud havası səslənir. "Dan ulduzu"nu seyr edən, ana nəvazişi ilə dünyanın ləzzətini yaşayan gənc anasını da unutmur, vəsf edir...

Bu gün Kamil müəllim cismən aramızda yoxdur. Dünyanın ikinci qapısından keçmədən əvvəl bizə daha bir mənəvi xəzinə yadigar qoyub. Kitaba elə misilsiz Ön söz yazıb ki, kimsə ona bərabər çətin ki, ikincisini yarada bilə. Əliş kamil insanın yaratdığı mətnə verdiyi misilsiz qiymətini belə dəyərləndirir: "Müəllifdən: Uzaq bir zamanda dil müəllimim olmuş Kamil müəllimin ruhundan üzr istəyirəm ki, bu kitabı onun sağlığında çap edə bilmədim. Bu səbəbdən burada təzə yazılmış şeirlər yoxdur".

Halal olsun deyilən sözə, sədaqətə, belə qiymətə.

Şair dünyanın iki qapısından keçəcəyimizi xəbərdar edərkən "İlahiyyələr"dən götürülmüş bölümdə ömrə sadəcə yaşantının, illərin tamamı kimi deyil, daha ciddiyyətlə yanaşmağı təlqin edir, bütün aləmin bu qapıdan keçəcəyini bildirir:

**İki qapısı var dünyanın:
Ön qapı,
Son qapı.
Ön qapıdan keçib gəlmişik,
Az-çox onun
Boy-buxunun görmüşük,
Azacıq da sirrini bilmişik.
Ön qapıdan girmək üçün
Son qapıdan
Çıxıb getməliyik,
Görünməz dünyalarda
İlim-ilim itməliyik.**

Müəllif elə dərin, uzaqgörən fəlsəfi fikirləri xırdalayır ki, hərəsi cild-cild kitabın, əsərin mövzusu ola bilər. Dili çox sadə və anlaşılandır. Həyat üzümüzə uşaq qığıltısı ilə açılır, ömrün şirinliyini, ağrı-acısını dadızdırır, bir də görürsən ki, necə gəlib-keçdiyini hiss etmədin. Bəli, bunlar ömrün yadda qalan anlarıdır.

Şair 16 bölmədən ibarət kitaba "İlahiyyə" bölməsi ilə yekun vurur. Hərçənd yekunmu?! Axı biz öncədən bu kitabın bitmədiyi, ruhların yaddaşında davam etdiyi fikrindəyik. Əlbəttə, 50-dən çox poetik nümunənin toplandığı bu qəbildən olan şeirlərin sayı daha çox ola bilərdi. "Son Qapı – Ön Qapısı Dünyanın..."da kitaba yekun vurula bilərdi. Lakin o öz orijinal yolunu seçib.

Əliş Əvəz yekun fəslini "Anlamaq dərdi"ndə görərkən dərin-dərin dəryalara qərq olmaq fikrinə düşür. O, ucalığın əlçatmazlığından, dəryaların, okeanların əzəmətindən qorxmayan bir oğuldur. Azərbaycanlıların Moskva diasporunda çalışdığı illərdə nələrlə qarşılaşmır?! Dünya Azərbaycanlı-




larının Qurultaylarında başını uca tutaraq hesabat verir. İki hissədən ibarət "Anlamaq dərdi"ndə nə gözəl deyib:

**Anlamaq dərdim haqq nuruymuş, bəli!
Qorxur qaranlıqlar ağ işığımdan.
Şükür, üstümdədir Tanrının əli,
Araz topuğumdan, Kür aşığımdan!**

"Dünyanın o üzündən gəldiyini" söyləyən şair nə qədər giley-güzarını saxlasa da, olub keçənlər göz qabağındadır. Sənətkar dünyada onun üçün yer tapılmadığından, məkanının, zamanının qürbət olduğundan... insanların soyuq baxışlarından dilə gəlir. "Əbədi savaş və mən" mini-poemasının proloqunda şəstlə deyir:

**Əsl şairlər istəsələr də, istəməsələr də, Allahın sirlərinə əl apararlar.**

**Elə buna görə də əksər halda bu və ya digər mənada onlar zəlil olurlar.**

**Ancaq bu zəlillikdə həmının başa düşə bilməyəcəyi bir xoşbəxtlik var.**

**Bu Allahın şairlərə sevgisidir.**

Şeir Əliş Əvəz oğlu Qasımovun ta uşaqlıqdan günümüzədək keçdiyi həyat yolunun bioqrafiyalaşmış sətirləridir. Mütaliəçini narahatlıqdan xilas etmək üçün məndəricatdakılara ötəri nəzər salmaq kifayətdir.

Günlərin birində 18 yaşlı gənc Uzaq Şərqdə Bolşaya Karteldə hərbi xidmətə yola düşəndə gördü ki, doğma kənddəki salxım söyüdlər, mavi gözlü baxışlar... elə bu yerlərdə də var. Tayqa meşələrinə baxıb dedi: Görəcəyəmmi doğma yerləri. Fəqət əsl ayrılıq dörd il sonra gələcəkdi. Özü də yaxasından bərk-bərk tutub Moskva həyatına cəlb edəcəkdi. Bax, əsl qürbət bu idi ki, adı dəyişdi, mənası olduğu kimi qaldı.

**Əliş qərib bu yığvalla,
Davası var o cığalla.
Ha əzizlə, ha sığalla,
Qürbət dönüb Vətən olmaz!**

Əlişin yaradıcılığından Azərbaycan, azərbaycançılıq qırmızı xətlə keçir. Hələ 1991-ci ildə xalqımızın dahi oğullarından Məmməd Əmin Rəsulzadənin və Heydər Əliyevin xatirələrinə ithaf etdiyi nümunələr dillər əzbəri idi.

**Dalğalan, könlümün vüsəti sənsən,
Tanrının ən gözəl neməti sənsən,
Elimin qeyrəti, isməti sənsən
Sənsən gözlərimin qarası-ağı,
Azərbaycan bayrağı!**

Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş himni də vətənpərvər şairin doğma duyğularından qaynaqlanırdı.

Xalqımız böyük sərkərdə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən torpaqlarını azad etdi. Bunadək illərlə qəlbimizdə belə arzu yaşanmışdı.

Əliş 2014-cü ildə yazdığı "Qaytar Vətən borcunu!" şeiri ilə xalqımızın istək və arzularını dilə gətirirdi. O, tövsiyə edirdi, məsləhət görürdü ki, "Oynama, Kərəmi havasına!"

Əliş Zəngəzuru xəritədə Azərbaycanın köksünə sancılmış bıçağa bənzədirdi. İnşallah tezliklə bu xəcalətli görüntü də ortadan çıxar. Şeir 2007-ci ilin Moskva məhsullarındandır. Daha bir həsrət körpüsü isə Xudafərindədir ki, bu da narahatedici düşüncələrimizdəndir.

Əlişin deyiləsi, yazılası şeirləri çoxdur, qalanı da qalsın gələn dəfəyə. Son qapıya hələ o qədər vaxtımız var ki... Yüzü istəyək ki, heç olmasa 90-nı qismətimiz olsun:

**Ən təzə-tər söz deyilməyib hələ,
Ən ləziz xörək yeyilməyib hələ,
Hələ gəlməyib ən təzə zaman,
Ən gözəl libas geyilməyib hələ.**

İnşallah 70-də görüşənədək. Sağ olun, salamat qalın!

*Əflatun AMAŞOV*

# Elm, fəlsəfə və ədəbiyyat

**(Əvvəli qəzetin 27 iyul, 3 və 24 avqust tarixli saylarında)**

## 5-ci mövzu. Ədəbiyyat və Nisbilik nəzəriyyəsi

İntellektual təmayüllü bədii mətnlərin yaranması prosesində istifadə etdiyimiz modeli şərtləndirən ardıcıllığı bir daha nəzər salaq: elmi informasiya, fəlsəfi düşüncə, bədii təfəkkür (Eİ – FD – BT). Mətnqurma mərhələsində bu modelin sə-



ciyyələndirdiyi ardıcıllığı dəyişməz qalır. Hadisə ilə adekvat olan elmi informasiya fəlsəfi düşüncə vasitəsilə bədii mətnə gətirilir. Fəlsəfi düşüncə, bir növ, elmi informasiya ilə bədii mətn arasında körpü–keçid aparatı funksiyasını icra edir.

Bu mövzuda isə hədəf seçdiyimiz elmi informasiya Nisbilik nəzəriyyəsidir və məqsədimiz bu nəzəriyyənin fəlsəfəsindən daxil etdiyimiz model əsasında bədii mətndə istifadə texnikasının şərhini verməkdən ibarətdir.

Klassik təsəvvürlərə görə, zaman və fəza mütləqdir, onlar arasında heç bir daxili əlaqə yoxdur. Yəni hərəkət zamanın gedişinə təsir göstərmir və cismin xətti ölçüləri onun sükunət və ya hərəkət halında olmasından asılı deyil. Həmçinin işığın vakuumda (boşluqda) sürəti sonsuz böyükdür. Lakin Enşteynin Nisbilik nəzəriyyəsi bu təsəvvürləri dağıtdı. Yeni təsəvvürlərin nədən ibarət olduğunu xatırlamaq və ədəbi-bədii müstəviyə adlamaq üçün əvvəlcə bu nəzəriyyənin bəzi nəticələri ilə tanış olaq.

İşıq sürəti. Bu nəzəriyyə əsasında isbat olunur ki, heç bir cismin sürəti işıq sürətini aşa bilməz. Yəni işıq sürəti təbiətdə mövcud olan ən böyük sürətdir. İşıq sürəti adətən "c" ilə işarə edilir və işıq sürətinin vakuumdakı sürəti saniyədə 300000 km.-ə bərabərdir (c = 300000 km/san).

Fəlsəfi və bədii yanaşma: İnsan təfəkkürü hər hansı bir hadisə haqqında müxtəlif və rəngarəng fikir variasiyaları yaratmaq imkanına malikdir. Bu fikir variasiyalarının dərinliyi isə insan idrakının elmi, fəlsəfi, poetik və digər imkanlarının sərhədləri ilə ölçülür. İşıq sürəti anlayışı ətrafında da bir çox bədii-fəlsəfi düşüncə şəbəkəsi yaratmaq mümkündür. Bu fikir şəbəkəsindən bir neçə nümunəni nəzərdən keçirək ki, elmi informasiyadan bədii mətnə keçid üçün xammal hazırlaya bilək.

İşıq sürəti - zamanla müqayisədə o qədər böyükdür ki, sanki zaman sürətin içində əriyib. Yalnız görünən sürətdir, zaman yox. Amma bəzi hadisələri müşahidə edərkən isə adamın ağlına tərs fikir gəlir. Asta-asta enən yarpaq, kəpənək uçuşu, qarışqanın hərəkəti və s. bu kimi hadisələri seyr edərkən, sanki görünən zamandır, sürət o qədər kiçik təsir bağışlayır ki, sanki zamanın içində əriyib yox olur.

Beləliklə, elmi informasiyanın doğurduğu fəlsəfi mənzərələr bədii-fəlsəfi düşüncənin predmetinə çevrilir, mövzunun bədii həlli zamanı yaradıcı təfəkkür öz funksiyasını yuxarıda qeyd etdiyimiz modelin (Eİ – FD – BT) formalaşdırdığı bədii laboratoriya əsasında həyata keçirir:

***İşıq sürəti***

***Sürətə bax: saniyədə 300 000 km. –
sürətin içində əriyir zaman.***

***Və heç bir cisim aşa bilməz bu sürəti,
isbat olunub riyazi.***

***Zaman nisbidi –
inandırır bizi cənab Eynşteyn.***

***Sürət – vahid zamanda yerdəyişmədi -
cismin hərəkət ayrisi yəni.***

***Bax, bax: yarpaqdı enən, üstündə
balaca bir həşərat.
Dayanıb sürət, yeriyir zaman.***

***Ağaca vida nəğməsi – yarpaq uçuşu,
sürəti azalır hər an.
Uçan yarpaqla birgə endi həşərat –
bitdi uçuş əyrisi - torpağın
üstü ilə sürünür indi.
Zamanın içində boğulur sürət.***

***Doğuldu kəpənək – öldü kəpənək,
hardadı zaman, görünmür sürət.***

***"O" nöqtəsində başlayıb elə "O"-da
bitdi hərəkət.
Uçuşçun doğulan uçuşa həsrət.***

***Qəfəsdə asta-asta gəzişir aslan –
darıxır insan. Usanır bir qəfəslik sıxlıq,
məhv olur zaman, hardasa uyuyur
aslan sıçrayışına həsrətli bir "an".***

***Zaman, Sürət, Hərəkət.
Fizika qanunlarına sığmayan
hadisələr var.***

***Bax, bax: yarpaqdı saralır,
sürünür həşərat, doğulur kəpənək -
ölür kəpənək,
qəfəsdə asta-asta gəzişir aslan,
həyatda yavaş-yavaş darıxır insan –
sürət ölçüsüz.
Hardasan, hardasan, ...
hardasan, zaman?***

Zaman və məkanın nisbiliyi. Nisbilik nəzəriyyəsi və ya relyativistik mexanika, məlum olduğu kimi, fəza, zaman və hərəkət haqqında yeni elmi nəzəriyyədir. Relyativistik mexanika çox böyük sürətlə hərəkət edən cisimlərin mexanikasıdır. Bu nəzəriyyəyə görə, zaman və fəzaya ayrılıqda deyil, bir-biri ilə bağlı şəkildə baxmaq lazımdır. Bu nəzəriyyənin əsasında iki postulat dayanır və bu postulatlardan zaman və məkan barədə alınan nəticələrin qısa məzmununu verməyə çalışaq. Klassik fizikadan fərqli olaraq, Nisbilik nəzəriyyəsinə görə, zaman və fəza mütləq deyil, nisbidir. Tərpənməz bir sistemə görə sürətlə hərəkət edən digər sistemdə hər hansı bir prosesin başlanması və bitməsi arasındakı zaman intervalı tərpənməz sistemdəki zaman intervalından kiçik olur, cismin hərəkət istiqamətindəki ölçülərinin isə qısalır. Bu nəzəriyyə əsasında sübut olunur ki, çox böyük sürətlə hərəkət nəticəsində zamanın yubanması, məkan ölçülərinin qısalması müşahidə olunur. Yəni isbat olunur ki, zaman və məkan ölçüləri mütləq deyil, hərəkətdən asılı olaraq dəyişən xüsusiyyətlərə malik olub nisbidir.

Bunu məşhur "Əkizlər paradoksu" adlı bir nümunə ilə açıqlayaq. Bu nümunəyə görə, əkiz qardaşlardan biri Yerdə qalıb, digəri işıq sürətinə yaxın sürətlə kosmosa səyahətə çıxarsa, kosmosa gedən qardaş geri qayıtdıqda əkiz qardaşını özündən daha yaşlı görəcək. Bunun səbəbi kosmosda səyahət edən qardaş üçün zamanın daha yavaş keçməsidir.

Beləliklə, bu nəzəriyyə əsasında əldə etdiyimiz faktlar hadisələrə təkcə elmi deyil, həm də yeni fəlsəfi təfəkkürlə yanaşma üçün yeni sahə - düşüncə meydanı yaradır. Bu vaxta qədər təsəvvürlərdə zaman və məkan dəyişməz idisə, artıq bu fakt öz elmi gücünü itirməklə, bədii-fəlsəfi mahiyyətini də itirir. Zaman və məkana yeni baxış formalaşmağa başlayır. Yaradıcı təfəkkürdə hadisələrə və predmetlərə fərqli baxış sərgiləmək imkanı yaradır. İşıq sürəti, fəza və zamanın nisbiliyi haqqında yeni faktlar həm də yeni formatda və məzmunda bədii mətnlərin yaradılması imkanı yaradır. Artıq bu nəzəriyyənin verdiyi elmi faktların fəlsəfi düşüncə vasitəsilə yaradıcı təfəkkürə inikası fərqli bədii əsərlərin yaranması üçün, həm də Nisbilik nəzəriyyəsində olduğu kimi, yeni məkan-zaman sahəsi yaradır:

***Nisbilik nəzəriyyəsi***

***Qəribə, bəzən də qəribə olduğu qədər də
qorxulu fikirlər gəlir ağlıma –
bir az da maraqlı fikirlər, doğrusu.***

***Gözümü yumuram; məsələn,
ağlıma gəlir ki, uçuram işıq sürətilə.
Uçuram hara, – bilmirəm,–uçuram
və uzaqlaşıram bir göz qırpımında
yaşadığım şəhərdən,
yaşadığım şəhərin yerləşdiyi
ölkədən, yaşadığım ölkənin
sığındığı kürədən. Uzaqlaşıram
bir anın içində...
sonra heç nə xatırlamıram.***

***Açıram gözümü; qayıtmışam.
Az qala heç kəsi və heç nəyi tanımıram.
Məkan tanınmaz dərəcədə dəyişilib.
Tanışlar həyatda yoxdu artıq,
məndən sonra doğulanlar
qocalıb hətta.
Dəyişməyən, deyəsən,
mənəm təkcə. Ya da
dəyişəm belə, bu, nəzərə
çarpmayacaq dərəcədə.
Lakin...***

***Sanki
ömürdən hansısa bir parçanı
salıb itirmişəm.Dəhşətə gəlirəm
və yaşanmış ömrümü gəzirəm
bütün bu dəyişmələr içində.***

(ardı var)

*Əli Şirin ŞÜKÜRLÜ,
riyaziyyat üzrə fəlsəfə doktoru,
şair-esseist*

*Siyasət aləmindən*

# XX əsrdə 10 dövlət dünya xəritəsindən silinib

## *Bəs planetimizi yeni əsrdə hansı dəyişikliklər gözləyir?*

**Belə proseslər tarix boyu həmişə olub, indi də davam edir. Sevindirici haldır ki, yeni əsrin dörddə biri geridə qalsa da, hələ ki, ləğv edilən ölkə yoxdur. Halbuki, ötən əsrin ilk onilliklərində, xüsusən, Birinci Dünya müharibəsinin nəticəsində bir neçə ölkə öz mövcudluğunu qoruya bilməmişdi. İkinci Dünya müharibəsi də həmin prosesi sürətləndirmişdi, SSRİ-nin süqutu da. Çox təəssüf ki, politoloqların fikrincə, planetimiz yenə də dünya müharibəsi ərəfəsindədir. Amma hansı dövlətin xəritədən silinəcəyini heç kəs proqnozlaşdıra bilmir.**



Beləliklə, avqustun əvvəllərində qazaxıstanlı həmkarlarımız "XX əsrdə dünya xəritəsindən yox olmuş 10 ölkə" adlı (https://kz24.news/article/istoriya/10-stran-kotorye-ischezli.html) geniş məqalə ilə çıxış ediblər. Orada yazılırdı ki, ötən əsrdə dünyanın siyasi xəritəsi sürətlə dəyişib. Planetimiz iki dəfə Yer kürəsini tamamilə əhatə etmiş, dağıdıcı təsiri altına almış müharibələrlə üz-üzə qalmalı olduğuna görə imperiyalar çökmüş, onların xarabalıqları altından yeni dövlətlər ortaya çıxmış, bəzi dövlətlər parçalanmış, bəziləri birləşdirilmişdir. Paytaxtların, ərazilərin, sərhədlərin, bayraqların dəyişdirilməsi faktları danılmaz olmuşdur. Özünü əbədi hesab edən dövlətlərin bəziləri hamının gözü qarşısında yox olmuş, əvəzində, bunun əksi olan faktlar ortaya çıxmışdır. Həmin proses türk dünyasından da yan keçməyib. Osmanlı İmperiyası çökmüş, böyük Atatürkün müdrikliyi sayəsində Osmanlının qalıqları altından qüdrətli Türkiyə Cümhuriyyəti ortaya çıxmışdır.



...Əlqərəz, dünyanın siyasi xəritəsində adı görünməyən, bayraqlar arasında bayrağı dalğalanmayan həmin on ölkəni qazax qardaşlarımız bu şəkildə sıralayıblar:

**1. Yuqoslaviya**

1918-1992-ci illərdə mövcud olmuş bu ölkə Birinci Dünya müharibəsindən sonra serb, xorvat və slovenlərin krallığı kimi tanınmış, cəmi on ildən sonra isə boşnakların, makedoniyalıların və albanların da birləşdirilməsi ilə Yuqoslaviya adlı yeni federativ dövlət yaradılmışdır. Bu çoxmillətliliyə böyük ümidlər bəslənilsə də, Yuqoslaviyanın əsas problemi də məhz həmin cəhət olmuşdur. Əsrin son onilliyində başlanan etnik qarşıdurmalar qanlı müharibələrə çevrilmiş, hətta NATO bu ölkəyə müdaxilə etməli olmuşdur.

Nəhayət, bu gün Yuqoslaviyanın yerində Serbiya, Xorvatiya, Sloveniya, Bosniya və Hersoqovina, nəhayət, qismən tanınmış Kosovo dövlətləri mövcuddur.

**2. Çexoslovakiya**

Avstriya–Macarıstan imperiyasının çökməsi nəticəsində yaranan bu dövlət dili, tarixi və mədəniyyəti fərqli olan çexləri və slovakları birləşdirirdi. Şərqi Avropanın ən demokratik ölkələrindən biri olan Çexoslovakiyanın taleyi 1938-ci ildə – Hitler Almaniyasının müdaxiləsi nəticəsində tamamilə dəyişmiş, dünya müharibəsi bitəndən sonra faktiki olaraq, SSRİ-nin nəzarəti altına keçmişdir. Hakimiyyətə kommunistlər gəlmişdi.

1991-ci ildə isə Çexoslovakiya müharibəsiz, sülh şəraitində parçalanmış Avropa tarixinə "məxməri boşanma" adıyla düşmüş ayrılmadan sonra dünyanın yeni xəritəsində Çexiya və Slovakiya dövlətləri görünmüşdür.

**3. Almaniya Demokratik Respublikası**

1949-1990-cı illərdə mövcud olmuş bu dövlət İkinci Dünya müharibəsinin nəticələrinə görə iki yerə parçalanmış Almaniyanın Sovet İttifaqının nəzarətində olan hissəsi idi. ADR-i Amerika, Britaniya və Fransanın nəzarətində olan Federativ Almaniya ilə Berlin divarları ayırırdı.

1990-cı ildə – SSRİ-də "islahatlar" başlanmış, Berlin divarlarının ləğv edilməsindən sonra Almaniya Demokratik Respublikası ləğv edilmiş, vahid Almaniya dövləti yaranmışdı.

**4. SSRİ**

1922-1991-ci illərdə mövcud olmuş bu kommunist dövləti XX əsrin əsas güc mərkəzlərindən biri idi. SSRİ dünya tarixində bütün cəhətlərdən böyük rol oynamışdır. Bu dövlət əsrin əvvəllində Rusiyada davam edən vətəndaş müharibəsinin nəticəsində ərsəyə gəlmiş, sonra çoxsaylı ilhaq və işğallarla öz ərazisin genişləndirmişdi.

SSRİ-nin tərkibində olan 15 müttəfiq respublikanın əslində, heç bir müttəfiqlik səlahiyyəti yox idi. Kreml istənilən respublikaya qarşı təzyiqlər edə bilir, açıq şəkildə milli ayrı-seçkiliklər hökm sürürdü. Zorakılıqla idarə olunan bu ucsuz-bucaqsız ölkənin faşist Almaniyası üzərindəki qələbəsində bütün müttəfiq respublikaların payı olsa da, həmin qələbədə Azərbaycan neftinin xüsusi rolu olmuşdu. Ancaq buna baxmayaraq, SSRİ rəhbərliyi 1990-cı ilin yanvarında Bakını qanına qəltan eləmişdi.

Uzun illər dünyanın heç bir yerində Kremlin müdaxiləsi olmadan heç bir məsələ həll edilməsə də, 1991-ci ildə SSRİ-nin məsələsini kimlərsə olduqca sadə yolla həll etdilər və bu "qırmızı" imperiya çökdürüldü. Dünya xəritəsi yenidən çəkildi.

**5. Avstriya – Macarıstan imperiyası**

Bəzi siyasətçi və tarixçilərin "ayaq üstdə dayanmaq üçün olduqca böyük" dövlət adlandırdığı bu imperiya 1867 – 1918-ci illərdə mövcud olmuşdur. Əslində, bu dövlət bir imperatorun əlinin altında olan iki dövlət kimi də tanınırdı. Üstəlik bu imperiyanın tərkibində çexlər, slovaklar, slovenlər, serblər, xorvatlar, ukraynalılar, rumınlar, və başqaları – onlarca xalqın təmsilçiləri yaşayırdı. Onları ancaq eyni imperatorun tabeçiliyində olmaları birləşdirirdi.

İyirminci əsrin əvvəllərində həmin imperiyanın divarlarında çatlar əmələ gəlmiş, az qala bütün xalqlar öz milli hüquqlarının qorunması iddiası ilə çıxış etməyə başlamışdılar. Həmin fakt Avstriya – Macarıstan imperiyasını ciddi şəkildə zəiflətmiş, bu dövlətin Birinci Dünya müharibəsinə qatılması isə arzuolunmaz sonluqla başa çatmışdır. Çünki ön cəbhədəki məğlubiyyətlərdən başqa arxa cəbhədə də çoxsaylı həllolunmaz problemlər qalmaqda idi.

Nəhayət, müharibənin nəticəsində bu imperiya dağıldı və yerində Avstriya, Macarıstan və Çexoslovakiya dövlətləri yarandı. Ərazinin bəzi hissələri isə Polşa, İtaliya, Yuqoslaviya və Rumıniyaya verildi.

**6. Osmanlı İmperiyası ( 1299 – 1922)**

Ötən əsrdə dünya xəritəsindən silinmiş ən güclü və ən uzunömürlü imperiya 623 il mövcud olmuş Osmanlı dövləti idi. Balkanlardan ərəb ölkələrinə, Şimali Afrikadan Qafqazadək böyük bir ərazini əhatə edən bu qüdrətli İslam dövləti güclü orduya, mükəmməl idarəetməyə və beynəlxalq siyasətə ciddi təsir etmək imkanlarına malik idi.

Paytaxtı Konstantinopol – indiki İstanbul olan bu dövlət XIX əsrin sonlarından etibarən qüruba doğru gedirdi. Bəzi Avropa siyasətçilərinin "xəstə insana çevrilmiş dövlət" adlandırdığı Osmanlının ordusu Birinci Dünya müharibəsində uduzmuş, iqtisadiyyat durğunluq halına düşmüş, üstəlik, milli azlıqların müstəqillik uğrunda mübarizələri ciddi şəkil almışdı. Nəticədə Osmanlı dövləti müasir Türkiyə hüdudlarından kənardakı bütün ərazilərini itirmişdi.

1922-ci ildə sultanlıq ləğv edilmiş, sonrakı il isə böyük dövlət xadimi Mustafa Kamal Atatürkün rəhbərliyi ilə müasir dövrün ən güclü dövlətlərindən olan Türkiyə Cümhuriyyəti yaradılmışdır. Atatürkün apardığı genişmiqyaslı islahatlar nəticəsində xilafət ləğv edilmiş, şəriət hakimliyi yaradılmış, əsrlər boyu istifadə edilən ərəb əlifbası latın qrafikası ilə əvəz olunmuşdu. Beləliklə, çoxəsrlik imperiya müasir, dünyəvi dövlət olan Türkiyə Respublikasına çevrilmişdi. Ancaq Atatürkün göstərişi ilə ölkədə Osmanlı memarlığı, mədəniyyəti və mətbəxi qorunub saxlanılmışdır.

**7. Tibet**

1912 – 1951-ci illərdə mövcud olmuş bu dövlət planetin ən sirli məkanı olmaqla yanaşı, çoxsaylı dini-mənəvi dəyərlərə malik idi. Əsrlər boyu mənəvi və siyasi baxımdan Çindən asılı olan bu ölkə 1912-ci ildə XIII Dalay–lamanın rəhbərliyi ilə müstəqilliyini elan etmişdi. Həmin dövrdən 1950-ci illərədək Tibet faktiki olaraq dünya xəritəsində müstəqil dövlət kimi mövcud idi. 1950-ci ildə Pekinin hərbi müdaxiləsindən sonra Tibet Çin Xalq Respublikası ərazisində muxtar rayon statusu ilə xəritəyə salınıb.

1959-cu ildə tibetlilərin müstəqillik uğrunda mübarizəsi başlamış və kütləvi tədbirlər yatırılmışdır. Bundan sonra Dalay – lama Hindistana qaçmışdır.

**8. Sıkkım**

1042 – 1975 illərdə Himalayda mövcud olmuş bu kiçik knyazlıq dövləti Hindistan, Nepal, Butan və Tibet dövlətlərinin sərhədləri arasında sıxılmış kimi görünürdü. Bu dövlət çoxdan mövcud olsa da, XVII əsrdən – hakimiyyətə namqyal sülaləsinin gəlməsindən sonra mühüm strateji əhəmiyyət kəsb edirdi. Çünki məşhur İpək yolunun karvanları məhz Sıkkım ərazisindən keçirdi. Orta əsrlərdə bu dövlət güc və müəmmalar, sirrlər ünvanı kimi qəbul edilirdi.

Hindistan Britaniya müstəmləkəliyindən qurtulandan sonra Sıkkım Dehlinin nəzarəti altına keçmişdir. Bu ölkədə formal olaraq monarxiya quruluşu saxlanılsa da, 1975-ci ildə keçirilən referendumun nəticələrinə görə Sıkkım Hindistanın 22-ci ştatıdır. Yəni artıq dünya xəritəsində bu adda dövlət yoxdur.

**9. Birləşmiş Ərəb Respublikası**

Cəmi 13 il mövcud olmuş bu dövlətin (1958 – 1971-ci illər) olduqca maraqlı yaranma tarixçəsi var. Belə ki, bu dövlət başqa dövlətlər kimi coğrafi baxımdan deyil, ideoloji baxımdan formalaşdırılmışdı. Belə ki, 1958-ci ilə Misir və Suriya ümumi düşmənə (İsrailə) birlikdə cavab vermək üçün bir ölkə kimi birləşmiş, rəhbər Camal Əbdül Nasir olmuşdu. Bu ittifaq kağız üzərində yaxşı görünsə də, əslində, təməl möhkəm deyildi. Çünki Suriya özünü olduqca kiçik tərəfdaş kimi hiss edərək narahatlıq hissləri keçirirdi. Üstəlik, fərqli iqtisadiyyatları və bir-biri ilə uzlaşa bilməyən orduları idarə etmək asan deyildi. Ona görə də cəmi üç ildən sonra Suriya bu birlikdən ayrılaraq öz müstəqilliyini bəyan etmişdi.

Ancaq maraqlıdır ki, Misir 1971-ci ilə qədər Birləşmiş Ərəb Respublikası kimi mövcud idi. Bu fakt sübut etdi ki, hətta əhalisinin dini, dili, dövlətlərinin ideologiyası da eyni olan ölkələr vahid lidersiz heç nəyə nail ola bilmirlər.

**10. Neytral Moresnet**

1816-cı ildən 1920-ci ilədək mövcud olmuş bu kiçik dövlət də iyirminci əsrdə dünya xəritəsindən silinmişdir. Onun yox olmasının maraqlı tarixçəsi var. Cəmi 3, 5 kvadrat/kilometr ərazisi olan Neytral Moresnet Belçika ilə Almaniyanın arasında yerləşirdi. Napoleonun həmin ərazilərə hücumundan sonra (1816) böyük güc sahibləri bu kiçik ərazinin kimin əlində qalması məsələsini həll edə bilmədilər. Çünki hamı oradakı zəngin sink mədənlərinə sahib olmaq istəyirdi. Bu səbəbdən də həmin ərazini neytral adlandıraraq əvvəlcə Niderlandla Prussiyanın, sonra isə Belçika və Almaniyanın tabeçiliyinə verdilər. Ancaq Moresnetin öz bayrağı, gerbi və hətta rəsmi esperanto dili də var idi. Lakin əhalinin vətəndaşlığı da yox idi, milliyyəti də.

Birinci dünya müharibəsinin nəticələrindən sonra – Versal Müqaviləsinə əsasən Moresnet Belçikaya verildi və bununla da dünya xəritəsindən silindi.

...Yəni bu gün özünü hamıdan güclü, dövlətini isə əbədi hesab edənlər unutmasınlar ki, dünyanın siyasi xəritəsinin dəyişməsi faktları olub və yenə də ola bilər.

Allah planetimizi Üçüncü Dünya müharibəsindən və növbəti Versal müqavilələrindən hifz eləsin!

***İttifaq MİRZƏBƏYLİ***

**(Məqalə bəzi ixtisarlar və kiçik əlavələrlə tərcümə edilmişdir)**

# Yazıçı-publisist Salman Alıoğlunun 70 illiyi qeyd edilib




**Azərbaycan Jurnalistlər və Yazıçılar Birliklərinin üzvü Salman Alıoğlunun Mətbuat Şurasında 70 illik yubiley tədbiri keçirilib.**

Tədbirdə çıxış edən Mətbuat Şurasının sədri Rəşad Məcid uzun illər mətbuat orqanlarında çalışan Salman Alıoğlunun keçdiyi yolu xatırladıb, onun əmək fəaliyyətinin ayrı-ayrı vaxtlarda "Ağdam" rayon qəzeti, "Qarabağ", "Ədalət" və "Respublika" qəzetləri ilə bağlı olduğunu bildirib. Təcrübəli jurnalistin peşəkarlıq keyfiyyətlərinin gənc qələm sahibləri üçün örnək olduğunu qeyd edib.

Əməkdar jurnalistlər Elşən Əliyev, Rəşid Faxralı, Əməkdar mədəniyyət işçisi Xanlar Məmmədov, araşdırmaçı-jurnalist Elxan Salahov və başqaları bu il "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilən tanınmış jurnalistin kitablarından, qələmə aldığı hekayələrin kompozisiya, dil və üslub xüsusiyyətlərindən danışıblar. Onun yaradıcılıq nümunələrində kənd həyatının özünəməxsus və şirin bir koloritlə təsvir edildiyi vurğulanıb.

***XQ***

**Çin 2027-ci ildən etibarən iqlim siyasətində mühüm yeniliyə start verəcək: Ölkə ilk dəfə olaraq istixana qazı tullantılarına mütləq məhdudiyyətlər tətbiq edəcək. Bu addım Pekinin "yaşıl" iqtisadiyyat qurmaq və qlobal iqlim gündəliyində aparıcı mövqeyini möhkəmləndirmək strategiyasının tərkib hissəsidir. İndiyədək Çin sənayenin enerji səmərəliyinə əsaslanan nisbi yanaşmadan istifadə edirdi. Yəni kvotalar məhsul vahidinə düşən tullantılara görə müəyyənləşdirilirdi. Yeni model isə bütünlükdə emissiyalara limit qoymaqla Avropa İttifaqının (Aİ) təcrübəsinə daha yaxın olacaq.**

# Çin "yaşıl" gələcəyi dəstəkləyir



Çinin təqdim etdiyi yeni sənəddə qeyd olunur ki, 2027-ci ildən etibarən bir sıra sənaye sahələri üçün mütləq məhdudiyyətlər qüvvəyə minəcək. Həmin vaxtadək isə emissiyaların ticarəti sistemi (ETS) ölkənin bütün əsas sənaye sahələrini əhatə edəcək. Hazırda bu sistem yalnız səkkiz sektoru (elektrik enerjisi, neft-kimya, kimya sənayesi, tikinti materialları, polad və çuqun, əlvan metallurgiya, sellüloz-kağız istehsalı və aviasiya) əhatə edir. Gələcəkdə kvotalar pulsuz və ödənişli üsulla bölüşdürüləcək, lakin ödənişli mexanizmin çəkisi davamlı şəkildə artacaq.

Bu addımların nəticəsində 2030-cu ilə qədər ölkədə milli karbon bazarının tam formalaşdırılması hədəflənir. Çin hesab edir ki, həmin ildə istixana qazı tullantılarının həcmi pik həddə çatacaq, 2060-cı ildə isə ölkə karbon neytrallığına nail olacaq. 2021-ci ilin iyulunda işə düşən karbon kvotaları bazarı bu məqsədə çatmaq üçün ilk mühüm addım idi. Çin artıq 2030-cu ilə qədər $CO_2$ tullantılarını 130 milyon ton azaltmağı planlaşdırır. İki illik "keçid dövrü" isə şirkətlərə daha sərt qaydalara uyğunlaşmaq imkanı verir.

Hazırda Çində kvotaların paylanması "nisbi karbon tutumluluğu" prinsipinə əsaslanır: hər sahəyə məhsul vahidinə görə müəyyən hədd qoyulur, artıq tullantı emissiyaları üçün əlavə kvotalar alınmalı olur. Yeni model isə mütləq limitlər nəzərdə tutur. Bu da o deməkdir ki, müəyyən sahələr üçün ümumi emissiya həddi müəyyənləşdiriləcək və kvotalar şirkətlər arasında bu limit əsasında bölüşdürüləcək. Qeyd edək ki, məhz bu prinsip Avropa İttifaqının European Union Emission Trading System (EU ETS) çərçivəsində tətbiq olunur.

Çinin yeni yanaşması ölkəni Aİ-nin Carbon Border Adjustment Mechanism (CBAM) siyasətinə daha da yaxınlaşdırır. Ekspertlər hesab edirlər ki, yaxın illərdə Çin də Avropaya bənzər "karbon vergisi" sisteminə keçə bilər. Bu, qlobal ticarətə təsirsiz ötüşməyəcək: Avropaya ixrac edilən enerji resursları və gübrə istehsalında istifadə olunan xammal daha ciddi tələblərlə üzləşəcək. Bu baxımdan Rusiya da daxil olmaqla Çinə məhsul ixrac edən ölkələr yeni reallıqlara uyğunlaşmaq məcburiyyətində qalacaqlar.

Bununla yanaşı, ekspertlər vurğulayırlar ki, Çin ETS-in Avropa bazarı ilə tam inteqrasiyası üçün hələ kifayət qədər addım atmayıb. CBAM tələblərinə uyğunlaşmaq üçün ölkənin qarşısında iki əsas məsələ qalır: Pulsuz kvotaların azaldılması və karbon hesabatlığının keyfiyyətinin artırılması. Bundan başqa, hazırda Çin və Aİ sistemləri arasında birbaşa əlaqə mövcud deyil. Ona görə də Çində kvotaların mütləq limitlər əsasında tətbiqi CBAM baxımından zəruri, lakin kifayət qədər olmayan addım sayılır.

Mütəxəssislərin fikrincə, Çin bu addımları ilə yalnız iqlim öhdəliklərini yerinə yetirməyi deyil, həm də texnoloji və metodoloji üstünlüklər qazanaraq qlobal bazarlarda liderliyini gücləndirməyi hədəfləyir. Kept şirkətinin davamlı inkişaf üzrə eksperti Yevgeni Tananayko bildirir ki, Pekin aşağıkarbonlu texnologiyaların inkişafı və kommersiyalaşdırılmasında Avropanı geridə qoymaq niyyətindədir. Digər tərəfdən, bu kursun beynəlxalq ticarətə necə təsir göstərəcəyi çox vaxt Çinin Aİ-nin siyasətinə nə dərəcədə yaxınlaşacağı ilə bağlı olacaq.

Beləliklə, Çin iqlim siyasətində Avropanın izi ilə getsə də, hələ bir sıra boşluqlar qalmaqdadır. Bununla belə, Pekinin elan etdiyi planlar artıq indi qlobal bazarlarda yeni oyun qaydalarının formalaşmasına təkan verir və yaxın illərdə beynəlxalq ticarətin strukturunu dəyişə biləcək əsas amillərdən biri olacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 184 (30878) 31 avqust 2025-ci il, bazar

# Keşkü Kəndində II Moruq Festivalı




**Göygöl rayonunun Keşkü kəndi bu həftəsonu təbiət və əyləncənin birləşdiyi möhtəşəm bir tədbirə evsahibliyi edir. II Moruq Festivalı, yerli fermerlərin zəhmətini və bölgənin unikal kənd təsərrüfatı məhsullarını dünyaya tanıtmaq, eləcə də turizmi inkişaf etdirmək məqsədilə keçirilir.**



Festival Göygölün təbii gözəlliklərini dünyaya tanıtmağı hədəfləyir və bununla yanaşı, kənd təsərrüfatının və aqroturizmin inkişafına töhfə verməyi qarşısına məqsəd qoyur. Göygöl artıq uzun illərdir ki, moruq istehsalı ilə məşhurdur, bu faydalı giləmeyvə isə son illərdə sənaye üsulu ilə geniş ərazilərdə əkilir və becərilir.

Festivalın təşkilatçıları arasında Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Turizm Agentliyi, "AzerGold" və bir çox digər dövlət və özəl qurumlar yer alır. Bu möhtəşəm tədbir bölgənin turizm sektorunu





inkişaf etdirməklə yanaşı, moruq istehsalını daha geniş auditoriyaya tanıtmaq məqsədini daşıyır.

Keşkü kəndinin təbii sərvətlərindən biri olan moruq festivalın mərkəzi mövzusudur. Göygöl rayonu, xüsusilə dağlıq ərazilərində, moruq istehsalı ilə məşhurdur. Burada yetişən "Polka" və "Polyana" sortları isə yüksək məhsuldarlığı ilə fərqlənir. Moruq tərkibində olan dəmir, qlükoza və fruktoza sayəsində həm təbii müalicəvi xüsusiyyətlərə, həm də ürək-damar və beyin sağlamlığını dəstəkləyən faydalara malikdir.

Festivalın məqsədi, moruq istehsalçılarına yalnız öz məhsullarını tanıtmaqla kifayətlənməyib, onlara yeni işgüzar əlaqələr qurmaq və iqtisadiyyata töhfə verməkdir. Ziyarətçilər festivalda yerli istehsalçılar tərəfindən təqdim olunan müxtəlif moruq növlərini dadma imkanı əldə edəcək və sevdikləri məhsulları alacaqlar.

Festival yalnız moruq məhsulunun nümayişi və satışından ibarət olmayacaq. Ziyarətçilər üçün müxtəlif interaktiv zonalar təşkil ediləcək. Kənd təsərrüfatı məhsullarının sərgi-satış yarmarkası, moruq təsərrüfatı guşəsi, ustad dərsləri, rəsm çəkmək üzrə xüsusi dərslər və daha çox maraqlı tədbir festival iştirakçılarının diqqətini çəkəcək.

Əyləncənin dozası isə açıq havada keçiriləcək konsertlər və idmançıların nümunəvi çıxışları ilə artırılacaq. Xüsusi kampinq zonası da ziyarətçiləri qarşılayacaq, bura gələnlər təbiət qoynunda, moruq meyvələrinin ləzzətini dadarkən, açıq havada qalmaq imkanı əldə edəcəklər.

Göygölün təbiətindəki harmoniyanı yaşamaq və təbiətin müxtəlif rəngləri ilə tanış olmaq istəyənlər üçün II Moruq Festivalı ideal bir fürsət təqdim edir. Hər gün saat 10:00-dan 21:00-a qədər açıq olacaq festivalda minlərlə insanın iştirak edəcəyi gözlənilir. Keşkü kəndində təşkil edilən bu tədbir, bölgənin gələcəkdəki iqtisadi inkişafı və kənd təsərrüfatı sektorunun müasir trendlərə uyğun olaraq inkişaf etməsinə mühüm töhfələr verəcək.

Bu festival yalnız moruq istehsalının təbliği üçün deyil, həm də Göygöl rayonunun mədəniyyətini, təbiətini və zəngin turizm potensialını dünyaya tanıtmaq üçün mühüm bir platformadır.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
***Göygöl rayonu***

## İDMAN

### "Turan Tovuz"dan əzmkar qələbə



**Misli Premyer Liqasının III turunun oyunları keçirilib. Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda baş tutan görüşdə "Sumqayıt" "Şamaxı"nı qəbul edib. Oyunun 63-cü dəqiqəsində "Şamaxı"nın futbolçusu Rikardo Apolinario avtoqola imza atıb. 75-ci dəqiqədə isə Edqar Adilxanov bərabərlik qolunu vurub – 1:1.**

"Neftçi" isə Bakıda "Turan Tovuz"u qəbul edib. Qarşılaşmanın 6-cı dəqiqəsində Filip Ozobiç tovuzluları hesabda irəli çıxarıb – 0:1. Bundan sonra tərəflərin səylərinə baxmayaraq, hesab dəyişməyib.

### "Qarabağ"ın əsas mərhələdəki oyunlarının təqvimi



**"Qarabağ" komandasının UEFA Çempionlar Liqasının Liqa mərhələsindəki oyunlarının təqvimi bəlli olub.**

UEFA-nın rəsmi saytında verilən məlumata görə, Ağdam təmsilçisi ilk matçını sentyabrın 16-da Portuqaliyada "Benfika"ya qarşı keçirəcək. İlk ev görüşü isə oktyabrın 1-də "Kopenhagen"ə (Danimarka) qarşı olacaq.

"Köhlən atlar" oktyabrın 22-də "Atletik Bilbao" (İspaniya) ilə səfərdə, noyabrın 4-də isə "Çelsi" (İngiltərə) ilə Bakıda qarşılaşacaq. Noyabrın 25-də "Napoli"nin (İtaliya) qonağı olacaq ağdamlılar dekabrın 10-da öz meydanlarında "Ayaks"ı (Niderland) qəbul edəcəklər. Azərbaycan çempionu 2026-cı il yanvar 21-də "Ayntraxt Frankfurt"u (Almaniya) Bakıda qəbul edəcək yanvarın 28-də isə bu mərhələnin sonuncu oyununda "Liverpul"un (İngiltərə) qonağı olacaq.

### 40 yaşlı hücumçunun 940-cı qolu



**Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubunun portuqaliyalı hücumçusu Kriştianu Ronaldu peşəkar karyerasında 940-cı qolunu vurub.**

Avqustun 29-da "Əl-Nəsr" Səudiyyə Ərəbistanı çempionatının ilk turunda "Əl-Taavun"u məğlub edib, oyun 5:0 hesabı ilə başa çatıb. 40 yaşlı forvard penaltidən fərqlənərək 940-cı qolunu vurub.

Ümumilikdə Ronaldunun "Real Madrid"də 450, "Mançester Yunayted"də 145, "Yuventus"da 101, "Əl-Nəsr"də isə 101 qolu var. Portuqaliyalı qalan qollarını Lissabonun "Sportinq" komandası və Portuqaliya millisinin heyətində vurub.

***Qabil YUSİFOĞLU***
***XQ***

## "Barselona" 17 yaşlı azərbaycanlı istedadla müqavilə imzalayıb



**Kataloniyanın "Barselona" klubu 17 yaşlı istedadlı azərbaycanlı futbolçu İbrahim Babayevlə müqavilə imzalayıb.**

İlk vaxtlardan kataloniyalıların U-17 komandasında çıxış edəcək yarımmüdafiəçi buna qədər İsveçrənin "Servette" klubunun gənclər komandasında çıxış edib və İsveçrə vətəndaşlığı var. O, əvvəlki klubunda 25 oyunda 5 qol vurub. 2008-ci il təvəllüdlü İbrahim Babayev həm də Azərbaycan milli komandasının üzvüdür.

Müqavilənin təntənəli imzalanma mərasimində klubun Gənclərin İnkişafı üzrə Departamentin direktoru Xuan Soler və "La Masia"nın rəhbəri Xose Ramon Aleksanko iştirak edib.

Yeri gəlmişkən, buna qədər "Barselona" klubu bu il avqustun 10-da 21 yaşlı azərbaycanlı qapıçı, "Neftçi" komandasının yetirməsi Eldar Tağızadə ilə 1 illik müqavilə imzalamışdır.

## Yaponiya miqrasiya siyasətini sərtləşdirir?

**Yaponiya hökuməti miqrasiya siyasətində ciddi dəyişikliklər etməyə hazırlaşır. Gözlənilir ki, bu dəyişikliklər ölkəyə uzunmüddətli dövrdə gələn əcnəbilərin sayının məhdudlaşdırılmasına və nəzarətin gücləndirilməsinə səbəb olacaq. "Asahi" qəzetinin məlumatına görə, bu məqsədlə Ədliyyə Nazirliyi nəzdində xüsusi ekspert qrupu yaradılacaq və həmin qrup immiqrasiyanın ölkənin sosial həyatına, əmək bazarına, sosial təminat sisteminə və ictimai təhlükəsizliyə təsirlərini qiymətləndirəcək.**



Bu təşəbbüs Yaponiyanın dərinləşən demoqrafik böhranı fonunda irəli sürülür. Ölkə uzun illərdir sürətlə qocalan əhali və aşağı doğum səviyyəsi ilə üzləşir. Əhalinin üçdə biri artıq 65 yaşdan yuxarı insanlardan ibarətdir, yeni doğulanların sayı isə tarixi minimum səviyyəyə enib. 2024-cü ildə ölkədə cəmi 686 min uşaq dünyaya gəlib ki, bu da rekord dərəcədə aşağı göstəricidir. Əgər bu ilin ikinci yarısında doğum sayı indiki templə azalmağa davam etsə, yapon uşaqlarının illik doğum göstəricisi yenidən rekord səviyyədə aşağı ola bilər.

Tədqiqat, həmçinin göstərir ki, bu ilin birinci yarısında Yaponiyada bağlanan nikahların sayı 238 min 561 nəfər olub ki, bu da keçən ilin eyni dövrü ilə müqayisədə 9952 nəfər azdır. Səhiyyə Nazirliyi Yaponiyada gənc əhalinin sayının azaldığını, insanların adətən daha gec yaşda evləndiyini və uşaq dünyaya gətirdiyini, bu səbəbdən də ölkədə doğum sayının azalmağa davam etdiyini bildirib. Nazirlik Yaponiyada doğum nisbətinin azalması problemini həll etmək üçün digər dövlət qurumları ilə əməkdaşlığı davam etdirəcəyini bildirib. Əlbəttə, bu tendensiya əmək resurslarının azalmasına, sosial təminat sisteminə artan təzyiqə və iqtisadiyyatın dayanıqlığı üçün yeni risklərə gətirib çıxarır.

Miqrantların əmək bazarında rolu ilə bağlı mübahisələr də getdikcə güclənir. Rəsmi Tokio son illərdə xüsusilə tikinti, kənd təsərrüfatı və xidmət sektorunda işçi çatışmazlığını kompensasiya etmək üçün əcnəbilərin cəlbinə imkan verib. Lakin xarici vətəndaşların artan sayı bir sıra narahatlıqlara səbəb olub. Yapon cəmiyyətində sosial müavinətlərə əlavə yükün düşəcəyi, əməkhaqlarının aşağı səviyyədə qalacağı və ictimai təhlükəsizliyin zəifləyəcəyi barədə narahatlıqlar geniş yayılıb.

Ekspertlərin fikrincə, ölkə yalnız immiqrasiyanı sərtləşdirməklə deyil, həm də daxili potensialdan daha səmərəli istifadə etməklə mövcud demoqrafik problemlərə cavab verə bilər. Əmək bazarında qadınların və yaşlı insanların iştirak səviyyəsinin artırılması, texnologiya və robototexnikanın daha geniş tətbiqi işçi qüvvəsi çatışmazlığını müəyyən qədər aradan qaldıra bilər. Bununla yanaşı, doğum səviyyəsinin artırılması üçün dövlətin ailə siyasətini gücləndirməsi, uşaq baxımı xidmətlərinə və təhsilə daha çox dəstək göstərməsi zəruri sayılır.

Yaponiyanın gələcəyi üçün həm miqrasiyanın tənzimlənməsi, həm də daxili islahatların paralel şəkildə həyata keçirilməsi qaçılmaz görünür. Əks halda əhalinin azalması və qocalması fonunda ölkə həm iqtisadi, həm də sosial baxımdan ciddi çətinliklərlə üzləşə bilər.

***S.ELAY***
***XQ***

## Hava

### Bakıda və rayonlarda yağmursuz bir gün

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətdən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Səhər bəzi yerlərdə zəif duman olacaq. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**



Havanın temperaturu gecə 21-25, gündüz 31-36 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət isə gecə 60-70 faiz, gündüz 30-35 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 19-23, gündüz 33-38, dağlarda gecə 10-15, gündüz 22-27 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3603
SİFARİŞ 1735
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00